**D İ Q Q Ə T !**

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

*Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.*

*QEYD: Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.*



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 151 (6115) 2 sentyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Valentina Matviyenko Birinci vitse-prezident Mehriban Əliyevanı doğum günü münasibətilə təbrik edib



Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanı doğum günü münasibətilə təbrik edib. Təbrikdə deyilir: "Siz öz əzmkarlığınız, peşəkarlığınız və insanlarla işləmək bacarığınız, həssaslıq və xeyirxahlığınızla həm Azərbaycanda, həm də onun hüdudlarından...

Bax 3

# Azərbaycan Prezidentinin vəzifə sahiblərindən tələbi...

*İlham Əliyev: "İnsanlar sizin qayğınızı hiss etməlidirlər. Bütün kəndləri bir-bir gəzib, vətəndaşlarla görüşüb, mövcud problemləri onların dilindən eşitməli və problemləri həll etməlisiniz"*



Bax 4

## Yeni Azərbaycan Partıyası beynəlxalq təşkilatlara müraciət ünvanlayıb



**Yeni Azərbaycan Partiyası Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi son təxribatlar və Livandan erməni ailələrinin qanunsuz olaraq Azərbaycanın işğal olunmuş torpaqlarına köçürülməsi ilə bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlayıb. Müraciətin mətnini...**

Bax 3

## Hikmət Hacıyev: "Dilqəm Əsgərovun və Şahbaz Quliyevin azad olunması daim gündəmdədir"



"Azərbaycanın işğal olunmuş ərazilərində koronavirusla bağlı kəskin vəziyyət var. Ermənistan rəhbərliyi isə bununla bağlı faktları gizlətməyə çalışır". SİA-nın məlumatına görə, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının (PA) Xarici siyasət məsələləri şöbəsinin müdiri...

Bax 3

## 20 yaşlı "Lider"

Bax 6

*Lider TV 20 yaşını qeyd edir*

1999-cu il dekabrın 28 də Azərbaycan Respublikasının mətbuat və informasiya Nazirliyi tərəfindən yayım lisenziyası əldə edən Lider televiziyasının ilk efir günü 2000-ci il sentyabrın 1-ə təsadüf edir. Kanal ilk verilişini də elə canlı yayımlayıb. Lider TV-nin ilk yayım həyəcanı uzaqlarda qalıb, çünki həmin əlamətdar tarixdən...

## Müdafiə Nazirliyi: Ön xətt bölmələrimiz qışa tam hazırdır



Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə yerləşən və hər bir müdafiə mövqeyi alınmaz qalaya çevrilən bölmələrində müasir əsgəri-məişət kompleksləri tikilərək şəxsi heyətin istifadəsinə verilib. Yaradılan müasir şərait heç şübhəsiz ki, xalq-ordu birliyinin, dövlət qayğısının və nümunəvi...

Bax 5

**Vüqar Rəhimzadə: "Ermənistan hakimiyyətində təmsil olunan yüksək vəzifəli şəxslər faşizm ideologiyasının daşıyıcılarıdır"**



Bax 5

**Qax sakini evini yandıraraq hadisə yerindən qaçıb**



Bax 16

**"Kurtlar vadisi"nin aktyoru vəfat etdi**



Bax 16

# Koronavirusla mübarizənin Azərbaycan nümunəsi

## Prezident İlham Əliyev: “Azərbaycanda vəziyyətə uyğun şəkildə atılan addımlar öz səmərəsini verir”

***Son həftələr ölkədə karantin müddətinin uzadılmasına ehtiyacın olması da, məhz dövlətin öz vətəndaşının sağlamlığını hər şeydən üstün tutmasının reallığının təsdiq edən amildir. Pandemiya başlayandan indiyə qədər məhz düşünülmüş siyasət nəticəsində Azərbaycanda vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Elə karantin müddətinin uzadılması da dövlətin öz vətəndaşlarına daha diqqətli olmasının realllığıdır. Avqustun 31-də Prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalın açılışında tibb müəssisəsinin kollektivi ilə videoformatda görüşü zamanı dövlət başçısı karantin pandemiyası dövründə vəziyyətə uyğun şəkildə həyata keçirilən işlərdən danışaraq bildirib ki, qısa müddət ərzində normal həyata qayıdılıb.***






Dövlət başçısı çıxışı zamanıonu da vurğulayıb ki, Azərbaycanda vəziyyətə uyğun şəkildə atılan addımların nəticəsində öz səmərəsini verməsinə arxayınlaşmaq olmaz, vətəndaşlarımız məsuliyyətli olmağa unutmamalıdırlar: “Bəzi Avropa ölkələrində xəstələrin sayında kəskin artım bizi düşündürür və bizi addımların daha ehtiyatla atılmasına sövq edir. Çünki bir daha demək istəyirəm ki, birinci dərəcəli məsələ insanların sağlamlığıdır. Əgər vətəndaşlarımız bundan sonra da məsuliyyətli olarlarsa, - mən qeyd etməliyəm ki, son müddət ərzində biz bu məsuliyyəti, doğrudan da görürük, hiss edirik və bu, real nəticələrdə öz əksini tapır, belə olan halda hesab edirəm ki, qısa müddət ərzində biz normal, adi həyata qayıda bilərik. Amma buna nail olmaq üçün əlbəttə ki, vətəndaşların məsuliyyəti hazırda birinci dərəcəli məsələdir”.

“Azərbaycanda vəziyyətə uyğun şəkildə atılan addımlar öz səmərəsini verir”,-deyən ölkə Prezidenti, məhz bunun nəticəsidir ki, karantin rejimi öz səmərəsini verir və bunun nəticəsində artıq bir çox şəhərlərdə bütün karantin məhdudiyyəti aradan qaldırılıb: “Ancaq böyük şəhərlərdə bu, qalıb və həmımızdan asılıdır ki, biz daha inamla və daha qısa müddət ərzində əlavə yumşaldıcı addımlar ataq”.

### “Biz hazırda bir neçə şirkətlə COVID-ə qarşı peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar fəal iş aparırıq”

“Biz hazırda bir neçə şirkətlə COVID-ə qarşı peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar fəal iş aparırıq. Mən ümid edirəm ki, Azərbaycan bu sahədə də peyvəndi əldə edən birinci ölkələr sırasında olacaqdır. Çünki biz artıq bir müddətdir ki, bu məsələ ilə əlaqədar çox fəal iş aparırıq”,-deyən dövlət başçısı burada əsas şərt bu peyvəndin bütün sınaq mərhələlərindən keçməsidir.

Prezident İlham Əliyev onu da bildirdi ki, istənilən yeni peyvənd bir neçə mərhələdən keçir və yalnız ondan sonra bazara çıxarılır, insanların vaksinasiyası üçün istifadə olunur: “Ona görə bütün mərhələlər, şirkətlərin apardığı araşdırmalar öz nəticəsini verəndən, bütün sınaq testləri aparılandan, beynəlxalq sertifikatlaşdırma aparılandan sonra biz bu peyvəndi ölkəmizə gətirəcəyik. Ondan sonra ümid edirəm demək olacaq ki, bu dəhşətli vəziyyət arxada qalıb”.

Dövlət başçısı əvvəlki aylara nisbətən son günlər hər gün 100-dən 200-ə qədər insan yoluxduğunu bildirib: “Əvvəlki aylarla müqayisədə bu, əlbəttə ki, daha yaxşı nəticədir. Ancaq vəziyyəti daim nəzarət altında saxlamaq üçün gündəlik monitorinq aparılır və aparılacaqdır. Eyni zamanda, yumşalma addımları elə atılmalıdır ki, xəstələrin sayı kəskin artmasın. Bu, əsas məsələdir və burada biz əlbəttə ki, öz addımlarımızı çox ehtiyatla atacağıq”.

### “İnsanların rifahı, onların sosial vəziyyəti və əlbəttə ki, sağlamlığı bizim üçün əsas məsələdir”

Pandemiyanın həm ölkə iqtisadiyyatına, həm də insanların sosial vəziyyətinə mənfi təsir göstərdiyini deyən ölkə Prezidenti bu təsirin fəsadlarını azaltmaq üçün praktiki addımlar atıldığını bildirdi: “Beş milyona yaxın insan geniş sosial paketlə əhatə olunub. Həm dövlət sektorunda, həm özəl sektorda işləyənlər, eyni zamanda, işsizlər, o cümlədən qeyri-formal formada işləyənlər, aztəminatlı təbəqəyə aid olan insanlar - bütün kateqoriyadan olan insanlar dövlət tərəfindən maddi dəstəklə təmin edilib. Bu, bir daha onu göstərir ki, insanların rifahı, onların sosial vəziyyəti və əlbəttə ki, sağlamlığı bizim üçün əsas məsələdir”.

Prezident pandemiyanın ilk günlərindən insanların sağlamlığı prioritet məsələ olduğunu dediyini, bu gün də bütün səylərin bu məsələnin həllinə istiqamətləndirildiyini hamıdan da bu sahədə daha məsuliyyətli olmağı tələb etdi .

### “Qanun hər kəs üçün qanundur, heç kim qanundan üstün ola bilməz”

Dövlət başçısı verilən tapşırıqlara məsuliyyətlə əməl etmədiyi halda cəza tədbirləri tətbiq olunduğunu bildirdi: “Əfsuslar olsun ki, bu gün hələ də vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar mövcuddur və qaydaların kobudcasına pozulması halları vardır. Belə hallar aşkarlananda, təbii ki, cəza tədbirləri də mütləq olmalıdır və tətbiq edilir. Cəza tədbirləri bütün kateqoriya insanlara tətbiq edilir. Heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq, hamı qanun qarşısında bərabərdir. Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar. Digər tərəfdən, qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və beləliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alır. İctimaiyyət də bu məsələ ilə bağlı məlumatlandırılır. Hesab edirəm, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək”.

Pandemiya ilə əlaqədar Azərbaycan həkimlərinə xüsusi diqqət göstərildiyini, ümumiyyətlə səhiyyə sistemində çalışan insanlar daim dövlət tərəfindən qayğı ilə əhatə olunduğunu deyən dövləğ başçısı bildirdi ki, tikilmiş yeni, müasirləşdirilmiş xəstəxanaların olması, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində olduğunu, pandemiya dövründə bu diqqət daha da genişmiqyaslı olduğunu bildirdi: “Görülən bütün işlər öz səmərəsini verir. Təsadüfi deyil ki, son həftələr ərzində COVID ilə mübarizədə vəziyyət daha müsbətdir. Biz müsbət dinamikanı görürük və ümid edirəm ki, bu dinamika bundan sonra da qorunub saxlanılacaq”.

### “ÜST Azərbaycanı nümunəvi ölkə adlandırmışdır”

“Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə ilk günlərdən sıx təmasda idik. Bu gün də bu təmaslar davam edir. Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda bu sahədə görülən işlərə çox yüksək qiymət vermişdir və Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Bu, həqiqətən də belədir”,- deyən Prezident görülmüş işlərin, bu sahəyə ayrılan dövlət vəsaitinin, səfərbərlik işlərinin, xəstəxanaların, laboratoriyaların inşası, sosial proqramların həyata keçirilməsinin nəticəsidir və əminəm ki, birgə səylərlə biz bu məsələni - COVID-in nəzarətdə saxlanmasını təmin edəcəyik. Prezident İlham Əliyev COVID ilə mübarizədə səhiyyə sisteminin addi-texniki bazasının xüsusi rol oynadığını da dedi: “Hazırda COVID xəstələri üçün 46 xəstəxana fəaliyyət göstərir. Bu xəstəxanaların 41-i son 17 il ərzində inşa edilmişdir. Məhz regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bütün bölgələrimizdə, bütün şəhərlərimizdə müasir tibb ocaqları yaradılıb. Təsəvvür etmək çətin deyil ki, əgər biz bu addımı vaxtında atmasaydıq, bu gün hansı problemlərlə üzüzə qala bilərdik. Tam məsuliyyətlə deyə bilərəm ki, əgər bu xəstəxanalar vaxtında tikilməsəydi, bu gün biz çox ağır vəziyyətə düşə bilərdik. Nəinki xəstəxanalar tikilib, ən müasir avadanlıqlarla təchiz edilib və bu gün də bu proses davam etdirilir. COVID ilə mübarizədə bizim səhiyyə sistemimizin maddi-texniki bazası xüsusi rol oynayır”.

Laboratoriyaların sayının da böyük dərəcədə, bir neçə dəfə artdığını deyən dövlət başçısı bildirdi ki, pandemiya başlayanda 6 laboratoriya olduğu halda, bu gün laboratoriyaların sayının 45-ə çatdırıldığını bildirdi: “Ölkəmizdə 900 mindən çox test keçirilib. Adambaşına düşən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir”.

Prezident İlham Əliyev COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət apardığını cəmi altı ay ərzində ölkəmizin çarpayı fondunun böyük dərəcədə artırıldığını, əcər ehtiyac olarsa bundan sonra da yeddi modul tipli xəstəxananın tikintisinin nəzərdə tutulduğunu dedi: “Amma hazırda buna ehtiyac yoxdur. Çünki ölkəmizdə xəstələrin sayı azalır və əgər ehtiyac yaranarsa qısa müddət ərzində əlavə 1400 çarpayılıq xəstəxanalar qısa müddət ərzində inşa oluna bilər”.

### “Qaydalarla nümayişkaranə hesablaşmayanlar öz cəzasını alacaq”

Bütün bu uğurlu addımlardan və əldə olunan nailiyyətlərdən sonra hələ də məsuliyyətini itirmiş insanların qaydaları pozması hallarının aşkarlandığını və belələrinə qarşı heç bir güzəşt edilməyəcəyini v əvə hamını qanuna tabe olmağı tələb etdi: “Əfsuslar olsun ki, bu gün hələ də vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar mövcuddur və qaydaların kobudcasına pozulması halları vardır. Belə hallar aşkarlananda təbii ki, cəza tədbirləri də mütləq olmalıdır və tətbiq edilir. Cəza tədbirləri bütün kateqoriya insanlara tətbiq edilir. Heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq, hamı qanun qarşısında bərabərdir. Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar. Digər tərəfdən, qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və beləliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alır. İctimaiyyət də bu məsələ ilə bağlı məlumatlandırılır. Hesab edirəm, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək”.

Sonda ölkə Prezidenti, bir daha bildirdi və tələb etdi ki, görülmüş bütün işlər bir məqsədi güdür ki, bu vəziyyətdən az itkilərlə çıxaq və hesab edirəm ki, biz buna nail oluruq: “Əminəm, birgə səylər nəticəsində bundan sonra da dövlətin qətiyyətli və düşünülmüş, ədalətli addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxaq və daha tez zamanda normal, adi həyata qayıdaq”.

**RƏFİQƏ KAMALQIZI**

# Valentina Matviyenko Birinci vitse-prezident Mehriban Əliyevanı doğum günü münasibətilə təbrik edib



Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanı doğum günü münasibətilə təbrik edib. Təbrikdə deyilir: "Siz öz əzmkarlığınız, peşəkarlığınız və insanlarla işləmək bacarığınız, həssaslıq və xeyirxahlığınızla həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda hörmət qazanmısınız. İkitərəfli və beynəlxalq gündəliyin çox məsələlərini müzakirə etdiyimiz, onların həlli üçün ümumi yolları tapdığımız görüş və söhbətlərimizi həmişə xoş duyğularla xatırlayıram. Aramızda yaranmış etimadı çox yüksək dəyərləndirirəm.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasında Sizin beynəlxalq münasibətlərin humanistləşdirilməsinə verdiyiniz əhəmiyyətli töhfənizi və bəşəri sosial-mədəni dəyərlərin qorunub saxlanılması və artırılmasında fəal iştirakınızı bilirlər. Sonrakı nəsillərimiz üçün sabit və təhlükəsiz gələcəyin qurulması naminə dünya qadın ictimaiyyətinin həmrəyliyinə yönəlmiş fəaliyyətinizi də yaxşı bilirik və yüksək dəyərləndiririk. Mehriban xanım, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, gözəl əhval-ruhiyyə, ruh yüksəkliyi, sülh, xoş günlər və rifah arzulayıram. Qoy, dostlarınızın və həmkarlarınızın hörməti və dəstəyi, doğmalarınızın və yaxınlarınızın səmimiyyəti və sevgisi hər zaman həyatınızın bəzəyi olsun. Sizi Rusiyada görməyə hər zaman şad olaram. Sizə yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

# Leyla Abdullayeva: "Ermənistan illərdir ki, siyasi iradə nümayiş etdirə bilməyib"



Maraqlıdır, beynəlxalq hüququn fundamental prinsiplərini pozaraq qonşu ölkənin beynəlxalq tanınmış ərazilərini 30 ilə yaxındır ki, hərbi işğal altında saxlayan, münaqişənin danışıqlar yolu ilə həllinə birbaşa manea törədən, üstəlik öz əməlləri və bəyanatları ilə bölgədə gərginliyin artmasına xidmət edən bir ölkənin Xarici İşlər naziri bölgədə sülh şəraitinin yaradılmasından bəhs edir. SİA-nın məlumatına görə, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan Xarici İşlər naziri Z.Mnatsakanyanın "İnterfaks" Agentliyinə müsahibəsində münaqişənin həlli prosesi ilə bağlı siyasi iradənin olmasının vacibliyi barədə fikirlərinə münasibət bildirərkən deyib.

L.Abdullayeva bildirib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyinin danışıqların mahiyyətini heçə endirən addımları bu ölkənin Xarici İşlər nazirinin bəhs etdiyi "sülh şəraitinin" yaradılmasına əsas əngəldir: "Yalnız son bir ay yarım vaxt ərzində Ermənistan tərəfinin törətdiyi əməllərə nəzərə salaraq bu ölkənin təhrikçi və təxribatçı mahiyyətini aşkar şəkildə müşahidə etmək olar.

Cari ilin 12-16 iyul tarixlərində Ermənistan iki dövlətin sərhədinin Tovuz rayonu istiqamətində növbəti hərbi təxribatını həyata keçirərək, Azərbaycan mövqelərinə əvvəlcədən planlaşdırılmış hücum cəhdi etdi. Ermənistanın gücdən istifadə etməklə yeni təcavüz aktının qarşısı Azərbaycan ordusu tərəfindən qətiyyətlə alındı.

Livanın Beyrut şəhərində baş vermiş dəhşətli partlayışdan sonra bu ölkədəki vəziyyətdən öz mənfur məqsədləri üçün istifadə etmək istəyən Ermənistan Livandan olan etnik ermənilərin qanunsuz olaraq Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində məskunlaşdırılması planını bəyan etdi. Bu yolla işğalçı Ermənistan, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarında həyata keçirdiyi etnik təmizləmənin nəticələrinin möhkəmləndirilməsi niyyətini gizlətmədi.

Ermənistanın hərbi siyasi rəhbərliyi Tovuz təxribatında iflasa uğradıqdan sonra bu hərbi avantürasının uğursuzluğunu kompensasiya etmək üçün digər təxribatlara əl atdı. Avqustun 23-də Azərbaycan və Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Goranboy rayonu istiqamətində təmas xəttində Ermənistan silahlı qüvvələrinin diversiya-kəşfiyyat qrupu təxribat cəhdinin qarşısı alındı, qrupun rəhbəri zərərsizləşdirildi.

Son olaraq, Ermənistan Baş naziri N.Paşinyanın 29 avqust tarixində ölkəmizin işğal olunmuş Xankəndi şəhərinə səfər edərək, orada yaratdığı oyuncaq rejimin "nümayəndələri" ilə görüşü, Azərbaycanın hazırda hərbi işğal altında saxlanılan ərazilərindəki erməni hərbi birləşmələrinə baş çəkməsi Ermənistanın işğalçı ölkə olduğunun və ilhaqçı siyasət yürütdüyünün növbəti bariz nümayişi oldu. Bütün bu sadalananlardan sonra, görəsən Z.Mnatsakanyan hansı sülhdən, bölgədə gərginliyin azaldılması üçün hansı təkliflərdən və təşəbbüslərdən danışır?

Gənc nəsli "Njdeizm" irqçi ideologiyası və faşizm dəyərləri əsasında tərbiyə edilən, terroru dövlət səviyyəsində dəstəkləyən bir ölkənin nümayəndələrinin dünyanın müxtəlif ölkələrində Azərbaycanlılara qarşı nümayiş etdirdikləri vandalizm və nifrətə əsaslanan cinayət əməllərinin səbəbləri hamıya yaxşı bəllidir. Odur ki, xarici ölkələrdəki etnik qarşıdurmanın qarşısının alınmasını münaqişənin həllində siyasi iradə nümayiş etdirilməsi ilə əlaqələndirən erməni nazirinin bu fikirləri cəfəngiyyatdır. Çünki Ermənistan illərdir ki, bu siyasi iradəni nümayiş etdirə bilməyib.

Bölgədə dayanıqlı sülhün təmin olunması üçün Ermənistanın işğalçı qüvvələrinin Azərbaycanın beynəlxalq tanınmış ərazilərindən çıxarılması və bu torpaqlardan didərgin salınmış əhalinin hüquqlarının bərpa olunması zəruridir. Ermənistan, nəhayət siyasi iradə nümayiş etdirməli və bu istiqamətdə konkret addımlar atmalıdır".

# Yeni Azərbaycan Partiyası beynəlxalq təşkilatlara müraciət ünvanlayıb



Yeni Azərbaycan Partiyası Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi son təxribatlar və Livandan erməni ailələrinin qanunsuz olaraq Azərbaycanın işğal olunmuş torpaqlarına köçürülməsi ilə bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlayıb.

Müraciətin mətnini təqdim edirik:

"Təxminən otuz ildir ki, Ermənistan beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin beşdə birini - Dağlıq Qarabağ bölgəsini və ona bitişik yeddi rayonu işğal altında saxlamaqdadır.

Hərbi təcavüz siyasətinin davamı olaraq, Ermənistan Azərbaycan Silahlı Qüvvələrinə məxsus döyüş mövqeyini ələ keçirmək üçün 12-16 iyul 2020-ci il tarixlərində Ermənistan-Azərbaycan dövlət sərhədi boyunca artilleriya və minaatanlardan istifadə etməklə silahlı təxribatlar həyata keçirdi. Döyüşlər zamanı Ermənistan hərbi qüvvələri Azərbaycanın Tovuz rayonunun Ağdam, Dondar Quşçu, Vahidli və Əlibəyli kəndlərini də atəşə tutaraq qəsdən mülki obyektləri hədəf aldı. Nəticədə, aralarında yüksək rütbəli hərbçilər də olmaqla 12 azərbaycanlı hərbçi, eləcə də 76 yaşlı bir mülki şəxs qətlə yetirildi, çoxlu sayda yaralananlar oldu, fərdi evlər və xəstəxanalar da daxil olmaqla mülki obyektlərə ciddi ziyan dəydi.

Bu arada, dərin narahatlıqla o da qeyd edilməlidir ki, həmin günlərdə radikal erməni qrupları Ermənistan silahlı qüvvələrinin son hərbi təxribatına etiraz edən xaricdəki Azərbaycan icmalarının üzvlərinə, dinc azərbaycanlı nümayişçilərə, habelə Azərbaycan Respublikasının bir neçə xarici ölkədəki diplomatik nümayəndəliklərinə qarşı zorakı əməllər törətdilər.

Son erməni təxribatı işğal altındakı Dağlıq Qarabağ bölgəsi və Azərbaycanın ətraf rayonları ilə əlaqəli olmayan ərazidə, Cənub Qaz Dəhlizi də daxil olmaqla strateji regional enerji boru kəmərləri və nəqliyyat infrastrukturunun və Bakı-Tbilisi-Qars dəmir yolunun yaxınlığında törədildi.

Ermənistan, həmçinin, açıq şəkildə qarşıdurmanın əhatəsini genişləndirməyə və həll olunmamış Ermənistan-Azərbaycan münaqişəsini yeni səviyyəyə qaldırmağa çalışdı. Bu məqsədlə toqquşmalardan dərhal sonra Yerevan üzvü olduğu hərbi-siyasi ittifaq olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət etdi.

İyulun ortalarındakı gərgin döyüşlərdən sonra Ermənistanla Azərbaycan arasındakı dövlət sərhədindəki vəziyyət qeyri-sabit olaraq qalır. Ermənistan ordusu Azərbaycan tərəfinə atəş açmaqda və vəziyyəti ağırlaşdıra biləcək təxribat xarakterli əməllər törətməkdə davam edir. Bu yaxınlarda Ermənistan silahlı qüvvələrinin təxribat-kəşfiyyat qrupu Azərbaycanın Goranboy rayonu istiqamətində təxribat törətməyə çalışarkən dəstənin komandiri Azərbaycan Ordusu tərəfindən ələ keçirildi.

Yerevan beynəlxalq öhdəliklərini açıq şəkildə pozmaqda davam edir və ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşdırılması üçün hər fürsətdən istifadə edir.

Ermənistan rəhbərliyi bu yaxınlarda Beyrutda baş verən dəhşətli partlayışı işğal altındakı Dağlıq Qarabağ və yeddi ətraf rayonda ermənilərin qanunsuz yerləşdirilməsi üçün bir fürsət kimi qiymətləndirdi. Beləliklə, işğal olunmuş Azərbaycan ərazilərində qurulmuş separatçı rejimin lideri Livandan olan 150 erməni ailəsinin Dağlıq Qarabağda yerləşdirilməsini təklif etdi və Ermənistanın İctimai Radiosunun yaydığı xəbərə görə, artıq bir neçə livanlı erməni ailəsi bölgədə yerləşdirilib. Ermənistan uzun illərdir ki, Yaxın Şərqin bəzi ölkələrindən gətirilən erməniləri Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik rayonlarında qeyri-qanuni şəkildə yerləşdirməkdədir. Ermənistan tərəfindən həyata keçirilən qanunsuz məskunlaşma faktı ATƏT-in faktaraşdırma missiyalarının müvafiq hesabatlarında da əksini tapıb.

Ermənilərin Dağlıq Qarabağda qanunsuz məskunlaşdırılması, Ermənistanın "repatriasiya" və "humanitar yardım" adı altında ilhaq siyasətinin bir hissəsidir. Məskunlaşma siyasətinin aparılması və işğal olunmuş ərazilərin demoqrafik tərkibinin məqsədyönlü şəkildə dəyişdirilməsi cəhdləri beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır.

Azərbaycan beynəlxalq ictimaiyyəti Ermənistanın bu məsuliyyətsiz davranışını qınamağa və bu ölkə rəhbərliyindən Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyinə və ərazi bütövlüyünə tam hörmət göstərərək, BMT Təhlükəsizlik Şurasının işğal edilmiş Azərbaycan ərazilərindən Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz çıxarılmasını tələb edən 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı dörd qətnaməsini icra etməklə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin davamlı həllinə nail olmaq üçün xoşniyyətli danışıqlar aparmasını tələb etməyə çağırır. Azərbaycan münaqişənin bu çərçivədən kənar heç bir siyasi həll yolunu qəbul etmir və məhz bu anlayışa əsaslanaraq nizamlama prosesində iştirak edir.

Buna görə də, beynəlxalq ictimaiyyətin Ermənistanın Azərbaycana qarşı təcavüz əməllərinə görə qınaması son dərəcə vacibdir. Beynəlxalq ictimaiyyət Ermənistanın təcavüzkarlıq və işğal siyasətini qətiyyətlə pisləməyincə və bu ölkənin təhlükəli qanunsuz hərəkətlərinə qarşı sərt tədbirlər görməyincə, bütün bölgə davamlı olaraq dağıdıcı silahlı qarşıdurmalara sürüklənmə riski ilə qarşılaşacaqdır".

# Hikmət Hacıyev: "Dilqəm Əsgərovun və Şahbaz Quliyevin azad olunması daim gündəmdədir"



"Azərbaycanın işğal olunmuş ərazilərində koronavirusla bağlı kəskin vəziyyət var. Ermənistan rəhbərliyi isə bununla bağlı faktları gizlətməyə çalışır". SİA-nın məlumatına görə, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının (PA) Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İTV-yə açıqlamasında deyib. H.Hacıyev bildirib ki, pandemiya dövründə soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin səhhəti ilə bağlı vəziyyət Azərbaycan tərəfini narahat edir: "Ermənistanın və işğal olunmuş ərazilərdəki həbsxana şəraitində, penitensiar müəssisələrdə qanunsuz saxlanılan soydaşlarımızın səhhəti ciddi bir müzakirə mövzusudur. Çünki istisna deyil ki, Ermənistanın bu saxlama müəssisələrində, həbsxanalarda koronavirusla bağlı acınacaqlı bir vəziyyət hökm sürür".

PA rəsmisi vurğulayıb ki, Azərbaycan tərəfi soydaşlarımızla bağlı məsələni həmişə gündəmdə saxlayır: "Hazırda Dilqəm Əsgərov və Şahbaz Quliyevin səhhəti ilə əlaqədar məlumatları biz Beynəlxalq Qızıl Xaç Komitəsi vasitəsilə alırıq. Onların azad olunması daim gündəmdədir. Hər fürsətdə Minsk qrupunun həmsədrləri qarşısında da daim bu məsələni qaldırırıq".

# Azərbaycan Prezidentinin vəzifə sahiblərindən tələbi...



*İlham Əliyev: "İnsanlar sizin qayğınızı hiss etməlidirlər. Bütün kəndləri bir-bir gəzib, vətəndaşlarla görüşüb, mövcud problemləri onların dilindən eşitməli və problemləri həll etməlisiniz"*

***Prezident İlham Əliyev Biləsuvar və Saatlı rayonuna yeni təyin olunan icra hakimiyyətinin başçılarının videoformatda qəbul zamanı çıxışında bir çox tələblər irəli sürdü və bildirdi ki, ilk növbədə, hansısa məmura yox, dövlətə, Vətənə sədaqətli insanlar önə çəkilməlidir. Bu tələbləri layiqincə yerinə yetirə bilən məmurların işindən həm dövlət, həm də xalq razı olacaq. Kadr məsələsinə toxunan dövlət başçısı bildirdi ki, bu siyasət düzgün qurulmalıdır: "Kadr siyasətində gərək düzgün addımlar atılsın. Bəzi hallarda rəhbərlər özlərinə yaxın olan, özlərinə sadiq saydıqları kadrları önə çəkirlər və o kadrların digər xüsusiyyətləri nəzərə alınmır. İlk növbədə, hansısa məmura yox, dövlətə, Vətənə sədaqətli insanlar önə çəkilməlidir.***

Müstəqilliyi, müstəqil həyatımızı hər şeydən üstün tutan, vətənpərvər, milli ruhda, milli dəyərlər əsasında tərbiyə alan insanlar önə çəkilməlidir və əlbəttə ki, bu insanların peşəkarlığı da yüksək səviyyədə olmalıdır. Kadr siyasəti məhz bu prinsiplər əsasında qurulmalıdır. Sizin də icra başçıları kimi, işinizin əsas prinsipləri məhz bu olmalıdır - Vətənə, dövlətə sədaqət, peşəkarlıq, şəffaflıq, dürüstlük. Belə olan halda həm vətəndaşlar sizi dəstəkləyəcək, mən də sizin işinizə yüksək qiymət verəcəyəm. Əks təqdirdə, əgər əyri yolla getsəniz, onda qanun qarşısında cavab verəcəksiniz".

### "Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda sözdə yox, əməldə aparılır"

Prezidenti İlham Əliyev çıxışı zamanı korrupsiya və rüşvətxorluğa qarşı mübarizə ilə bağlı məsələyə də toxunaraq vurğuladı ki, bu Azərbaycanda sözdə yox, əməldə aparılır: "Korrupsiya və rüşvətxorluğa qarşı mübarizə Azərbaycanda sözdə yox, əməldə aparılır. Bu mübarizə xalq tərəfindən yüksək qiymətləndirilir. Mən vətəndaşlardan minlərlə məktub alıram. Onlar mənim bu addımlarımı alqışlayır vəeyni zamanda, bəzi məsələlərə diqqətimi çəkir. Şadam ki, son vaxtlar ictimai nəzarət mexanizmi daha da mütəşəkkil forma alır. Mən bunu alqışlayıram".

Lakin buna baxmayaraq bəzi məmurların hələ də bu çirkin əməllərindən əl çəkmədiklərini deyən dövlət başçısı yeni təyin olunan icra başçılarından sahibkarlara dəstək olmağı tələb etdi.

### "Sahibkarlardan rüşvət, pay tələb olunur"

Prezident İlham Əliyev təəssüflə bildirdi ki, məmur tamahkarlığı nəticəsində rayonlarda sahibkarlar incidilir, onların qarşısında süni əngəllər törədirlər. "Sahibkarlığın inkişafı ölkəmizin ümumi inkişafı ilə birbaşa bağlı olan məsələdir"-deyən dövlət başçısı vurğuladı ki, bizim iqtisadiyyatımız öz dayanıqlılığını saxlamalıdır. Dövlət başçısı yeni təyin olunan icra başçılarından sahibkarlara dəstək olmağı tələb etdi: "Biz nəyin hesabına buna nail olmuşuq, sahibkarlığın inkişafı hesabına, verilən güzəştli kreditlərin və sahibkarların məsuliyyəti nəticəsində. Azərbaycanda artıq formalaşmış sahibkarlar sinfi ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır və siz də sahibkarlara dəstək olmalısınız".

Dövlət başçısı məmur tamahkarlığı nəticəsində rayonlarda sahibkarları incidənlərin, onların qarşısında süni əngəllər törədənlərin qanun qarşısında cəzalarını alacaqlarını da dedi: "Əfsuslar olsun ki, bəzi rayonlarda sahibkarlar incidilir, onların qarşısında süni əngəllər törədilir, onlardan yerli icra orqanları tərəfindən rüşvət, pay tələb olunur. Buna qətiyyən yol verməmək olmaz və bu məsələlərə çox ciddi nəzarət olmalıdır. Sahibkarlar dövlət məmurları tərəfindən yalnız dəstək, kömək görməlidirlər və sahibkar ancaq dövlətin vergisini ödəməlidir. Bundan başqa, heç kimə heç bir vəsait ödənilməməlidir. O sahibkarlar ki, öz sosial məsuliyyətini dərk edir və ağır vəziyyətdə yaşayan insanlara əl tutur, əlbəttə ki, o sahibkarlara mənim münasibətim də fərqlidir, müsbətdir və şadam ki, son illərdə belə sahibkarların sayı artmaqdadır".

Ölkə Prezident, həmçinin sahibkarlardan da məsuliyyətlə öz vəzifəsini icra etməyi tələb etdi: "Dövlət sahibkarlara dəstək göstərir, müdafiə edir, şərait yaradır, onların gəlirlərinin artırılmasına çalışır. Sahibkarlar da, öz növbəsində, dövlətin vergisini qəpiyinə qədər ödəməlidirlər. Burada kölgə iqtisadiyyatına yol verilməməlidir, ikili mühasibat olmamalıdır. Əgər olarsa, bu sahibkarlar məsuliyyətə cəlb edilməlidirlər. Eyni zamanda, sahibkarlar bu gün hələ də ağır vəziyyətdə yaşayan insanlara kömək göstərməlidirlər".

### "Kasıb adamın puluna göz dikmək vicdansızlıqdır"

Pandemiya ilə əlaqədar bəzi insanlar öz işlərini müvəqqəti olaraq itiridiklərini və dövlət də onlara əl tutduğunu deyən ölkə rəhbəri bildirdi ki, bəzi icra başçıları vicdancasına o kasıbın pulunu alır: "Son vaxtlar həbs olunan bütün icra başçılarının cinayət əməlləri demək olar ki, eyni idi. O cümlədən aztəminatlı təbəqə üçün nəzərdə tutulmuş ödənişli ictimai iş yerlərinin də əməkhaqqının mənimsənilməsi onlar üçün adi hala çevrilmişdi. Həbs edilmiş bütün icra başçılarının ya öz iş otaqlarından, ya da köməkçilərinin otaqlarından insanların ödəniş kartları çıxdı. Kasıb adamın puluna, özü də minimum əməkhaqqı səviyyəsində olan əməkhaqqına göz dikmək vicdansızlıqdır və bu məsələyə həm Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, həm də yerli icra orqanları tərəfindən çox ciddi nəzarət mexanizmi olmalıdır. Bu məsələ mənim nəzarətimdədir. Bu sahədə və bütün başqa sahələrdə tam şəffaflıq olmalıdır".

### Prezident yeni təyin olunan icra başçılarına insanlara yuxarıdan aşağı baxmamağı tələb etdi

"Siz, eyni zamanda, öz davranışınızla insanların hörmətini qazanmalısınız. Təvazökar olmalısınız, həm işdə, həm məişətdə, həm özünüz, həm yaxın qohumlarınız. İnsanları qıcıqlandıra biləcək addımlar atmamalısınız. Özünüzü hamıdan yuxarıda hiss etməməlisiniz. Bəzi hallarda bəzi xırda səviyyəli məmurlar özlərini elə aparırlar ki, sanki bütün dünya bunlara borcludur. Özlərini ağa kimi, xan kimi aparırlar, insanlara yuxarıdan aşağı baxırlar",-deyən dövlət başçısı məmurları xalqla yaxın olmağı, bir sözlə xalqın xidmətçisi, onların problemlərinin yardımçısı olmağı tələb etdi.

"Mən dəfələrlə demişəm ki, Prezident başda olmaqla bütün dövlət məmurları xalqın xidmətçisidir. Məhz buna görə biz bu vəzifədəyik"- deyən dövlət başçısı bildirdi ki, buna görə xalq mənə etibar edib və mən təyin etdiyim bütün kadrlardan bunu tələb edirəm: "Ancaq əfsuslar olsun ki, bir çox hallarda, bəzi hallarda yox, bir çox hallarda dövlət məmurları özlərini apara bilmirlər. Onlar hesab edirlər ki, onlara hansısa

xüsusi imtiyaz verilib. Onlar qanunları pozurlar, bəzi hallarda çox ciddi pozurlar. Cəmiyyətimizdə formalaşmış ənənəvi davranış qaydalarını pozurlar. Özünü xalqdan yuxarıda hiss edirlər, təkəbbürlə yanaşırlar. Ona görə belə hallar mənə məruzə edilən kimi dərhal müvafiq göstərişlər verilir və bu insanlar ya inzibati qaydada cəzalandırılır, ya da ki cinayət məsuliyyətinə cəlb edilir".

Göründüyü kimi, Azərbaycan Prezidentinin nəinki bu iki yeni təyin olunan icra başçılarından, bütünlüklə bütün məmur və vəzifəli şəxslərdən tələbi odur ki, etimad edilən kürsüdə Azərbaycan Prezidentinin yüksək etimadını doğrultmaq, iqtidar-xalq birliyinə sədaqətlə xidmət etməkdir ki, vətəndaşlarla xalq arasında bağlılıq daha güclü olsun. Bu məmnunluğa tam nail olmaq üçün daim xalq arasında olmaq, xalqın qayğıları ilə yaşamaq, ölkənin sosial iqtisadi tərəqqisi üçün əlindən gələni əsirgəməməli, var gücü ilə çalışmalıdır.

**RƏFİQƏ KAMALQIZI**

## "Modern Diplomacy" portalı: "Kim Dağlıq Qarabağ münaqişəsinin alovlanmasında maraqlıdır?"


Who is interested in the Nagorno -Karabakh conflict escalation?

"Modern Diplomacy" nəşrində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) aparıcı məsləhətçisi Şahmar Hacıyevin "Kim Dağlıq Qarabağ münaqişəsinin alovlanmasında maraqlıdır?" sərlövhəli məqaləsi dərc olunub. BMTM-dən AZƏRTAC-a bildirilib ki, məqalədə Cənubi Qafqazda Ermənistan ilə Azərbaycan arasında davam edən münaqişənin genişmiqyaslı humanitar böhrana, insanların məcburi köçkün vəziyyətinə düşməsinə və infrastrukturun məhvinə səbəb olduğu vurğulanıb. Qeyd edilib ki, 1994-cü ildə imzalanan atəşkəs razılaşmasından sonra Ermənistan hələ də Azərbaycan torpaqlarının işğalını davam etdirir.

"ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan diplomatik danışıqlar və bütün təşəbbüslər nəticəsiz olaraq qalır, çünki mövcud status-kvo Ermənistan üçün əlverişlidir. Bunun əsas səbəblərindən biri Ermənistan hakimiyyətinin ATƏT-in və BMT-nin əsas qanun və prinsiplərini pozaraq Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz iqtisadi fəaliyyətlər, qeyri-qanuni məskunlaşdırma siyasəti həyata keçirməsidir", - deyə müəllif vurğulayıb.

Diqqətə çatdırılıb ki, 2018-ci ildə Ermənistanda hökumət dəyişikliyindən sonra bölgədə sülhün və firavanlığın bərqərar olacağına ümid var idi. İyulun 12-də Ermənistanın Azərbaycanın Tovuz rayonu istiqamətində həyata keçirdiyi hərbi təxribat münaqişənin yenidən alovlanmasına səbəb oldu. Təəssüf ki, Ermənistan rəhbərliyinin ritorikası və anlaşılmaz hərəkətləri vəziyyəti gərginləşdirir.

Gərginliyi artıran digər amilin Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin qanunsuz məskunlaşdırma aparmaları olduğunu deyən müəllif qeyd edib : "Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşdırma işləri davam etdirilir. Xüsusən də Livanın paytaxtı Beyrutda baş vermiş partlayışdan sonra bu ölkədəki ermənilər bu prosesə cəlb olunurlar. Qanunsuz məskunlaşdırma siyasəti beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır və bu, şübhəsiz ki, danışıqlar prosesinə xələl gətirir. Münaqişə bölgənin tam inteqrasiyasına mane olur və qlobal layihələri risk altına salır. Azərbaycanın rəsmi mövqeyi münaqişənin beynəlxalq hüquqa uyğun olaraq sülh yolu ilə həll edilməsidir. Azərbaycan münaqişənin həlli istiqamətində real və ciddi irəliləyişlər gözləyir".

## Vüqar Rəhimzadə: "Ermənistan hakimiyyətində təmsil olunan yüksək vəzifəli şəxslər faşizm ideologiyasının daşıyıcılarıdır"



"Paşinyanın Dağlıq Qarabağa səfəri göstərir ki, Ermənistan hakimiyyəti Azərbaycana qarşı yeni hücum planları qurur, hərbi əməliyyatların yenidən bərpasına, növbəti təxribat fəaliyyətinə başlamaq niyyətindədir. Hətta, Paşinyanın cəbhənin Tovuz istiqamətində təxribat törətməkdə fərqlənmiş erməni hərbçilərini mükafatlandırması, onlardan birinə "milli qəhrəman" adını təqdim etməsi sözsüz ki, Azərbaycan ictimaiyyətində qıcıq yaratmağa, İyul döyüşlərindən sonra Ermənistan ordusunda yaranmış ruh düşkünlüyünü aradan qaldırmağa hesablanmışdı". Bu sözləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında deyib.

Vüqar Rəhimzadə bildirib ki, Paşinyanın Dağlıq Qarabağa səfəri zamanı Ağdərə rayonundakı "Beys Metls" şirkətinin dağ-mədən kompleksində olması onun bu günə qədər gizli saxlamağa çalışdığı mətləblərə yenidən işıq salıb: "Çünki Paşinyanın və ailə üzvlərinin adı mafiyalar qurmaqda, dağ-mədən sənayesi məhsulları, silah satışı və siqaret alverində hallandırılır. Onun Qarabağa səfəri də ailə biznesini genişləndirmək, Azərbaycanın işğal olunmuş ərazilərindən qızıl və digər metalların qeyri-qanuni istismarındakı payını götürmək niyyəti daşıyır".

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, Ermənistanın təxribat xarakterli son addımları bir daha bu ölkənin faşizm ideologiyasına xidmət etdiyini isbatlayır: "Sirr deyil ki, Ermənistanda faşizm ideologiyası dövlət siyasətinə çevrilib. Njde, Dro kimi faşistlər Ermənistanda qəhrəmanlaşdırılır, bu antibəşəri fəaliyyət dövlət siyasəti səviyyəsində icra edilir. Elə Paşinyan da öz sələflərinin siyasətini davam etdirərək, faşistlərin qəhrəmanlaşdırılmasına bəraət qazandırır. Artıq bu gün hər kəsə aydındır ki, Ermənistan hakimiyyətində təmsil olunan bir çox yüksək vəzifəli şəxslər faşistlərin nəsillərinin davamçılarıdır, onlar ailə bağları ilə faşizm ideyalarına sadiqdirlər, bu xislətləri ilə fəxr edirlər. Təsadüfi deyil ki, Paşinyanın babası da faşist olub, onun irqi amilə görə yəhudilərin kütləvi şəkildə məhv edilməsində iştirakına dair tutarlı faktlar var".

Vüqar Rəhimzadə Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində təcavüzkar ölkənin qeyri-qanuni fəaliyyətinə, o cümlədən məskunlaşdırma siyasətinə də toxunub. Diqqətə çatdırıb ki, zaman-zaman işğal altında olan ərazilərimizin qeyri-qanuni məskunlaşdırılmasına dair faktlar açıqlanıb: "Söz yox ki, Ermənistan tərəfindən həyata keçirilən qanunsuz məskunlaşdırma faktları ATƏT-in faktaraşdırıcı missiyalarının hesabatlarında qeydə alınsa da, Ermənistanın bu əməlləri beynəlxalq humanitar hüququn, eləcə də 1949-cu il Cenevrə Konvensiyası və onun əlavə Protokollarının kobud şəkildə pozulması olsa da, bu günə qədər təcavüzkar ölkənin bu əməllərinə göz yumulub. Beynəlxalq təşkilatlar, xüsusilə münaqişənin sülh yolu ilə həlli missiyasını öz üzərinə götürən ATƏT-in Minsk qrupu işğal edilmiş torpaqlarda aparılan süni məskunlaşdırma faktları ilə bağlı niyə susurlar? Nə üçün bu vaxta qədər yeri gəldi-gəlmədi insan hüquqlarından, demokratiyadan dəm vuran beynəlxalq təşkilatlar bu cür saxtakarlıq faktlarının üzərindən sükutla keçiblər? Axı, işğal olunmuş ərazilərə Livan ermənilərinin süni şəkildə köçürülməsi erməni əhalisinin heç vaxt yaşamadığı işğal olunan ətraf rayonların etnik quruluşunu dəyişdirmək niyyəti güdür. Ermənistanın əsas məqsədi Livandan işğal olunan bölgələrə süni köçlər vasitəsi ilə boş əraziləri iqtisadi cəhətdən canlandırmaq və yeni demoqrafik vəziyyətin yaradılması ilə gələcəkdə azərbaycanlıların doğma torpaqlarına geri dönməsinə əngəl törətməkdir. Hətta, ASALA erməni terror təşkilatının tarixən Livan ərazisində formalaşdığı nəzərə alınarsa xüsusi düşərgələrdə təlim keçmiş terrorçuların Azərbaycan ərazilərinə gəlməsi istisna edilmir. Məgər bu qədər faktlar və işğal olunmuş ətraf rayonlarımızda reallaşdırılan qeyri-qanuni məskunlaşdırma siyasəti beynəlxalq təşkilatların hərəkətə keçmələri üçün kifayət deyilmi? Bu gün Dağlıq Qarabağda və işğal altındakı ətraf rayonlarda qeyri-qanuni məskunlaşdırma siyasəti beynəlxalq hüququn norma və prinsiplərin kobud şəkildə pozulması və tarixin saxtalaşdırılması kontekstində aparılır. Dünya bunu görməyəcək qədər kordurmu? Hesab edirəm ki, Ermənistan hakimiyyətinin bu özbaşınalığına göz yummağın ikili standartlardan başqa adı yoxdur".

## Hikmət Babaoğlu: "ATƏT-in Minsk qrupunun həmsədrləri ermənilərin təxribatlarının qarşısını almaq üçün tədbirlər görməlidir"



"Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin qeyri-qanuni fəaliyyəti və təxribatı davam etməkdədir. Bu günlərdə qondarma rejimin başçısı Araik Arutunyan Klikia katalikosu birinci Aramla danışaraq Livandan bir qrup erməni ailəsinin Dağlıq Qarabağa köçürülməsi məsələsini müzakirə edib. Bu, çox qorxulu tendensiyadır və beynəlxalq hüquqa ziddir". Bu fikirləri Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

H.Babaoğlu bunun hər şeydən əvvəl, 1949-cu ildə qəbul edilmiş Cenevrə Konvensiyası və onun protokoluna zidd olduğunu xatırladıb. Onun sözlərinə görə, bu cür faktlar əslə və əslə ATƏT-in Minsk qrupunun həmsədrlərinin, faktaraşdırıcı missiyanın diqqətindən yayınmamalıdır və bunun qarşısının alınması üçün müvafiq tədbirlər görülməlidir.

Deputat diqqətə çatdırıb ki, ikinci təhlükəli məsələ isə ondan ibarətdir ki, bu günlərdə Ermənistanda hərbi xidmətə çağırışla bağlı qanuna düzəliş edilməsi məsələsi gündəmə gəlib. Bu, o deməkdir ki, könüllülərin bundan sonra Ermənistan ordusuna cəlb olunması qanuniləşəcək və bu prosesdə erməni ordusuna könüllülər adı altında çoxsaylı terrorçular cəlb ediləcək. Ona görə də bu iki fakt arasında əlaqə qurduqda belə nəticəyə gəlmək olar ki, Livandan köçürülən ailələrin içərisində də çoxsaylı terrorçular ola bilər. Çünki Livan daim terrorçuların məskunlaşdığı, yerləşdirildiyi və yetişdirildiyi bir məkandır. İlk dəfə 1875-ci ildə erməni terror təşkilatı ASALA məhz Livanda yaradılıb. Hazırda da bu klassik ənənə davam etməkdədir.

Millət vəkili vurğulayıb ki, əslində burada iki məsələyə xüsusi diqqət ayrılmalıdır: "Birincisi, qeyri-qanuni məskunlaşma, ikincisi isə Cənubi Qafqaza terrorçuların gətirilməsi ilə regionda vəziyyətin daha da gərginləşdirilməsi. Bu fakta hər şeydən öncə ATƏT-in Minsk qrupunun həmsədrləri dərhal reaksiya verməlidirlər. Əgər onlar regionda doğrudan da gərginliyin daha da artmasını istəmirlərsə, problemi sülh yolu ilə həll etmək istəyirlərsə bu cür addımların qarşısını almalı, işğalçı ölkəyə təzyiq etməlidirlər. Əks təqdirdə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək üçün lazım olan bütün addımları atacaq".

## Müdafiə Nazirliyi: Ön xətt bölmələrimiz qışa tam hazırdır



Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə yerləşən və hər bir müdafiə mövqeyi alınmaz qalaya çevrilən bölmələrində müasir əsgəri-məişət kompleksləri tikilərək şəxsi heyətin istifadəsinə verilib. Yaradılan müasir şərait heç şübhəsiz ki, xalq-ordu birliyinin, dövlət qayğısının və nümunəvi xidmətin bəhrəsidir. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, ön xətdə xidmət edən hərbi qulluqçular daha çox sayıqlığı və peşəkar döyüşçü keyfiyyətləri ilə seçilirlər. Hər biri yenilməz Vətən müdafiəçisi olan əsgərlərimiz ayıq-sayıq döyüş növbətçiliyi aparmaqla bərabər ən çətin tapşırıqları da yerinə yetirməyə qadirdirlər.

Qartallar məkanı olan uca zirvələrdə qış daha sərt keçdiyindən birinci eşelon bölmələrimiz qışa hazırlıq tədbirləri çərçivəsində isti geyim, yanacaq, içməli su, ərzaqla, eləcə də digər zəruri ehtiyatlarla qabaqcadan və ilk növbədə tam təmin edilir. Hər bir şəraitə malik əsgəri-məişət komplekslərində isti geyim və keyfiyyətli ərzaqla təmin olunan əsgərlərimiz dövlət qayğısından və xalq-ordu birliyindən güc alaraq Vətənimizin müdafiəsində peşəkar döyüşçü kimi dayanırlar. Hərbi qulluqçulara dövlət qayğısı ordu quruculuğu işinin tərkib hissəsidir. Hər bir hərbi qulluqçu da bu diqqət və etimadı yüksək döyüş hazırlığına yiyələnməklə doğrultmağa çalışır. Göründüyü kimi Naxçıvan Muxtar Respublikasında dövlət-ordu-xalq birliyinin möhkəm təməli yaradılıb. Bütün bunların nəticəsidir ki, dövlətin və xalqın dəstəyini üzərində hiss edən şəxsi heyətin döyüş ruhu günbəgün artır, Vətənimiz etibarlı müdafiə olunur.

## "Livan hər zaman erməni terror təşkilatlarının beşiyi olan bir ölkə olub"



Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində işğalçı Ermənistanın qeyri-qanuni fəaliyyəti, o cümlədən məskunlaşdırma siyasəti davam etdirilir. Zaman-zaman işğal altında olan ərazilərimizin qeyri-qanuni məskunlaşdırılmasına dair faktlar açıqlanıb.

Məsələ ilə bağlı SİA-ya açıqlama verən politoloq Vüqar Ziferoğlu bunları deyib: "Ümumiyyətlə, ermənilərlə bağlı bir çox məsələlərə həm beynəlxalq təşkilatlar, həm də aparıcı qərb ölkələri hər zaman ikili standartlar və ikili yanaşmalar sərgiləyirlər. Təəssüf ki, bu qeyri-qanuni məskunlaşma ilə bağlı məsələlərə də bu cür qeyri-adekvat, qeyri-obyektiv yanaşmanın şahidi olmaqdayıq. Burada söhbət təkcə məskunlaşmadan getmir. Nəzərə alaq ki, Suriya, Livan, ərəb ölkələrində yaşayan ermənilərin Qarabağ bölgəsində məskunlaşdırılmasında müəyyən məqamlara diqqət yetirmək lazımdır. Livan hər zaman erməni terror təşkilatlarının beşiyi olan bir ölkə olub. Bir sıra erməni terror təşkilatları məhz Livan ərazisində yaradılıb və birinci Qarabağ müharibəsi zamanında da Livandan gələn silahlı qruplaşmalar, dəstələr Azərbaycan ordusuna qarşı vuruşublar. Bunun özü artıq bizim üçün ciddi əsaslar verir ki, beynəlxalq hüquq nöqteyi-nəzərdən biz həm də mümkün terror təşkilatlarının da Qarabağda nöqtələnməsi ilə bağlı ciddi məsələlər qaldıraq. Hətta əlimizə əsas verir ki, o ərazilərdə müəyyən anti-terror əməliyyatları həyata keçirək".

# "The Baltic Course" jurnalı Prezident İlham Əliyevin modul tipli hospitalın açılışındakı çıxışından bəzi məqamları dərc edib

"The Baltic Course" onlayn jurnalında Azərbaycan Prezidenti İlham Əliyevin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalın açılışındakı çıxışından bəzi məqamların yer aldığı məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə pandemiyanın ilk günlərindən bəri insanların sağlamlığının Azərbaycanın rəhbərliyi üçün prioritet məsələ olduğu və bütün səylərin bu məsələnin həllinə istiqamətləndiyi qeyd edilir.


INTERNATIONAL MAGAZINE FOR DECISION MAKERS
The BALTIC COURSE
English
COVID-19
Хорошо для дела
Аналитика
Инвестиции
Транспорт
Энергетика
Недвижимость
Финансы
Технологии
Рынки и компании
Балтийский экспорт
Туризм
Советы юриста
ЕС - Балтия
Балтия - СНГ
Люди дела
Право
Круглый стол
Образование и наука

POLFIX СТРОИТЕЛЬНЫЕ МАТЕРИАЛЫ
BALTIC INTERNATIONAL ACADEMY
Covid-19, Балтия – СНГ, Медицина, Форум
Балтийский курс. Новости и аналитика — Вторник, 01.09.2020, 16:45

Президент Ильхам Алиев: "Здоровье людей является для нас приоритетным вопросом, и мы направили все усилия на решение этого вопроса"

Нигяр Джафарли, АЗЕРТАДЖ, 01.09.2020.

Поделиться 0 · Нравится · Зарегистрируйтесь, чтобы посмотреть, что нравится друзьям. · версия для печати

**31 августа Президент Азербайджана Ильхам Алиев принял участие в видеоформате в открытии очередного госпиталя модульного типа Медицинского центра Министерства по чрезвычайным ситуациям, предусмотренного для лечения больных с коронавирусом.**

В своем выступлении глава государства Ильхам Алиев сказал:
«С первых дней пандемии я говорил, что здоровье людей является для нас приоритетным вопросом, и мы направили все усилия на решение этого вопроса. Естественно, в этом случае трудности в экономической сфере были неизбежны. Однако считаю, что ситуация в экономической сфере в Азербайджане лучше, чем в других странах. Мы хорошо знаем, что в некоторых развитых странах экономический спад во время пандемии находится на уровне 10, 15, 20, 25 процентов. Высокий уровень в том числе наблюдается в развитых странах Европы. В результате принятых мер в нашей стране за 7 месяцев экономика упала всего на 2,8 процента. Учитывая общую картину в мире, считаю, что это хороший показатель.

В настоящее время Азербайджан проводит активную работу с несколькими компаниями в связи с доставкой в нашу страну вакцины против COVID. Надеюсь, что Азербайджан и в этой области окажется в числе первых стран, получивших вакцину, потому что мы уже некоторое время ведем очень активную работу по этому вопросу. Но основное условие здесь заключается в том, что данная вакцина должна пройти все этапы испытаний. Врачам хорошо известно, что любая новая вакцина проходит несколько

ДРУГИЕ НОВОСТИ БАЛ
01.09.2020 Лето в Латвии было на один градус теплее нормы
31.08.2020 Молодой эстонский боксер Каманин одержал победу в
31.08.2020 Германские пилоты переняли у французских миссию охраны воздушного пространства Ба
28.08.2020 Президент Керсти Кальюлайд недели в сентябре будет раб в Пярну и Пярнуском уезде
26.08.2020 В Таллинне пройдут Дни Балтийского кино

КОЛОНКА РЕДАКТОРА
В Риге смени власть
Результаты внеочередных вы в Рижскую думу для меня не сюрпризом. Уже ночью было что выборы в Риге выиграли ПАРисты. Согласисты и бурс

Məqalədə Prezident İlham Əliyevin bu fikirləri yer alıb: "Təbii ki, belə olan halda iqtisadi sahədə çətinliklər də labüd idi. Ancaq hesab edirəm ki, başqa ölkələrlə müqayisədə Azərbaycanda iqtisadi sahədə də vəziyyət daha yaxşıdır. Biz yaxşı bilirik ki, bəzi inkişaf etmiş ölkələrdə pandemiya dövründə iqtisadi tənəzzül 10, 15, 20, 25 faiz səviyyəsindədir. O cümlədən Avropanın inkişaf etmiş ölkələrində yüksək səviyyədədir. Ölkəmizdə isə görülmüş tədbirlər nəticəsində 7 ayda iqtisadiyyat cəmi 2,8 faiz aşağı düşüb. Hesab edirəm ki, dünyada mövcud olan ümumi mənzərəni nəzərə alsaq bu, yaxşı göstəricidir".

Yazıda, həmçinin dövlət başçısının koronavirus əleyhinə peyvəndin Azərbaycana gətirilməsi ilə bağlı fikirlərinə yer verilib: "Biz hazırda bir neçə şirkətlə COVID-ə qarşı peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar fəal iş aparırıq. Mən ümid edirəm ki, Azərbaycan bu sahədə də peyvəndi əldə edən birinci ölkələr sırasında olacaqdır. Çünki biz artıq bir müddətdir ki, bu məsələ ilə əlaqədar çox fəal iş aparırıq. Ancaq burada əsas şərt bu peyvəndin bütün sınaq mərhələlərindən keçməsidir. Həkimlər yaxşı bilirlər ki, istənilən yeni peyvənd bir neçə mərhələdən keçir və yalnız ondan sonra bazara çıxarılır, insanların vaksinasiyası üçün istifadə olunur. Ona görə bütün mərhələlər, şirkətlərin apardığı bütün araşdırmalar öz nəticəsini verəndən, bütün sınaq testləri və beynəlxalq sertifikatlaşdırma aparılandan sonra biz bu peyvəndi ölkəmizə gətirəcəyik və ümid edirəm, ondan sonra demək olacaq ki, bu dəhşətli vəziyyət arxada qalıb".

# Ukraynalı alim: "Ermənistanın Livan ermənilərinin Azərbaycanın işğal edilmiş ərazilərinə köçürülməsinə yönəlmiş hərəkətləri beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasıdır"



Ermənistanın xarici ölkələrdən olan erməniləri işğal edilmiş Dağlıq Qarabağda məskunlaşdırmağa cəhd etməsi təzə məsələ deyil. Ermənistan hökuməti hələ 2013-cü ildən Suriyada müharibədən qaçan Suriya ermənilərini qondarma "Dağlıq Qarabağ Respublikası" ərazisində məskunlaşdırmağa çalışır. Bu gün həmin ərazilərə 2020-ci il avqustun 5-də baş vermiş texnogen qəzadan zərər çəkmiş Livan ermənilərini köçürməyə çalışırlar. Tarix elmlər namizədi Oleq Kupçik AZƏRTAC-a müsahibəsində bu barədə söhbət açıb.

Onun sözlərinə görə, Ermənistanın bu cür hərəkətləri beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasıdır. Üstəlik, Ermənistan bu hərəkətləri ilə nümayiş etdirir ki, o, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla və beynəlxalq hüquqa uyğun həllinə nail olmaqda iştirak etmək niyyətində deyil.

Tarixçi alim deyib: "Ermənistan hökuməti Suriya və Livan ermənilərinin Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionu ərazisinə köçürülməsinə yönəlmiş hərəkətləri ilə bu insanları "zərbə altına qoyur", çünki onların işğal edilmiş regionun ərazisinə gəlməsi və orada yaşaması qeyri-qanuni olacaq. Aşkardır ki, qondarma "DQR"in "vətəndaşlığı" cəfəngiyatdır. Dağlıq Qarabağ regionuna köçürülən Suriya və Livan ermənilərinə Ermənistan Respublikasının vətəndaşlığını veriləcəyi təqdirdə isə Ermənistan hökuməti bu münaqişədə (xatırladıram ki, Ermənistan "DQR"i hələ də rəsmən tanımayıb), onun kələfinin açılmasında və sonradan maliyyə və hərbi-texniki baxımdan dəstəkləməkdə özünün bilavasitə iştirakını göstərən növbəti sübut "təqdim etmiş" olur".

O.Kupçik deyib ki, Dağlıq Qarabağ regionunun inkişafına, "köçkünlər"in məişətinin və həyat fəaliyyətinin təminatına investisiya yatırmaq üçün Ermənistan hökumətinin maliyyə resurslarının olması barədə söhbət də getmir. Ermənistan hökuməti onu da nəzərə almır ki, planlaşdırılan "köçkünlər"in əksəriyyəti şəhərlilərdir - Suriya və Livan şəhərlərinin kənd yerlərində, xüsusən işğal dövründə zərər çəkmiş və tənəzzülə uğramış regionda yaşamağa öyrəşməmiş sakinləridir.

Aydın məsələdir ki, Ermənistan özü planlaşdırılan "köçürülmə"ni təşkil etmək və maliyyələşdirmək iqtidarında deyil. Aşkardır ki, bu məsələdə ona öz müttəfiqləri kömək edə bilər.

# Misir Xarici Əlaqələr Şurasının üzvü: Beynəlxalq ictimaiyyət Ermənistana təzyiq göstərməlidir



Livan və digər Yaxın Şərq ölkələrində yaşayan ermənilərin Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə köçürülməsi beynəlxalq hüquq normalarına və sənədlərə ziddir. Bu qanunsuz əməllər 1949-cu ildə qəbul edilmiş Cenevrə Konvensiyası və onun əlavə Protokollarının da kobud şəkildə pozulmasıdır.

Bu fikirləri AZƏRTAC-ın xüsusi müxbirinə açıqlamasında Misirin tanınmış politoloqu, Misir Xarici Əlaqələr Şurasının üzvü, Qahirə Universitetinin Rusiya Araşdırmalar Mərkəzinin direktoru, professor Nurhan əl-Şeyx söyləyib.

Xanım Nurhan əl-Şeyx vurğulayıb ki, Azərbaycan dövləti Ermənistanın bu qanunsuz əməlləri barədə BMT Təhlükəsizlik Şurasına müraciət edə bilər. Çünki Ermənistan regionda demoqrafik şəraiti dəyişməyə səy göstərir və bununla işğal faktına bəraət qazandırmaq istəyir. Lakin rəsmi Bakı BMT-yə müraciət etməklə tamamilə qanuni əsaslarda işğalçı ölkənin qanunsuz hərəkətlərini ifşa edə bilər. Beynəlxalq ictimaiyyət Ermənistana təzyiq göstərməli və onu dövlətlərin ərazi bütövlüyü prinsipinə əməl etməyə məcbur etməlidir.

Misirli politoloq əlavə edib ki, dünyanın qloballaşdığı müasir dövrdə hər hansı bir dövlətin orta əsrlərdə olduğu kimi, başqasının ərazisini işğal altında saxlamaqla orada etnik quruluşu dəyişməsi yolverilməzdir. O deyib: "Bu, həmin ərazilərin əsl sakinləri olan azərbaycanlıların da gələcəkdə öz doğma yurdlarına qayıtmasının qarşısını almaq məqsədi güdür. Ermənistan BMT-nin üzvü və beynəlxalq konvensiyalara imza atmış ölkədir və öz üzərinə götürdüyü öhdəliklərə əməl etməyə borcludur".

# 20 yaşlı "Lider"

*Lider TV 20 yaşını qeyd edir*




1999-cu il dekabrın 28 də Azərbaycan Respublikasının mətbuat və informasiya Nazirliyi tərəfindən yayım lisenziyası əldə edən Lider televiziyasının ilk efir günü 2000-ci il sentyabrın 1-ə təsadüf edir. Kanal ilk verilişini də elə canlı yayımlayıb. Lider TV-nin ilk yayım həyəcanı uzaqlarda qalıb, çünki həmin əlamətdar tarixdən nə az nə çox düz 20 il ötür. Biz də Lider TV ailəsini 20 illik yubileyi münasibəti ilə təbrik edir, yeni uğurlar arzulayırıq.

# "SPİGEL": "Türkiyə alman hərbi təyyarəsinin İrəvana enməsinin qarşısını alıb"



Türkiyə iyulun sonunda Almaniya budesverinə məxsus hərbi təyyarəsinin ölkə üzərindən uçaraq, Ermənistana uçmasının və İrəvana enməsinin qarşısını alıb. SİA xəbər verir ki, bu barədə almanların "Spigel" jurnalı yazıb. Nəşr qeyd edir ki, türk aviadispeçerləri "heç bir səbəb göstərmədən" təyyarənin öz ərazisi üzərindən uçmasına icazə verməyib. "Nəticədə Kölndən havaya qalxan Airbus 310 hərbi məqsədli təyyarə bazaya geri qayıtmaq məcburiyyətində qalıb", dərgi yazır.

Bildirilir ki, hava gəmisi erməni hərbi qulluqçularının Almaniyada təlim keçmələri üçün İrəvana doğru istiqamət almışdı. Bundesverdə isə hesab edirlər ki, Türkiyə hərbi təyyarənin məhz məntəqə təyinatına görə öz ərazisindən uçmasına izn verməyib.

"Spigel" yazır ki, Türkiyə sonradan da bənzər mövqeyini yumşaltmayıb və avqust ayının ortalarında Almaniya Federativ Respublikliklasının hərbi hava qüvvələrinə məxsus təyyarə daha uzun marşrut xətti seçərək, erməni hərbçilərinin ölkələrinə daşınması üçün Rusiyanın üzərindən uçmağa məcbur qalıb.

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait açıqlanıb



Sentyabrın 1-dək Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsait açıqlanıb. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli 755 nömrəli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna cari il sentyabrın 1-dək 113.414.815,17 AZN, 213.577,88 ABŞ dolları, 18.341,0 avro və 5000,0 rubl vəsait daxil olub.

# ÜST: Səhiyyə sistemlərini gələcək epidemiyaları dəf etməyə hazırlamaq lazımdır

***COVID-19 pandemiyası dünya ölkələrinin 90 faizində səhiyyə sistemlərinin işində ciddi pozuntulara səbəb olub. Son yarım ildə həkimlər koronavirusa qarşı mübarizə yolunda təcili yardıma ehtiyacı olan xəstələrə kömək etmək üçün hansı tibbi xidmətləri sonraya saxlamaq kimi çətin seçim etməli olublar.***




AZƏRTAC xəbər verir ki, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) COVID-19-un səhiyyə sistemlərinə təsiri ilə bağlı ilkin araşdırmanın nəticələrini elan edib. Ekspertlərin gəldiyi nəticələr dünyanın beş qitəsində yerləşən 105 ölkədən alınmış məlumatlara əsaslanır. 2020-ci ilin mart-iyun aylarında demək olar ki, hər bir ölkədə (daha dəqiq desək bütün ölkələrin 90 faizində) tibbi xidmətlərin təqdim edilməsində fasilələr yaranıb. Gəlir səviyyəsi aşağı və orta olan dövlətlər daha böyük çətinliklərlə üzləşiblər.

Hesabatlardan məlum olur ki, həm maliyyə, həm də kadr resurslarının məhdud olması səbəbindən əvvəlcədən planlaşdırılan tibbi tədbirlərin çoxundan imtina etmək zərurəti yaranıb. İlk növbədə, həm evdə, həm də tibb müəssisələrində immunlaşdırma ilə bağlı problemlər çoxalıb. İnfeksion xəstəliklərin diaqnostikası və müalicəsi, ailə planlaşdırması və kontrasepsiya tədbirləri, psixi xəstəliklərin profilaktikası və müalicəsi, xərçəngin diaqnostikası və müalicəsi sahəsində çətinliklər olub. Ölkələr malyariyanın diaqnostikası və müalicəsi, vərəmin aşkar edilməsi və müalicəsi, habelə antiretrovirus müalicəsi sahələrində çətinliklər yarandığını bildiriblər.

Ekspertlərin fikrincə, səhiyyə sistemlərinin işində əngəllərin səbəbləri klassik tələb-təklif formuluna uyğun gəlir: koronavirus pandemiyası dövründə stasionar müalicəyə ehtiyacın kəskin artdığı bir şəraitdə ambulator xidmətlərə tələb azalıb. İnsanlar kəskin zərurət olmadığı hallarda həkimlərə müraciət etməməyə üstünlük verirlər. Bundan əlavə, həkimlərin və digər tibb işçilərinin çoxunun təcili olaraq ixtisasını dəyişməsi və COVID-19-a qarşı mübarizə ilə məşğul olması zərurəti yaranıb. Zəruri avadanlıq və tibbi təyinatlı mallarla təchizat sahəsində fasilələr də əhaliyə tibbi xidmətlərin həcminin azalmasında mühüm rol oynayıb.

ÜST-nin Baş direktoru doktor Tedros Adhanom Qebreyesus məruzəni təqdim edərək deyib: "Bu tədqiqat səhiyyə sistemlərində mövcud problemləri üzə çıxarıb, lakin bu informasiya pandemiya dövründə və ondan sonra tibbi xidmətin yaxşılaşdırılmasına dair yeni strategiyalar hazırlanması üçün əsas olmalıdır.

ÜST ölkələrlə işi davam etdirir və COVID-19-un fəsadlarının aradan qaldırılmasına kömək edir. ÜST mütəxəssisləri regional səviyyələrdə pandemiya ilə bağlı problemlərin uzunmüddətli nəticələrini qiymətləndirməkdə ölkələrə kömək etmək üçün tədqiqat aparırlar.

## "Hazırkı dövrdə ən başçıca vəzifə koronavirusun yayılmasına, yeni yoluxma nöqtələrinin yaranmasına imkan verməməkdir"



"Azərbaycan dövləti koronavirus pandemiyası ilə mübarizə sayəsində ardıcıl tədbirləri davam etdirir. Səmərəli maarifləndirmə, müvafiq tibbi infrastrukturun yaradılması, profilaktika və müalicə məsələlərinin keyfiyyətli şəkildə həll olunması, xüsusi karantin rejiminin tətbiqi və mərhələli qaydada məhdudlaşdırıcı və yumşaldıcı tədbirlərin həyata keçirilməsi, vətəndaşların məsuliyyəti, dövlət-vətəndaş həmrəyliyi uğurlu nəticələrin əldə olunmasının başlıca səbəbləridir. Məhz, bunun nəticəsidir ki, hazırda ölkəmizin əksər şəhər və rayonlarında sərtləşdirilmiş xüsusi karantin rejimi ləğv edildi, bir çox məhdudiyyətlər aradan qaldırıldı". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı, 4 saylı Vərəm Əleyhinə Dispanserin baş həkimi Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, gediş-gəlişlə bağlı məhdudiyyətin qüvvədə qalması yoluxma təhlükəsinin daha yüksək olduğu Bakı, Sumqayıt şəhərləri və Abşeron rayondan ölkənin digər şəhər və rayonlarına infeksiyanın ötürülməsini maksimal şəkildə məhdudlaşdırmaq məqsədi daşıyır: "Heç şübhəsiz məhdudlaşdırma və ya yumşaldılma ilə bağlı qərarlardan öncə ölkədə və ayrı-ayrı regionlarda vəziyyət ətraflı öyrənilir, təhlil olunur, bütün risklər müəyyənləşdirilir və onların qarşısının alınması üçün profilaktik tədbirlər həyata keçirilir. Bu mənada, yoluxma riski daha yüksək olan regionlarla digər bölgələr arasında gediş-gəliş məhdudiyyətlərinin tətbiqi məqsədəuyğun hesab edilir. Əlbəttə, vətəndaşlarımız da başa düşür ki, hazırda gediş-gəlişlə bağlı məhdudiyyətin aradan qaldırılması ölkədə yoluxma hallarının artmasına, sanitar-epidemioloji vəziyyətin pisləşməsinə gətirib çıxara bilər və bu da öz növbəsində sərtləşdirmə ilə bağlı yeni tədbirlərin həyata keçirilməsini zərurətə çevirəcək".

"Payız-qış mövsümü müxtəlif xəstəliklərin fəallaşdığı dövrdür. Bu mənada, koronavirus ilə birlikdə bu xəstəliklər insan orqanizimi üçün ciddi təhlükədir" - deyən Sədaqət Vəliyeva əlavə edib ki, hazırkı dövrdə ən başçıca vəzifə koronavirusun yayılmasına, yeni yoluxma nöqtələrinin yaranmasına imkan verməməkdir: "Tədris müəssisələrinin fəaliyyətə başladığı dövrdə bizim ən əsas vəzifələrimizdən biri və birincisi övladlarımızı bu xəstəlikdən qorumaq, onların təhsil prosesinə normal şəraitdə qovuşmasını təmin etməkdir. Doğrudur, bu gün bəzi vətəndaşlarımız gediş-gəlişlə bağlı məhdudiyyətlərin qüvvədə saxlanmasına qarşı dözümsüzlük nümayiş etdirirlər. Amma onlar yolların açılmasından çox insanlarımızın, cəmiyyətimizin, özlərinin və ailəsinin sağlamlığını, təhlükəsizliyini düşünməlidirlər. Hətta, bu gün elə insanlar da tapılır ki, yumşalma tədbirləri çərçivəsində muzeylərin və sərgi zallarının fəaliyyətinə icazə verilməsinin lazımsız olduğunu iddia edirlər. Lakin məsələyə məntiqlə yanaşdıqda, aydın görmək olar ki, pandemiya ilə əlaqədar hələlik bəzi məhdudiyyətlərin saxlanması heç də digər sahələr üzrə yumşaldıcı qərarların qəbulunu istisna etməməlidir. Muzey və sərgi salonları təkcə ölkəmizə gələn turistlər üçün deyil, həm də mədəniyyət və incəsənət nümunələri, tariximiz və s. ilə tanış olmaq üçün hər bir vətəndaş, xüsusilə gənclərimiz üçün böyük əhəmiyyətə malikdir".

Sədaqət Vəliyeva vurğulayıb ki, ölkəmizdə tətbiq edilən karantin rejimi öz səmərəsini verir, lakin bugünkü məqamda ən önəmli məsələlərdən biri sosial məsuliyyət məsələsidir: "Ona görə də, hər kəs kimliyindən asılı olmayaraq bilməlidir ki, atılan müvəqqəti və məcburi addımların cəmiyyətin sağlamlığı, təhlükəli virusun neqativ təsirlərindən maksimum dərəcədə qorunmaq üçündür. Lazımsız ifadələr, sözlər işlədib ictimai rəyi də çaşdırmaq bu günün məqsədlərinə uyğun deyil".

## "Ermənistan çağırışlara məhəl qoymur və çirkin əməllərini davam etdirir"



"Qaraçı mənşəyinə mənsub olduqlarına görə köç etmək və köçürüldükləri əraziləri öz torpaqları kimi özəlləşdirmək ermənilərin qədimdən qalma adətləridir. Vaxtilə onlar İrəvan xanlığına, Qarabağ torpaqlarına, müxtəlif ərazilərə də qonşu dövlətlərdən, İrandan, Türkiyədən, Suriyadan köçürülmüş və məskunlaşdıqdan sonra bu torpaqları işğal edərək, dədə-baba yurdu kimi qələmə vermişlər. Erməni təcavüzkarları bu ənənəni bu gün də davam etdirirlər və müəyyən mərhələlərdə bir çox ailələrin Dağlıq Qarabağ ərazilərində, Laçında məskunlaşdırılması buna sübutdur. Əlbətə ki, bu hallar beynəlxalq hüquq qaydalarının tələblərinə ziddir. Bu beynəlxalq hüquq qaydalarının pozulmasıdır və beynəlxalq əhəmiyyətli sənədlərdə təsbit olunmuş qaydalara ziddir." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədrinin sözlərinə görə, ancaq təəssüflər olsun ki, əldə lazımi faktlar olmasına və bu hallar mötəbər beynəlxalq təşkilatların tribunasından dəfələrlə səsləndirilməsinə baxmayaraq, Ermənistan rəhbərləri çağırışlara məhəl qoymur və öz çirkin əməllərini davam etdirməkdədirlər. "Bu günlərdə işğal altında olan Dağlıq Qarabağ ərazilərinə Livandan olan iki ailənin yerləşdirilməsi və məskunlaşmanın bundan sonra da kütləvi hala çevrilməsinə göstərilən cəhdlər onu deməyə imkan verir ki, Ermənistan heç bir beynəlxalq qətnamə, qərar və göstəriş tanımır və həmin göstərişlərə əməl etmək fikrində deyil. İşğalçı ölkə öz mənfi əməllərini davam etdirməyə üstünlük verir. Əlbəttə ki, bu bir çox beynəlxalq təşkilatların, BMT təhlükəsizlik şurasının, İslam Əməkdaşlıq Təşkilatının, xüsusilə ATƏT-in öz qərarlarına, qətnamələrinə, səahiyyətlərin laqeyid münasibətlərindən irəli gəlir. Cəzasız qalan, təsir göstərilməyən Ermənistan gündən-günə harınlaşır.

Nə qədər ki, beynəlxalq hüquq normaları ayaqlar altına atılacaq, haqq-ədalət bərpa edilib təcavüzkarlar, işğalçılar barədə qətiyyətli tədbirlər görülməyəcək, elə bilirəm münaqişələr, müharibələr daha da kəskinləşəcək, insan tələfatları artacaq və bəşəriyyət haqsızlığın qurbanına çevriləcəkdir. Ermənistan rəhbərlərinin, onların havadarlarının mövqeyi, çirkin əməlləri, təcavüzkarlıq cəhdləri bunu söyləməyə əsas verir. Azərbaycan xalqı öz prezidentinə, ali baş komandanına, birliyinə, həmrəyliyinə güvənməli, reallıqları qiymətləndirməli, iqtisadiyyatını inkişaf etdirib gücünü artırmalı və məqam gələndə sözünü deyib düşməni yerində oturtmalıdır", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

## "Sığorta sektoru üçün ən böyük problem inamın yüksək olmamasıdır"



"Bəzi hallarda çox təəssüf ki, sığorta şirkətlərinin öz öhdəliklərini yerinə yetirməsində müəyyən problemlər və çətinliklər olur. Bu da ümumi sığorta sektoruna olan inama təsir göstərir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq Komitəsinin üzvü olan deputatı Vüqar Bayramov Azərbaycanda son illər ərzindəki sığorta fəaliyyətindən danışarkən deyib. O bildirib ki, pandemiyanın təsir etdiyi sektorlardan biri də təbii ki, sığorta sistemidir: "Azərbaycan Respublikası Mərkəzi Bankının aprel ayında təsdiq etdiyi tədbirlər planında həm də sığorta şirkətləri üçün təşviq nəzərdə tutmuşdu. Nəzərə alsaq ki, pandemiya 20 fəaliyyət sahəsinə təsir göstərib, onların 11-də fəaliyyətlərin dayanması, 9-da isə fəaliyyətlərin 70 faiz məhdudlaşdırılması nəzərə çarpıb. Bu baxımdan pandemiyanın həm də sığorta ödənişlərinə birbaşa təsir göstərdiyi məlum olub. Çünki, pandemiyanın təsir etdiyi sektorlarda çalışanların ödənişlərində azalmalar müşahidə olunur. Bu da təbii ki, həm də sığortaya olan marağın da müəyyən qədər azalmasına səbəb olub".

Millət vəkilinin sözlərinə görə, aparılan tətqiqatlar göstərir ki, bu gün sığorta sektoru üçün ən böyük problemlərdən biri hələ də inamın yüksək olmamasıdır: "Çünki, bəzi hallarda çox təəssüf ki, sığorta şirkətlərinin öz öhdəliklərini yerinə yetirməsində müəyyən problemlər və çətinliklər olur. Bu da ümumi sığorta sektoruna olan inama təsir göstərir. Eyni zamanda hələ də vətəndaşlarımızın və o cümlədən, sahibkarların sığorta ilə bağlı tam məlumatlılığı formalaşmayıb. Xüsusilə də, son illər baş verən yanğınlar nəticəsində bəlli oldu ki, sahibkarlar öz əmlaklarını sığortalamayıblar. Buna görə də, onlar sığorta haqlarından istifadə edə bilmədilər".

Vüqar Bayramov qeyd edib ki, bütün bunlar sığorta ilə bağlı məlumatlılığın aşağı olduğunu göstərir: "Bu sahədə məlumatlılığın artırılması çox vacibdir. Post-pandemiya dövründə sığorta sektorunun inkişaf etdirilməsi, həm inamın artırılması, həm də məlumatlılığın yüksəldilməsi prioritet məsələlərdən olacaq. Nəzərə alsaq ki, sığorta həm real sektorun, həm də aqrar sektorun inkişafı baxımından çox vacib hesab olunur. Bu baxımdan təbii ki, post-pandemiya dövründə sığorta sektorunun inkişafı əsas məsələlərdən biri kimi görünür".

***Nigar Məmmədova***

# Azərbaycan səfirindən İtaliya erməni icmasına cavab: “Erməni xalqının demokratiya gözləntiləri tamamilə puç olub”

***Ötən həftə İtaliyanın “Politicamente Corretto”, “L’Opinione”, “Notizie Geopolitiche”, “Sicurezza Internazionale”, “Sardegnagol”, “Kmetro0”, “Giornale Diplomatico” kimi mətbuat orqanlarında Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadənin “Münaqişənin həlli Azərbaycanın ərazi bütövlüyünün bərpasından keçir” sərlövhəsi ilə dərc olunmuş məqaləsi İtaliya erməni icmasını “hiddətləndirib”.***

SİA-nın verdiyi məlumata görə, İtaliyada yaşayan ermənilər “Roma Erməni İcması Şurası” adlı qurum adından Azərbaycan səfirinin məqaləsini dərc etmiş mətbuat orqanlarına etiraz məktubları ünvanlayaraq İtaliya ictimaiyyətini Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən yayındırmağa hesablanmış sayıqlamalarla çıxış edib. Bu xüsusda, erməni tərəfinin məktubunu dərc etmiş mətbuat orqanlarının (“Notizie Geopolitiche”, “Giornale Diplomatico”, “Politicamente Corretto”, “Sardegnagol”) redaksiyalarına Azərbaycanın İtaliyadakı səfirinin göndərdiyi cavab məktubu həmin KİV-lərin hər biri tərəfindən dərc olunub.

Məktubunda Azərbaycan səfiri, ilk öncə, həmin mətbuat orqanlarına regionumuzdakı proseslərə göstərdiyi diqqətə, habelə ötən həftə onun məqaləsini dərc etməklə italyan oxucularına bölgədəki vəziyyət haqqında mənzərənin aydın olmasına yaradılan şəraitə görə təşəkkür edib və yalnız bu yolla



həqiqətin üzə çıxa biləcəyini söyləyib. Azərbaycan diplomatı onun məqaləsinə erməni tərəfinin “Roma Erməni İcması Şurası” adlı qurum vasitəsilə “cavab” vermək cəhdlərinə münasibətdə isə bildirib ki, bu qurumun Ermənistanın təcavüzkar mahiyyətini inkar etmək üçün heç bir arqument ortaya qoya bilməməsi və diqqəti Azərbaycana qarşı ucuz qarayaxma kampaniyasına yönəltməsi bir tərəfdən Ermənistanın təcavüzkar siyasətini ört-basdır etmək üçün uğursuz cəhdidirsə, digər tərəfdən də Ermənistanın təcavüzkar, Azərbaycanın isə təcavüzə məruz qalan tərəf olmasının etirafıdır.

Diplomat həmin quruma Azərbaycana qarşı ucuz qarayaxma kampaniyası aparmaqdansa, diqqəti müstəqillik illərində Ermənistandakı acınacaqlı daxili siyasi proseslərə yönəltməyi məsləhət görüb.

“Ermənistanın birinci prezidentinin rəhbərlik etdiyi dövr tarixdə Ermənistanın Azərbaycana hərbi təcavüzü, minlərlə insanın ölümü, müharibə cinayətləri, bəşəriyyət əleyhinə cinayətlər, bütün bölgəni çağdaş tarixin ən ağır siyasi, demoqrafik böhranlarından biri ilə üz-üzə qoyması ilə yadda qalıb. Sonradan bu vəziyyətin Ermənistanı dərin böhrana gətirib çıxardığını başa düşən və çıxış yolunu Azərbaycanla sülhün əldə edilməsində görən Ermənistanın birinci prezidenti hərbi-cinayətkar xunta tərəfindən devrilib. Azərbaycana qarşı hərbi təcavüz vaxtı əli mülki azərbaycanlıların qanına batmış Ermənistanın ikinci və üçüncü prezidentlərinin rəhbərlik etdikləri həmin hərbi-cinayətkar xunta isə 20 illik hakimiyyəti dövründə ölkəni bir dövlət kimi məhv olmaq təhlükəsinə sürükləyib. Belə bir acınacaqlı vəziyyətdə xalqın narazılığı və etirazlarından istifadə edərək hakimiyyəti qəsb etmiş hazırkı baş nazir isə ölkədə inqilabi diktatura yaradıb. Artıq heç kəsə sirr deyil ki, erməni xalqının demokratiya gözləntiləri tamamilə puç olub. Qısa müddət ərzində bütün siyasi opponentlərinə, məhkəmə instansiyalarına, mətbuata və qeyri-hökumət təşkilatlarına müharibə elan edən hazırkı baş nazirin adı müxtəlif maliyyə və iqtisadi maxinasiyaları və cinayətlərlə yadda qalıb. 12 iyul tarixində Ermənistanın Azərbaycana qarşı növbəti hərbi avantürası da İrəvan rejiminin elə bu acınacaqlı daxili siyasi vəziyyətdən diqqəti yayındırmaq məqsədi daşıyırdı”, deyə M.Əhmədzadə bildirib.

Azərbaycan diplomatı qeyd edib ki, əslində xaricdə yaşayan diasporun məqsədi öz vətəninin inkişafı və çiçəklənməsi olmalıdır, lakin erməni tərəfində isə bu, tamamilə əksinədir. “Bizim yerləşdiyimiz regiondakı prosesləri düzgün qiymətləndirə bilməyən xaricdəki erməni təşkilatları öz zərərli hərəkətləri ilə Ermənistanı şəxsi ambisiyalarının girovuna çeviriblər. Əgər həqiqətən də erməni diasporu erməni xalqının gələcəyini düşünürsə və Ermənistanı sabit, inkişaf etmiş və çiçəklənən ölkə kimi görmək istəyirsə, birinci növbədə Ermənistanı öz qonşuları ilə normal münasibətlər qurmağa çağırmalıdır. Çünki, heç bir daxili resurslara malik olmayan Ermənistanın gələcəyi bütün qonşuları, ilk növbədə isə Azərbaycanla normal münasibətlərdən keçir. Bunun üçün isə Ermənistan ilk olaraq Azərbaycanın işğal olunmuş ərazilərindən öz silahlı qüvvələrini çıxarmalıdır”, deyə M.Əhmədzadə vurğulayıb.

Diplomat məktubunu bu fikirlərlə tamamlayıb: “Erməni icması başa düşməlidir ki, aradabir Ermənistana maliyyə ianələri göndərmək heç də Ermənistanı sevmək deyil. Nə bu maliyyə ianələri, nə də Ermənistanın səhvlərini Azərbaycana qarşı qarayaxma kampaniyası aparmaqla ört-basdır etmək Ermənistanın problemlərini həll etməyəcək. Ermənistanın bu gün yoxsul ölkə olaraq qalması və ağır siyasi, iqtisadi, sosial böhran içində boğulması birbaşa olaraq Azərbaycana qarşı hərbi təcavüzündən irəli gəlir. Kimin hakimiyyətdə olmasından asılı olmayaraq, Ermənistanda bu siyasət dəyişmədikcə bu ölkənin vəziyyəti daha da ağırlaşacaqdır”.

Erməni tərəfinin məktubunu dərc etmiş “Giornale Diplomatico” qəzetinin redaksiyasının “Ermənistan və Azərbaycanın silahlı qarşıdurma və mətbuat səhifələrindən bir-birinə qarşı iddialar səsləndirmək əvəzinə danışıqlar masasına oturub problemin sülh yolu həllini tapmağa çağırışına” münasibətdə isə M.Əhmədzadə bildirib: “30 ilə yaxındır ki, Azərbaycan öz ərazilərinin 20 faizinin hərbi cəhətdən işğal olunmasına baxmayaraq, münaqişənin sülh yolu ilə həllinə sadiq olub. Bizim danışıqlarda məqsədimiz münaqişənin həllinə nail olmaq üçün nəticələrə yönəlik substantiv danışıqlar aparmaqdır. Lakin Ermənistanın danışıqlarda məqsədi isə danışıqları uzatmaq və status kvonu saxlamaqdır. Redaksiyanın münaqişənin tezliklə həllinə çağırışını alqışlayırıq, lakin bu çağırış Azərbaycana yox, əraziləri işğal altında saxlayan tərəfə edilməlidir”. Azərbaycan diplomatının “Giornale Diplomatico”da dərc olunmuş bu şərhi “Askanews”, “Yahoo Notizie”, “Yahoo Finanza” kimi KİV-lərin də marağına səbəb olub və onlar tərəfindən də yayılıb.

# “Ölkəmizdə yüksək vətəndaş həmrəyliyi bərqərar olub”

***“Azərbaycan cəmiyyətinin həmrəyliyi ölkəmizi fərqləndirən əsas məqamlardan biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətin məntiqi nəticəsidir ki, ölkəmizdə yüksək vətəndaş həmrəyliyi bərqərar olub, bütün ümummilli məsələlərdə dövlətin və cəmiyyətin mövqeyi tam üst-üstə düşür”. Bu fikirləri SİA-ya millət vəkili Ramil Həsən deyib.***



Onun sözlərinə görə, Dağlıq Qarabağ probleminin həlli məhz bizi birləşdirən, heç bir fikir ayrılığına yer qoymayan belə ümummilli məsələdir: “Azərbaycan ilk növbədə tarixi ədalətə əsaslanaraq ölkənin ərazi bütövlüyünün təmin olunmasında prinsipiallıq nümayiş etdirir. Həqiqətən də, tarixi faktlar və sənədlər Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlarda Azərbaycanın mövqeyini gücləndirən çox mühüm amillər qismində çıxış edir. Dağlıq Qarabağda Ermənistanın işğalına qədər mövcud olan toponimlər, məişət ənənələri, dini və tarixi abidələr bu yerlərin aborogen sakinlərinin məhz azərbaycanlılar olduğunu təsdiqləyir. Eyni zamanda, tarixi sənədlərdən də görünür ki, ermənilər bu yerlərə sonralar müəyyən siyasi səbəblərə görə köçürülüblər.

Onu da qeyd edim ki, hələlik xalqımızın xoş məramına əsaslanan Azərbaycan dövləti humanizm dəyərlərindən çıxış edərək Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda konstruktivlik nümayiş etdirir. Ölkəmiz sülh danışıqlarının substantiv nəticələrə hesablanaraq aparılmasının tərəfdarıdır. Respublikamız danışıqların səmərəsiz aparılması və mövcud status kvonun sonsuzluğadək davam etdirilməsi cəhdləri ilə qətiyyən razılaşmır. Azərbaycanın danışıqlarda mövqeyini gücləndirən amillər sırasında ordumuzun döyüş qabiliyyətini getdikcə artırması mühüm rol oynayır. Son 17 ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi sayəsində ordumuzun maddi-texniki və kadr təchizatı əhəmiyyətli dərəcədə möhkəmlənib. Beynəlxalq reytinq agentliklərinin dəyərləndirmələrinə əsasən, bu gün Azərbaycanın Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Ordumuzun güclənməsi öz növbəsində qoşunların təmas xəttində üstünlüyün ölkəmizə keçməsini təmin edib. Bunu son illərdə düşmən qüvvələrinin təxribat cəhdlərinin ordumuz tərəfindən qətiyyətlə alınması, döyüş meydanlarında qazanılan qələbələr də təsdiqləyir. Xatırladaq ki, 2016-cı və 2018-ci illərdə keçirilən hərbi əməliyyatlar nəticəsində də böyük ərazilər işğalçılardan azad olunub. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 min hektardan çox ərazi düşmən qüvvələrindən təmizlənib. Hazırda Ermənistandan Dağlıq Qarabağa gedən yola nəzarət olunur. Azərbaycan Ordusunun Tovuz istiqamətində düşmənə vurduğu cavab zərbəsi işğalçılara növbəti dərs oldu”.

***Ceyhun Rasimoğlu***

# “Hraparak” nəşri: “Paşinyan Ermənistan prezidentinin daha bir səlahiyyətini qəsb etdi”




Nikol Paşinyan prezident Armen Sarkisyanın onsuz da məhdud səlahiyyətlərindən birini də qəsb edib. SİA bunu Ermənistana məxsus “Hraparak” qəzetinə istinadən xəbər verir.

Qəzet yazır ki, cümə günü Paşinyan Sardarapatda Ermənistanın Tavuş bölgəsindəki döyüş iştirakçılarına yüksək dövlət mükafatları - “Ermənistanın Milli Qəhrəmanı” adını, “Döyüş Xaçı” medallarını təqdim edib. Diqqətə çatdıraq ki, Ermənistan Konstitusiyasının 136-cı maddəsinə görə, “Respublika Prezidenti qanunla müəyyən edilmiş hallarda və qaydada, Ermənistan Respublikasının orden və medalları ilə təltif edir, fəxri adlar verir.”

Nəşr qeyd edir ki, Ermənistan prezidenti məzuniyyətdədir və qanunla onun məzuniyyətdə olduğu dövrdə təltif məsələləri baş nazir deyil, Milli Məclis sədrinin səlahiyyətində olur.

“Armen Sarkisyan 27 avqustdan məzuniyyətdədir və tədbir ertəsi gün təşkil olundu ki, mükafatlandırmaq və təltif prezidentə yox, baş nazirə həvalə edilsin. Bununla yanaşı, “analoq tətbiqetmə”də, Ermənistan prezidenti səlahiyyətlərini həyata keçirmirsə, Konstitusiyaya əsasən bunlar Baş nazirə deyil, Milli Məclis sədrinə həvalə edilir. Yəni, Ermənistan prezidenti ilə yanaşı, parlament sədrinin səlahiyyətləri də Paşinyan tərəfindən qəsb edilib”, deyə qəzet yazır.

***İnam Hacıyev***

# Azərbaycanda koronavirus infeksiyasına daha 143 yoluxma faktı qeydə alınıb, 130 nəfər sağalıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 143 yoluxma faktı qeydə alınıb, 130 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 36 min 578 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 33 min 977 nəfər müalicə olunaraq sağalıb, 536 nəfər vəfat edib. Aktiv xəstə sayı 2065 nəfərdir. Ötən müddət ərzində 928 min 666 test aparılıb. Bugünkü test sayı isə 6597-dir.

# İsa Həbibbəyli: “Prezident xalqa dəstəyini əsirgəmir, xalq da daim öz Prezidentinə dəstəkdir”



***“Bu gün dövlət başçımız İlham Əliyevin atdığı hər bir addım Azərbaycan dövlətinin uğurlu inkişafı, xalqın rifahının yaxşılaşmasına xidmət edir. Və son 17 ildə görülən işlərin uğurlu nəticələri bir daha bu realığın göstəricisidir.***

Məhz son on yeddi ildə Azərbaycan öz dinamik inkişafını təmin edib, mühüm transmilli enerji və nəqliyyat layihələrini icra edib, planetin azsaylı kosmik dövlətləri sırasına daxil olub, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinin əsaslı inkişafına nail olunub. Cəmiyyəti düşündürən istənilən məsələdə dövlət başçısı daima xalqla həmrəylik nümayiş etdirib və irəli sürülən məsələlərin həlli ilə bağlı operativ tədbirlər həyata keçirib”. Bunu AMEA-nın vitse prezidenti, akademik, millət vəkili İsa Həbibbəyli “SƏS” qəzetinə açıqlamasında deyib.

İ.Həbibbəyli bildirib ki, bu gün dünyanı cənginə almış COVİD-19 pandemiyasına qarşı hər bir ölkə müxtəlif üsullarla mübarizə aparmaqdadır: “Bəzi ölkələrin iqtisadiyyatı tamamən ziyana uğrayıb, bəzi ölkələrin əhalisi gözlə görünəcək qədər azalıb, bəzi ölkələr isə bu virusa qarşı vaxtında mübarizəyə başlaya bilib. Azərbaycan da məhz bu sıradakı ölkələrə aiddir. Prezidentimizin düzgün siyasəti, uzaqgörənliyinin nəticəsidir ki, hazırda 46 xəstəxana koronavirusun müalicəsi üçün istifadəyə verilib. Bu xəstəxanaların hər biri yüksək tibbi avadanlıqlarla təchiz olunub. Virusdan qorunmaq üçün qabaqlayıcı tədbirlər görülüb, Prezidentimizin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında “Bakı Tekstil Fabriki” MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsi, modul tipli xəstəxanalar açılıb, uğurlu addımlar atılıb. Budur uğrlu inkişaf! Budur, Azərbaycan Prezidentinin öz xalqına diqqəti, qayğısı”.

İ.Həbibbəyli dövlət idarəçiliyi sistemini daim təkmilləşdirən Prezident İlham Əliyev cənablarının hətta qlobal pandemiya ilə mübarizə dövründə də bu istiqamətdəki islahatlarını davam etdirdiyini və bu qətiyyətli və düşünülmüş addımların vətəndaşlar tərəfindən yüksək qiymətləndirildiyini bildirib: “Çünki belə görüşlərdə dövlət yeni təyin olunan icra başçılarına xalqa xidmət etməyi, rəhbəri olduqları rayonlarda mövcud olan nöqsanları, çatışmazlıqları araşdırmağı, insanları narahat edən problemlərin həllinə çalışmağı, əyri yolla getdikləri halda qanun qarşısında cavab verəcəklərini diqqətlərinə çatdırır. Elə bugünlərdə ölkə Prezidentimiz Biləsuvar və Saatlı rayonlarına təyin etdiyi yeni icra hakimiyyəti başçıları ilə videoformatlı görüşündə də bir daha həmin şəxslərə ciddi xəbərdarlıq etdi və qarşılarına mühüm tələblər, vəzifələr qoydu”.

İ.Həbibbəyli onu da bildirib ki, dövlət başçısı bütün çıxışlarında hər bir məmurun xalqının xidmətçisi olmağını dəfələrlə deyib və bu görüşdə də yeni təyin olunan icra başçılarına xatırladaraq dedi: “Mən dəfələrlə demişəm ki, Prezident başda olmaqla bütün dövlət məmurları xalqın xidmətçiləridir. Məhz buna görə biz bu vəzifədəyik. Buna görə xalq mənə etibar göstərib və mən bütün təyin etdiyim kadrlardan bunu tələb edirəm”.

“Dövlət başçımızın idarəçilik keyfiyyətləri sırasında diqqətçəkən ən mühüm məqam xalqının xidmətçisi olmağı, xalq qarşısında verdiyi hər bir vədə yüksək sadiqlik göstərməsi, xalqın sosial rifahının yaxşılaşdırılması, ölkənin iqtisadi cəhətdən möhkəmlənməsi üçün davamlı tədbirlər həyata keçirməsidir”,- deyən İ.Həbibbəyli bildirib ki, əsl siyasət konkret real iş görməkdir: “Göründüyü kimi, məhz bu gün cənab İlham Əliyevin xalqa layiqli rəhbərlik missiyasının əsasında hər bir vətəndaşın maraq və mənafeyini maksimum dərəcədə təmin edən mükəmməl idarəetmə sisteminin yaradılması istəyi dayanır. Bütün bunlar, bir daha sübut edir ki, Azərbaycan dövləti və Prezidenti daim xalqın yanındadır və keçirilən müşavirələrdə də məmurları xalqla bir olmağa, xalqın dərd-səri ilə şərik olmağı tələb edir. Bu hər şeydən əvvəl Prezident İlham Əliyevin bəyan etdiyi “siyasətimizin mərkəzində Azərbaycan insanı dayanır” prinsipinin növbəti əyani təcəssümü sayıla bilər. Çünki insana tükənməz qayğı, onun həyat şəraitinin yaxşılaşdırılması Azərbaycan hakimiyyətinin əsas qayəsinin təşkil edir. Çünki Prezident İlham Əliyevin 17 illik Prezidentlik fəaliyyətində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub”.

**RƏFİQƏ KAMALQIZI**

## Məşhur aktrisa vəfat etdi



Məşhur türkiyəli aktrisa Mehtap Anıl 80 yaşında vəfat edib. SİA-nın məlumatına görə, sənətçi infarkt keçirib. Qeyd edək ki, Mehtap tamaşaçılara “Mahallenin Muhtarları”, “Hanımın Çiftliği”, “Merhamet” və “Veda Türküsü” adlı ekran işlərindən tanınır.

# Hakimiyyət-media həmrəyliyini kim hədəfə alıb?

***“Sabiq administrasiya rəhbəri sayca üçüncü məqaləsini yazdı. Başdan-başa tənqid üstündə qurulub və dövlət siyasətinin bütün önəmli istiqamətlərini vurur. Elə sahələri ki, az əvvələ qədər bu sahələrin yaxşısının da, pisinin də məsuliyyətini elə onun özü daşıyırdı. Həm də onun həmlələri o qədər anidir ki, bəlli postdan getdiyi qısa müddətdə heç kim çatdırıb bu sahələrdə bu qədər problem yarada bilməzdi. Əslində “hər şeyin başı elə onun özüdür” deyib üstündən keçmək olardı. Ancaq media ilə bağlı dediklərinə toxunmamaq olmaz”. SİA-nın məlumatına görə, bunu açıqlamasında “Bakı Xəbər” qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.***

Onun sözlərinə görə, medianı guya nəhayətsiz problemlərin içində itib-batan sahə kimi təqdim etməklə özündən sonra qalmış komandanı kökləmək və elə bir radikallıqla mediada dağıdıcı islahatlara yönəltmək istəyir ki, sonda bu islahatlar əslində illərdən bəri bir yerə toplanılan bütün pozitivlərin yerlə yeksən edilməsi ilə nəticələnsin: “Deməyindən belə çıxır ki, media indiki durumda ümumiyyətlə heç bir pozitiv rol və təsirə malik deyil. Ramiz Mehdiyev sözsüz ki, bir qədər “arxa planlarda” konktet şeyləri hədəfləyib. Stajlı dövlət məmuru olaraq yaxşı bilir ki, bu gün geniş çeşiddə media ilə hakimiyyətin həmrəyliyi və əməkdaşlığı hakimiyyətin müqayisəsiz güc elementlərindən biridir və təbii ki, dövlət rəsmilərini mediada ehtiyac hiss edilməndə də geniş və dərin islahatlara təşviq etməklə mediadakı təcrübəli və oturuşmuş sistemi çökəltmək, beləliklə hakimiyyəti özünün əsas güc elementlərinin biri ilə üzüzə qoymaq istəyir”.



Siyasi şərhçinin fikrincə, kimsə inkar etməz ki, hakimiyyətlə medianın bu günkü həmrəyliyinin azacıq zədə alması hansı fəsadlara səbəb ola bilər: “Təbii ki, hakimiyyət, ilk növbədə Prezident sabiq administrasiya rəhbərinin ağlı ilə iş görəsi deyil və onun sadəcə kütlə psixologiyasına hesablanmış “ideoloji oyun tələsinə” düşəsi də deyil. Məlumdur ki, bir neçə ambisioz deputatın, bir neçə uğursuz karyeralı “mediaçının” məqsədyönlü həmləri sayəsində ictimaiyyətin müəyyən hissəsində elə təsəvvür yaranıb ki, guya həqiqətən Azərbaycanın media sistemi “bax indice çökəcək” həddə düşüb və bu sektorun guya heç bir həlledici uğuru yoxmuş. Mediamızın təbii ki, həlli vacib problemləri var. Lakin bunlar nə ambisioz deputat və uğursuz “mediaçıların” iddia etdiyi kimi, nə də Ramiz Mehdiyevin uzaqgörən bir məkrlə təlqin etmək istədiyi səviyyədə deyil”.

A.Quliyev vurğulayıb ki, Ramiz Mehdiyevin “əlinizdə səlahiyyət olanda bunları niyə etmədiniz” sualı ilə üz-üzə qalacağını öncədən nə qədər nəzərə aldığını söyləmək çətindir: “Ancaq hiss olunur ki, hakimiyyətin mediada onun istədiyi dağıdıcılığa gətirib çıxaran “islahatlara” gedə biləcəyinə haradasa ümidlidir. Lakin çətin... Bu gün ölkədəki sabitliyin hakimiyyət-media həmrəyliyinin birbaşa nəticələrindən biri olduğunu necə görməmək olar?!”.

**Aysel Məmmədova**

## Dərsliklərin məktəblərə və şagirdlərə çatdırılmasına başlanılıb



2020-2021-ci tədris ili üzrə geri yığılan, eləcə də yeni çap edilən dərsliklərin məktəblərə və şagirdlərə çatdırılmasına artıq başlanılıb. Təhsil Nazirliyindən SİA-ya verilən məlumata görə, prosesin əsasən 4 sentyabradək həyata keçirilməsi, 15 sentyabradək isə tam yekunlaşması nəzərdə tutulur.

Yerlərdə şagirdlərin dərslik təminatı prosesinin bütün təhlükəsizlik və sanitar-epidemioloji normalara, eləcə də Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə əməl edilməklə həyata keçirilməsinə, prosesdə iştirak edən hər iki tərəfin yüksək məsuliyyət nümayiş etdirməsinə dair müvafiq tapşırıqlar verilib. Qeyd edək ki, 2020-2021-ci tədris ilinə ölkənin dövlət ümumi təhsil müəssisələrinin I-XI sinifləri üçün 339 adda 7233214 nüsxə kağız dərslik və metodik vəsait çap edilib.

## REAL və MCP partiyaları rəsmi qeydiyyata alındı




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çoxpartiyalı sistemin inkişafı, siyasi partiyaların ölkəmizin ictimai həyatında əhəmiyyətinin artırılması, bu sahədə münasibətlərin sağlam zəmində və qarşılıqlı əməkdaşlıq əsasında qurulmasına dair səsləndirdiyi fikirlər daim diqqət mərkəzində saxlanılır. Ədliyyə Nazirliyindən SİA-ya verilən məlumata görə, Milli Cəbhə Partiyası (MCP) və Respublikaçı Alternativ (REAL) Partiyasının dövlət qeydiyyatına alınması üçün Ədliyyə Nazirliyinə ünvanlanmış müraciətlərinə əsasən təsis sənədlərinin qanunvericiliyin tələblərinə uyğunluğu məsələsi öyrənilmiş və partiyaların qeydiyyata alınması barədə nazirlik tərəfindən qərar qəbul edilib.

Sentyabr ayının 1-də Ədliyyə nazirinin müavini Toğrul Musayev partiya sədrləri ilə görüşü zamanı onlara dövlət qeydiyyatı haqqında şəhadətnamələr təqdim edərək, dövlət başçısının iradəsi ilə ölkəmizdə siyasi sistemin və vətəndaş cəmiyyətinin inkişafı istiqamətində önəmli addımların atılmasını xüsusi vurğulamış, son aylar artıq bir neçə partiyanın qeydiyyatdan keçməsini qeyd edib. Partiya rəhbərləri Razi Nurullayev (MCP) və İlqar Məmmədov (REAL) siyasi islahatların aparılmasını, demokratik təsisatların inkişaf etdirilməsi sahəsində görülən işləri, başlanmış siyasi dialoqu dəstəklədiklərini, bunların dövlətimizin tərəqqisinə müsbət təsir edəcəyinə dair əminliklərini bildiriblər.

## Ağacları məhv edən müəssisə cəzalandırılıb



Xətai rayonunun Nobel prospekti, 187 ünvanında gecə saatlarında ağacların kəsilməsi ilə bağlı Dövlət Ekoloji Təhlükəsizlik Xidməti tərəfindən aparılan araşdırma başa çatıb.

Xidmətin rəisi Hikmət Əlizadə AZƏRTAC-a bildirib ki, həmin ünvanda “Real-Park” MMC-nin istifadəsində olan torpaq sahəsində 29 ədəd ağac və kol bitkisinin məhv edilidiyi və təbiətə 14 min 880 manat məbləğində ziyan dəydiyi müəyyən olunub: “Faktla bağlı müəssisə barəsində akt tərtib edilib.

Dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından məsələyə hüquqi qiymət verilməsi və təqsirkar şəxslər barəsində qanunamüvafiq tədbirlərin görülməsi üçün toplanmış sənədlər Baş Prokurorluğa göndərilib”.

# Mehriban Abasquliyeva: "Azərbaycan hüquqi dövlətdir, heç kim qanundan üstün ola bilməz"

***Məlum olduğu kimi, 5-6 aya yaxındır ki. dünyanı ağuşuna alan da COVID-19 pandemiyasına qarşı Azərbaycan ən uğurlu mübarizə aparan ölkələrdəndir. Təsadüfi deyil ki, bu sahədə ölkəmizin təcrübəsi dünyada nümunə kimi göstərilir.***



Pandemiya ilə mübarizənin ilk günlərindən Prezident İlham Əliyevin rəhbərliyi ilə lazımi qabaqlayıcı kompleks tədbirlər görüldü, ölkənin bütün resursları insanların sağlamlığının qorunmasına səfərbər edildi, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə karantin rejimi, pandemiya şəraitində xüsusi davranış qaydalarını müəyyən edən tələblər qoyuldu və qaydalar tətbiq edildi. Məhz bunların nəticəsidir ki, bu gün ölkədə vəziyyət nəzarət altındadır". Bu fikirləri YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva bildirib.

M.Abasquliyeva onu da bildirib ki, yarım il ərzində karantin rejimi vəziyyətə uyğun olaraq bəzən yumşaldıldı, bəzən də sərtləşdirildi: "Buna uyğun olaraq, qanunvericiliyə müvafiq dəyişikliklər də edildi. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva dəfələrlə vətəndaşlara müraciət edərək, onları ehtiyatlı olmağa, qadağaları nəzərə almağa, karantin qaydalarına əməl etməyə çağırıblar. Onlar özləri şəxsi nümunə göstərərək qapalı məkanlarda maska taxır, bütün tədbirlərdə sosial məsafə saxlayırlar. Necə deyərlər, ən gözəl nümunə kimi hamını karantin rejiminə əməl etməyə çağırırlar. Belə olan halda, hər birimiz, kimliyindən və vəzifəsindən aslı olmayaraq karantin rejiminə heç bir səbəb olmadan əməl etməliyik. Çünki Azərbaycan Prezidenti ölkədə qanunun aliliyinin qarantıdır, hər kəsin qanun qarşısında məsuliyyəti və cavabdehliyi ali iradənin tələbidir. Heç bir vəzifəli şəxs öz statusundan istifadə edərək qanunları poza və qanunun tələblərinə hörmətsiz yanaşa bilməz. Belə şəxslər də müəyyən olunduqda mütləq şəkildə məsuliyyətə cəlb edilirlər, onların barəsində cəza tədbirləri görülür və qarşıdan gələn dövrdə də bu tədbirlər daha da sərtləşdirilməsi məqsədə uyğundur".

Rayon təşkilatının sədri təəssüf hissi ilə onu da vurğulayıb ki, son günlər bəzi məmurlar xüsusi karantin rejiminin tələblərini pozaraq əyləncə, toy, yas və s. mərasimləri təşkil edirlər ki, bu da cəmiyyətin ciddi hiddətinə səbəb olub və qınağına məruz qalıb: "Məlum olduğu kimi, Nazirlər Kabineti yanında Operativ Qərargah yoluxma və sağalma hallarında müsbət dinamikanı nəzərə alaraq avqustun 10-dan yumşaldıcı tədbirlərin tətbiq edilməsi barədə qərar qəbul edib. Koronavirusla mübarizəyə ciddi təhdid yaratdığına görə kütləvi tədbirlərin, o cümlədən toy və yas mərasimlərinin keçirilməsinə qadağa qüvvədə saxlanılıb. Belə olan halda, bu qanunları pozanlar yaxşı bilirlər ki, Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə qanunun aliliyi təmin edilib, heç kim qanundan üstün ola bilməz, hamı qanun qarşısında bərabərdir və öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Çünki qanun şahdır, şah qanun deyil! - dediyin halda, kimliyindən aslı olmayaraq hər bir kəs karantin rejiminə riayət etməlidir, çünki koronavirusla mübarizə ümummilli məsələdir. Heç kim şəxsi mənafeyi naminə, tutduğu mövqeyə, vəzifəsinə görə insanların həyatını təhlükəyə ata bilməz. Bunula bağlı Prezident İlham Əliyev cənabları dəfələrlə vurğulayıb ki, "Qanun qarşısında hamı bərabərdir, heç kim toxunulmaz deyil, Heç kim qanundan üstün deyil. Əgər kimsə fikirləşir ki, onun yaxınları, tanışları, qohumları, yüksək vəzifəli dostları onlara kömək edəcəklər səhv edirlər. Azərbaycan hüquqi-demokratik dövlətdir və qanun qarşısında hamı bərabərdir".

"Dövlət lazı tədbirləri görürsə, vətəndaşlarımız da təmkinli, səbirli və karantin rejimінə əməl etməlidirlər", - deyən rayon təşkilatının sədri onu da vurğulayıb ki, görünür ki, karantin rejimində yumuşaldılmalar bir qrup insanda arxayınlıq hissi yaradıb və onlar məsuliyyətsizlik göstərərək, toy şənlikləri təşkil ediblər: "Bu isə cəmiyyətin hiddətinə və ciddi qınağına səbəb olub. Əgər kimsə bu qaydaları pozursa, kimliyindən asılı olmayaraq, qanun qarşısında cavab verməlidir, çünki hər kəs qanun qarşısında bərabərdir. Bir sözlə, hər bir şəxs mövcud reallığı, qanunun aliliyini, Azərbaycan Prezidentinin mövqeyini və ali iradəsini bilməli və başa düşməlidir ki, qanun pozuntusuna görə vəzifəsindən asılı olmayaraq mütləq və mütləq şəkildə cavab verməli olacaq".

**RƏFİQƏ HÜSEYNOVA**

# Terror-təxribat təlimləri almış şəxs tutularaq Azərbaycana gətirilib

***Azərbaycan Respublikasının milli təhlükəsizlik maraqlarına yönələn təhdidlərin, terror-təxribat və digər pozuculuq fəaliyyətinin vaxtında aşkar edilməsi və qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən kompleks tədbirlər davam etdirilir. DTX-dan SİA-ya verilən məlumata görə, xarici xüsusi xidmət orqanlarının nəzarəti altında Azərbaycan Respublikası vətəndaşlarının seçilərək onlara ölkə hüdudlarından kənarda radikal-ekstremist dini ideyaların aşılanması yolu ilə hərbi təlimlərin keçirilməsi, şəxsiyyətləri gizlədilərək müxtəlif adlarla digər dövlətlərin ərazisindəki hərbi əməliyyatlara cəlb olunmaları barədə toplanılmış materiallar əsasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanılmış cinayət işi üzrə hazırda istintaq-əməliyyat tədbirləri aparılır.***




Araşdırmalar nəticəsində, Azərbaycan Respublikasının vətəndaşı Vəliyev Faliq Qalib oğlunun ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət orqanları tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə terrorçuluq cinayət əməllərinin törədilməsi üsulları, odlu silahlardan, partlayıcı maddələrdən və qurğulardan, eləcə də digər ümumi təhlükəli üsullardan və texniki vasitələrdən istifadə ilə əlaqədar hazırlıq keçməsinə, xarici xüsusi xidmət orqanları tərəfindən kəşfiyyat-təxribat xarakterli təlimlərə cəlb edilməsinə, fərdi ləqəb altında ölkə hüdudlarından kənarda ağır və xüsusilə ağır cinayətlər törətmək məqsədilə yaradılmış qanunsuz silahlı birləşmənin fəaliyyətində iştirak etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faliq Vəliyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 218.2 (cinayətkar birlikdə (təşkilatda) iştirak etmə), 12.3, 214-3.1-ci (terrorçuluq məqsədi ilə Azərbaycan Respublikasından kənarda təlim keçmə) və 12.1, 279.1-ci (Azərbaycan Respublikasından kənarda qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmuş, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarış elan edilmişdir. Faliq Vəliyevin Rusiya Federasiyasının ərazisinə keçdikdən sonra gizləndiyi yer müəyyən edilmiş və o, beynəlxalq axtarışa dair qarşılıqlı hüquqi yardım proseduru çərçivəsində saxlanılaraq 2020-ci il avqustun 27-də Azərbaycan Respublikasına ekstradisiya olunmuşdur. Hazırda cinayət işi üzrə araşdırma davam edir.

## "Bu gün ermənilər Ermənistandan qaçır, Dağlıq Qarabağda isə..."



"Bu məsələni beynəlxalq təşkilatların qarşısında, onların gündəliyində müzakirə predmetinə çevirməliyik. Bu təşkilatların biganəliyi fonunda bütün bu proseslər baş verir". Bu sözləri SİA-ya Qərbi Kaspi Universitetinin "Siyasi Elmlər" kafedrasının müdiri, politoloq Fikrət Sadıxov Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyəti, o cümlədən məskunlaşdırma siyasətini davam etdirməsi məsələsini şərh edərkən deyib.

Politoloq bildirib ki, bu, ermənilər tərəfindən aparılan açıq şəkilli təxribatdır: "Onlar nəinki, Azərbaycana qarşı, həm də dünya birliyinə qarşı siyasət aparırlar. Ermənistan beynəlxalq hüququ tapdalayır. Eyni zamanda, Cenevrə Konvensiyasının müəyyən şərtlərini də kobud şəkildə pozurlar. Düşünürəm ki, Ermənistan bütün bunları göstəriş xarakterli həyata keçirir. Onlar erməni mənşəli etnik əhaliyə biganə qalmadıqlarını göstərməyə çalışırlar. Əlbəttə ki, bu prosesə beynəlxalq təşkilatlar öz münasibətini bildirməlidir. Xüsusilə də, ATƏT-in Minsk qrupunun həmsədrləri, çünki, onlar aparıcı dövlətlərin nümayəndələridirlər. Bu məsələni beynəlxalq təşkilatların qarşısında, onların gündəliyində müzakirə predmetinə çevirməliyik. Bu təşkilatların biganəliyi fonunda bütün bu proseslər baş verir".

Siyasətçinin fikrincə, Dağlıq Qarabağın ermənilər tərəfindən dağıdılmış ərazilərinə yerləşdirilən ailələr çətin ki, burada yaşamağa davam etsinlər, bunun üçün bir çox obyektiv səbəblər var: "Burada onların yaşayışını təmin edəcək infrastruktur mövcud deyil, burada nə fəaliyyəti təmin edə biləcək müəssisə, nə də tibbi məntəqələr yoxdur. Əgər, buraya ailələr yerləşdirilirsə onlara maddi qazanc əldə etmək üçün də şərait yaradılmalıdır, lakin həmin ərazilərdə maliyyə mənbəyi yoxdur. Belə bir şəraitdə yaşamaq onlara sərf etməyəcək. Həmin əhalinin bu torpaqlarda qalması uzunmüddətli olmayacaq. Sadalanan səbəblərə görə onlar bu əraziləri tərk edəcəklər".

Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərinə etnik mənşəcə erməni olan ailələri yerləşdirməsinin əsas səbəbi burada dayaqlarını möhkəmləndirməkdən ibarət ola bilərmi? - sualına politoloq Fikrət Sadıxov belə cavab verir: "Təbii ki, məsələnin bir də bu tərəfi var. Bu, Ermənistanın siyasətində kifayət qədər görünən bir məqamdır. Onların etnik siyasət aparmalarının bir məqsədi də Dağlıq Qarabağda erməni əhalini çoxalmasına xidmət edir. Hesab edirlər ki, Azərbaycanın işğal olunmuş ərazilərində erməni mənşəli əhali nə qədər çox olsa, bu gələcəkdə münaqişə həll olunan zaman Ermənistanın lehinə işləyə bilər. Belə bir amil mövcuddur və Ermənistan bu amildən istifadə etmək fikrindədirlər. Lakin, həmin əhalinin Dağlıq Qarabağda indiki şəraitdə necə yaşayacağını dərk etmək mümkün deyil. Bu gün, ermənilər Ermənistanın özündən qaçır, əhali azalır. Ermənistan isə xaricidən gələn erməniləri Azərbaycanın işğal olunmuş torpaqlarında dağıdılmış ərazilərdə yerləşdirməklə onların burada qalmasını gözləyir. Onların burada çalışmalarını, inkişaf etmələrini istəyir. Tamamilə absurddur və bu siyasətin gələcəyi yoxdur".

**Nigar Məmmədova**

## "Regionda ciddi hadisələr baş verməkdədir"



"Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin "Ermənistana guya tikinti materiallarının daşındığı barədə Rusiyanın izahı bizi qane etmir" bəyanatı ölkə ictimaiyyəti və ekspertləri tərəfindən alqışlarla qarşılanır". Bunu SİA-ya politoloq Zaur Məmmədov deyib. Politoloqun sözlərinə görə, regionda ciddi hadisələr baş verməkdədir: "Şoyqunun Bakıya gələrək Zakir Həsənovla görüşdə Rusiyanın Azərbaycanla yeni hərbi-texniki sazişin (silah alveri) tez bir zamanda imzalanmasının vacibliyini dilə gətirməsi, lakin qarşılığında isə, Ermənistana pulsuz silahlar ötürməsi siyasi şıltaqlığın bariz nümunəsidir. Hətta, bu yaxınlarda Serj Sarkisyan da 2010-2018 ci illər ərzində Ermənistana Rusiya tərəfindən pulsuz hərbi texnikalarının verilməsini etiraf etmişdi.

Azərbaycan Rusiya ilə münasibətlərə həmişə böyük önəm verib, Moskvanın maraqlarına tapdalayacaq heç bir siyasətdə yer almayıb. Bakı bundan sonra da Rusiyanın regiondakı tərəfdaşı olmaqda davam etmək istəyir. Torpaqların qaytarılması müqabilində biz Kremlin başçılığı altında müxtəlif təşkilatlara da daxil olmağa hazır idik. Azərbaycan kimi geoiqtisadi və logistik cəhətdən vacib ölkənin Rusiya ilə müxtəlif sahələrdə daha da sıx inteqrasiyası Moskva üçün indiki zamanda böyük əhəmiyyətə malikdir.

Lakin, Cənubi Qafqazla bağlı kuratorluq Lavrova, Şoyquya həvalə olunub. Onlar isə, xarici siyasətdə realizm yanaşması mövqeyindən çıxış edərək qarşı tərəflərdən maksimum fayda almaq, minimum kompromissə getmək formulu ilə çıxış edirlər. Hər halda, regionda son vaxtlar baş verənlər onu göstərir ki, bir çox vacib dövlətlərlə diplomatik təmasların intensivləşməsinə ehtiyac var. Rusiya ilə də danışıqlar davam etməlidir. Bu olduqca vacib və təcilidir".

**Ceyhun Rasimoğlu**

# “Nikol Paşinyan Qarabağ kartı ilə manipulyasiya edir”



***“B**irincisi, o məsələyə aydınlıq gətirək ki, niyə Nikol Paşinyan tez-tez Dağlıq Qarabağa və ümumiyyətlə, Azərbaycanın işğal altındakı torpaqlarına səyahət edir. Bu, səbəbsiz deyil. Bilirik ki, erməni ictimai rəyi bu saat çox həssasdır. Özəlliklə də Ermənistan koronavirus pandemiyasından ən çox əziyyət çəkən ölkələrin önündə gedir və əhalinin sosial durumu həddən artıq böhranlıdır. İnsanlar gündəlik çörək tapmaqda çox ciddi problemlərlə üzləşirlər və təbiidir ki, ölkə içində narazılıq həddsiz dərəcədə yüksəlib. Paşinyan da o narazılığın qarşısında duruş gətirməkdə çətinliklərlə üz-üzədir”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.*

Siyasi şərhçinin sözlərinə görə, bunu göz ardı etmək, o çətinlikləri, narazılıqları arxa plana keçirmək üçün bu adam Qarabağ kartı ilə manipulyasiya edir.

“İyul ayında Tovuzdan Azərbaycan ərazilərinə təcavüz cəhdinin qarşısını ordumuz rəşadətlə aldı, bu da o qəbildən idi. Yəni, erməni ictimai rəyinin diqqətini məhz bu məsələlərə fokuslandırmaqla özünə qarşı narazılıqları bir növ balanslaşdırmaq, zəiflətmək istəyir. Ona görə də, tez-tez Qarabağa səfər eləyir, gəlir, görünür, şəkil, video çəkdirir, hansısa, həqiqətən də bir ölkə rəhbərinə, diplomata, siyasətçiyə yaraşmayacaq açıqlamalar verir. Bununla da bir növ, o başıpozuq erməni kəsiminin beynini məşğul edir və təbiidir ki, ölkə daxilindəki ictimai rəyi beləcə bir müddət də aldatmış olur.

İkinci bir tərəfdən, Dağlıq Qarabağın tərəf kimi danışıqlarda iştirak etməsi və sair məsələsinə gəlincə, bununla bağlı Azərbaycanın mövqeyi həmişə açıq və aydın olub. Əgər Ermənistan Respublikası özünün işğalçı əsgərlərini Azərbaycanın işğal altındakı torpaqlarından çıxırarsa, yəni, Ermənistan Respublikası Azərbaycandakı təcavüzə son qoyarsa, təbiidir ki, Azərbaycan dövləti nin müvafiq qurumları Dağlıq Qarabağdakı ermənilərlə danışıqlar apara bilər. Yəni, onlar bizim öz vətəndaşımızdır, narazılıqları, narahatlıqları var, yaxud da iddiaları var, bunlarla bağlı masa arxasında danışıq aparmağın heç kim əleyhinə deyil. Lakin indiki şəraitdə, Dağlıq Qarabağ tərəfi deyə bir şey yoxdur. Var işğalçı Ermənistan, var torpaqları işğal edilmiş Azərbaycan. Yəni, bu münaqişənin üçüncü tərəfi yoxdur. Olmadığına görə də Azərbaycan danışıqları məhz Ermənistanla aparır. Əslinə qalanda Ermənistan çox sağ ol deməlidir ki, Azərbaycan dövləti əlindəki nəhəng imkanlara baxmayaraq, hələ də onlarla masa arxasında danışıqlar aparır. Ermənistan dövləti və ona rəhbərlik edənlər anlamalıdır ki, Azərbaycanın səbrinin də bitəcəyi bir gün vardır. Həmin gün Paşinyan Azərbaycanın cəsarətini sorğu edərsə, özünə çox böyük ziyan vurmuş olar. Əslində, Cənab Prezident Ermənistanın cəsarəti ilə bağlı bu yaxınlarda bir fikir səsləndirdi. Yəni, 12 iyuldakı təcavüzün ardından Cənab prezident də dəyərləndirmə etdi və orda dedi: “Əgər Ermənistan doğrudan da iddia etdiyi qədər cəsarətli və güclüdürsə, arxasındakı qüvvədən imtina edib təkbaşına Azərbaycanın qarşısına çıxsın. Ermənistan buna hələ ki, cavab verməyib və verə də bilməz. Ermənistana liderlik edən şəxslərdə də o kişilik yoxdur ki, Azərbaycanla təkbətək üz-üzə gələ biləcəklərini dilə gətirsinlər. Ona görə də Paşinyanın bu manipulyasiyaları, özəlliklə də acından ölməkdə olan ermənilərin başını qatmaq üçün tez-tez Qarabağa gəlməsi, Qarabağla bağlı fikirlər səsləndirməsi, bunlar boş şeylərdir. Azərbaycan dövləti hazırda konkret istiqamətdə işlər görür. Ermənistan, nə qədər gec deyil, ağlını başına toplayıb masa arxasında bu münaqişənin, bu işğalın bitməsi ilə bağlı razılığa gəlməlidir. Əks təqdirdə, Ermənistanı çox böyük fəlakətlər gözləyir. Onda Paşinyan görəcək ki, kim sözdə, kim də əməldə cəsarətlidir”, deyə Azər Həsrət bildirib.

***İnam Hacıyev***

# Azərbaycanda taksilərlə bağlı vahid qiymətlər ola bilər




Bakı Nəqliyyat Agentliyinin təşəbbüsü ilə taksi fəaliyyətinin tənzimlənməsində cari vəziyyət və inkişaf perspektivləri mövzusunda video-konfrans formatında görüş keçirilib. BNA-dan SİA-ya verilən məlumata görə, görüşdə İqtisadiyyat, Nəqliyyat Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin, Bakı şəhər Baş Dövlət Yol Polisi İdarəsinin nümayəndələri, Azərbaycan Texniki Universitetinin mütəxəssisləri, vətəndaş cəmiyyətinin təmsilçiləri və ekspertlər iştirak edib.

Diqqətə çatdırılıb ki, ötən dövrdə Bakı Nəqliyyat Agentliyi səlahiyyətləri çərçivəsində taksi fəaliyyətinin tənzimlənməsinə dair bir sıra tədbirlər həyata keçirib. Taksi minik avtomobilləri və onların sürücülərinə dair tələblər təsdiq edilib. Tələbat olan ərazilərdə taksi duracaqları təşkil olunub. Görülən işlərə baxmayaraq, bu xidmət sahəsi üzrə bır sıra çatışmazlıqlar mövcuddur. Bunlar əsasən qeyri-müəyyən tariflər, taksi sürücülərinin aşağı gəlirliliyi, süni rəqabət, xidmət keyfiyyətinin zəifliyi, hüquqi və fiziki şəxslərin, çağrı mərkəzi-operatorların statusunun olmaması ilə bağlıdır. Bu kimi halların aradan qaldırılması, taksi fəaliyyətinin tənzimlənməsi, qanunvericiliyin təkmilləşdirilməsi və səmərəli nəzarət mexanizmlərinin yaradılması məqsədilə, Bakı Nəqliyyat Agentliyi konsepsiya hazırlayıb. Konsepsiyada vahid dispetçer mərkəzinin yaradılması, tarif sisteminin və kvotanın tətbiqi eyni zamanda sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı məsələlər öz əksini tapıb. Konsepsiyanın icrası nizamlı, qanuni, sərnişinlər üçün təhlükəsiz və rahat, eyni zamanda sürücülər üçün zəmanətli taksi xidmətinin təşkilinə imkan verəcək. Konsepsiyanın əhəmiyyətini qeyd edən görüş iştirakçıları bu görüşün taksi xidmətinin təkmilləşdirilməsi istiqamətində görülən işlərin koordinasiyası baxımından önəmini də vurğulayıb. Görüşdə konsepsiya ilə bağlı müxtəlif rəy və təkliflər irəli sürülüb. Bildirilib ki, səslənən fikirlər konsepsiyanın daha da təkmilləşdirilməsi zamanı nəzərə alınacaq.

# “Nar+” tətbiqindən istifadə edənlərin sayı 300 mini ötüb!

***“N**ar” abunəçiləri artıq bir ildir ki, hesabı daha asan idarə etməyə imkan verən “Nar+” tətbiqindən yararlanırlar. Müştəri xidmətlərinin bir çox funksiyasını özündə daşıyan bu tətbiq, abunəçilər üçün şəffaf müştəri təcrübəsinin ayrılmaz bir hissəsidir. Belə ki, tətbiqin yüklənmə sayı son 6 ayda 150% artaraq 300 mini ötüb.*




“Nar+” tətbiqi vasitəsilə abunəçilər bir neçə saniyə ərzində yeni internet paketi sifariş edə, tariflər haqqında məlumat əldə edib, özlərinə ən uyğun tarifə qoşula, mövcud tarifi dəyişə, bonuslarını yoxlaya və yeniləyə bilirlər. Statistikaya əsasən, abunəçilərin “Nar+” tətbiqində ən çox müraciət etdiyi funksiyalar, balans və bonusların yoxlanması ilə yanaşı, internet paketlərinin sifarişi, yeni tarifin aktivizasiyası və ya dəyişdirilməsidir. Tətbiqdən ən çox istifadə edənlər isə (61%) Bakı sakinləridir, 2-ci yerdə Sumqayıtda yaşayan abunəçilər, növbəti yerlərdə isə Gəncə və Quba, Qusar, Xaçmaz bölgələrinin sakinləri dayanır. Qeyd edək ki, istifadəçilər tətbiq vasitəsilə sərfiyyat haqqında izahlı qaimə əldə edə, rominq xidmətlərini idarə edə, eyni zamanda canlı çatla suallarına cavab ala bilərlər. “Nar+” tətbiqini AppStore və PlayStore-dan yükləmək mümkündür. Tətbiq haqqında daha ətraflı məlumatı https://www.nar.az/plus/ səhifəsindən əldə etmək olar.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97,7 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# DSX: İrandan Azərbaycana 22 kiloqrama yaxın narkotik vasitə keçirmək istəyən şəxslər tutulublar



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Sərhəd Qoşunlarının “Horadiz” sərhəd dəstəsinin Füzuli rayonu Bala Bəhmənli kəndi ərazisində yerləşən sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozmuş Azərbaycan vətəndaşları, Sumqayıt şəhər sakinləri 1985-ci il təvəllüdlü Babayev Cabir Calal oğlu və 1992-ci il təvəllüdlü Şirəlizadə Aqif Ağaseyid oğlu saxlanılıblar. Saxlanılmış şəxslərin üzərindən 12 kiloqram heroinə və 9 kiloqram 700 qram tiryəkə oxşar narkotik maddələr aşkar edilərək götürülüb. Sərhəd pozucularının narkotik vasitələri Samir və Kazım adlı İran vətəndaşlarından əldə etdikləri məlum olub. Bununla yanaşı keçirilmiş tədbirlər nəticəsində sərhəd pozucularını qarşılamaq üçün “Daewoo” markalı avtomobillə əraziyə gəlmiş Sumqayıt şəhər sakinləri 1994-cü il təvəllüdlü Ağaseyidli Raqif Vəkalət oğlu və 1997-ci il təvəllüdlü Musayev Tamerlan Telman oğlu şübhəli şəxs qismində saxlanılıblar. Nəqliyyat vasitəsinə baxış keçirilərkən avtomobilin salonunda 0,032 qram metamfetaminə oxşar psixotrop maddə aşkarlanıb. Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# ”Hər birimiz çiynimizi yükün altına verib dövlətin yükünü azaltmalıyıq”

“Pandemiya hər birimizin həyatına öz möhrünü vurub. İndi nəinki Azərbaycan, hətta dünya da əvvəlki kimi deyil. Şərtlər dəyişib, insanlar dəyişib, dünya dəyişib. Biz də dəyişməli, yeni dünyanın yazılmamış qanunlarına uyğunlaşmalıyıq”. Bunu SİA-ya Jurnalist Araşdırmalar Mərkəzinin rəhbəri Seymur Verdizadə deyib. ”Aydın məsələdir ki, karantin rejiminin uzadılması əlavə çətinliklər yaradır. Vətəndaşlar kimi dövlətlər də bu şərtlər altında öz mövcudluqlarını davam etdirməyə çətinlik çəkirlər. Əsas yük dövlətin üzərinə düşür. Yəni, karantin rejiminin uzadılması ilə bağlı qərar ikiqat məsuliyyət tələb edir. Hələki bu məsuliyyət dövlətin üzərinə düşür. Vətəndaş da çiynini məsuliyyətin altına verəndə, dövlətin yükü azalır. Hesab edirəm ki, hər birimiz çiynimizi yükün altına verib, dövlətin yükünü azaltmalıyıq. Necə? Qaydalara riayət etməklə. Təəssüflə qeyd etmək istəyirəm ki, biz çox da məsuliyyətli cəmiyyət deyirik. Bəzən öz xeyrimizə olan təklifdən də imtina edə bilirik.

Ötən həftə baş verən hadisə də bunu söyləməyə əsas verir. Vətəndaş ondan maska taxmağı tələb edən avtobus sürücüsünü niyə vurmalıdır? Axı avtobusda maska taxmaq ilk növbədə vətəndaşın öz sağlamlığı üçün lazımdır. Sanitar-epidemioloji vəziyyətin təhlili göstərir ki, biz qaydalara əməl etməyə bir o qədər də həvəs göstərmirik. Yoluxma sayı iki rəqəmliyə düşməlidir. Bu isə bizim karantin rejiminə əməl etməyimizdən asılıdır. Koronavirusla yaşamaq artıq həyat tərzinə çevrilib. Biz buna uyğunlaşmalıyıq. Məncə, bütün qadağaların bir gündə aradan qaldırılması fəlakətə səbəb ola bilər. Xəstəlik hələ bitməyib, vaksin tapılmayıb. Cəmiyyəti təhlükə il qarşı-qarşıya qoymaq olmaz. Ciddi maarifləndirmə işi aparandan, insanların öz məsuliyyətini dərk etdiyinə tam əmin olandan sonra yeni dövrə qədəm qoya bilərik”-deyə, S.Verdizadə fikrini tamamlayıb.

***Ceyhun Rasimoğlu***

# Sosial şəbəkələrdə çırpınanlar...

## Rəsul Quliyev: "Bu insanlar özləri qəbirlərini qazıblar"

**"Radikal müxalifətin (Xalq Cəbhəsi və Müsavat) 27 illik fəaliyyəti bu partiyaları və onların "liderlərini" iflasa uğradıb". Bunu Azərbaycanın eks-spikeri Rəsul Quliyev deyib. O, bildirib ki, bu komandaların Azərbaycanın 18-65 yaşlı vətəndaşları arasında dəstəyi maksimum 1 faiz ola bilər: "Yəni praktiki sıfırdır. Onlar 27 ildir özlərinin monoton tənqidləri, korrupsiya və rüşvəti dərindən analiz etmədən şişirdilmiş yalançı rəqəmlərlə xalqa təsir etmək cəhdləri əslində həm onları və həm də onlardan mütəmadi müsahibələr götürənlərin reytinqlərini əslində (youtubda 100 min insanın bu intervyulara baxdığına baxmayaraq) sıfıra çatdırıb.**



100 min baxır və müsahibənin təsiri sıfıra bərabər olursa, bunun səbəbini intervyunun keyfiyyətində yox, başqa səbəblərdə axtarmaq lazımdır. Hökumətin heç bir səbəb olmadan bu psevdo müxalifəti izolyasiya etməsini məntiqlə anlamaq mümkün deyil. Çünki bu insanlar deməzdim satqın və riyakarlar mənasız, həmişə eyni çeynənmiş və qeyri-obyektiv intervyuları ilə özləri qəbirlərini qazıblar. Hökumətin onları izoliyasiya edib yenidən qəbirdən çıxarmağa cəhdi ancaq bir şeyə qulluq edə bilər. Ölkədə real müxalifətin yaranmasının qarşısını almağa".

### Hafiz Hacıyev: "Sosial şəbəkə əxlaqsızları 27 ildir ki, bu günkü dövlətə qarşı böhtan, şər atsalar da xalq dövlətinə inanır"

"Xüsusilə bu günlərdə Prezident İlham Əliyevin video-müşavirədə ciddi məsələlərə toxunması və onlardan ən başlıcası siyasi ishatların aparılması, ölkədə gedən siyasi proseslərlə iqtisadi proseslərin uzlaşdırılması və müxalif partiyaların qanunvericilik hakimiyyətində iştirakı məsələsi ilə bağlı bu satqın və əxlaqsızların yenidən sosial şəbəkələrdə böhtan xarakterli çıxışlar etməkdədirlər. Ancaq hələ də anlamırlar ki, xalq onları çoxdan arxivin zibilxanasına atıb. Çünki xalq ölkə başçısın hakimiyyətdə olduğu son 16 il ərzində hər bir vətəndaşın qayğısına qaldığının şahidi olub. Və bu gün də hesab edirəm ki, dünyanı ağuşuna alan koronavirus pandemiyası ilə bağlı görülən işlər və atılan addımlar müsbət haldır və hər bir Azərbaycan vətəndaşı ölkə başçısının gördüyü işlərin şahididir". Bunu Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev özünün dediyi kimi, dünyanı ağuşuna alan koronavirus pandemiyasından istifadə edərək ölkədə sabitliyi pozmaq istəyən AXCP Əli Kərimlinin, Müsavat Partiyasının başqanı Arif Hacıyevin, "Milli Şura"nın "tryapka"sı Cəmil Həsənlinin, müxalifətin "minsifətlisi" Gültəkin Hacıbəylinin fəaliyyəti ilə bağlı açıqlamasında deyib.

Partiya sədri koronavirus pandemiyasından istifadə edərək ölkədə sabitliyi pozmaq istəyən qüvvələrə, həmçinin xəbərdarlıq da edib: "Bilirsiniz ki, Cənab Prezident video-görüntülü müşavirə keçirdi, ciddi məsələlərə toxundu və onlardan ən başlıcası siyasi ishatların aparılması, ölkədə gedən siyasi proseslərlə, iqtisadi proseslərin uzlaşdırılması və müxalif partiyaların qanunvericilik hakimiyyətində iştirakı məsələsi oldu. Son aylar aparılan islahatlar həqiqətən də təqdirəlayiqdir və Cənab Prezidentin şəxsən özünün fəaliyyəti nəticəsində ortaya qoyulan müsbət işlərdir. Ölkədə parlament seçkiləri keçirildi və bəzi partiyaların sədrləri mandat qazandılar. Bu, müsbət hal kimi dəyərləndirilməlidir. Düşünürəm ki, qarşıda da görüləcək işlər var və bunları həyata keçirmək üçün xalqla dövlət arasında müəyyən birlik olmalıdır və bunu da yaratmaqdan ötrü ölkə başçısı mart ayında bayram təbriki zamanı çıxışında ölkədə siyasi partiyalarla dialoqların aparılması məsələsinə toxundu və bunlar da həyata keçmək üzrədir. Partiya sədri olaraq mən də burda iştirak edirdim. Ancaq bu tədbirdə iştirak etməyənlərin məqsədi ölkədə ictimai-siyasi vəziyyətə qarşı çıxmaqdır. Çünki bunlar - Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli kimi viruslar xaricdən idarə olunanlardır. Və keçirilən müşavirədə ölkə başçısının onları "beşinci kolon" adlandırmaqla bir daha göstərdi ki, xalq belələrini çoxdan tarixin zibilxanalarına atıb. Azərbaycan xalqı ağıllı xalqdır, ağı qaradan seçməyi bacarır. Özünüz də bilirsiniz ki, bunları xaricdə olan müəyyən dairələr idarə edirlər. Axşama kimi təhqirlə, populist çıxışlarla Azərbaycan xalqını aldatmaq istəsələr də, buna nail ola bilməyiblər və bilməyəcəklər. Çünki ölkəsini, ailəsini qrantlara satan Sevinc Osmanqızı kimi mənəviyyatsızların həftənin 7 günün 6-sında satqın və cinayətkar ermənixisləti Əli Kərimlini, Cəmil Həsənlini, Gültəkin Hacıbəylini, o əxlaqsız Arif Məmmədovu kanalına çağırması, Azərbaycan dövlətinin əleyhinə həqarətlər yağdırması qəbuledilməzdir. Təəccüb də etmirəm, çünki satqın satqının yanında olar. Və düşünürəm ki, xaricdə özünü bloger adlandıran belə satqın və mənəviyyatsızlara qarşı tədbir görülməlidir. Onlar antitəbliğat aparmaqla insanların beyinlərini yeyirlər. Koronavirusun ölkədə daha da ağırlaşmasını arzu edən qüvvələr özləri bilərəkdən karantin rejimini pozurlar və polis tədbir görəndə isə "siyasi məhbus" adı ilə xaricdə təbliğat aparmağa başlayırlar. Yəni bizim düşmənlərimiz çoxdur, həm xaricdə, həm də daxildə. Belə naqislər Azərbaycan dövlətinə çox böyük zərbələr vurmağa çalışırlar. Biz isə bunlara imkan verə bilmərik".

### Soial şəbəkənin "xalq yanğısı" - Sevinc Osmanqızı...

Həmişə belə olub, indi də belədir. Özünü "xalq yanğısı" kimi göstərən, bütün mənliyini dollara, avroya, funt sterlinqə satan Sevinc Osmanqızı ermənilərı müdafiə etməkdən yorularaq Azərbaycanda bəzi məmurların karantin rejiminin qanunlarını pozması ilə bağlı yatmaq bilmədən kanalına özü kimi simasız, satqın və mənəviyyatsızları çağırmaqla kimliyini, hansı yuvanın quşu olduğunu bir daha nümayiş etdirir. Ancaq anlamır ki, hər dəfə belə şou göstərməklə bir daha ermənidən betər olduqlarını göstərirlər. Dərdiniz başqa dərddir. İndi nə əl-qolunuz bağlanıb, nə də "konslagerdə" yaşayırsınız. Artıq bütün oyunlardan çıxdınız. İndi də cinayətkarları ortaya ataraq hər gün səhər açılanda "bu gün necə söyüm, nədən başlayım" sualına cavab axtara-axtara qalırsınız. Ancaq cifayda.

Sosial şəbəkədə səsinizi və üzünüzü görən kimi, tamaşaçı "odboy" edir. Bax, nankor və bədbəxtlik buna deyirlər. Çünki ermənilər kimi, bu virusların, özü də Sevinc Osmanın qızı kimi şəhid atasının ruhuna qiymət verməyən satqın, ermənidən də betər olanın "vətən yanğısı"nı bu xalq, bu Vətən, bu dövlət yaxşı bilir. Guya "vətən üçün ağlayır". Yadında saxla: hər kəs ağlaya bilməz. Ekç-spiker Rəsul Quliyev demişkən, sizin kimi mənəviyyatsız və satqınlar öz qəbirlərinizi çoxdan qazmısınız.

### "Beşinci kolon" anti-Azərbaycan dairələrin siyasi təzyiq aləti kimi...

Qərəzli xarici dairələrdən, ermənipərəst mərkəzlərdən daim siyasi direktivlər alan "beşinci kolon" isə virtual müstəvidə "fəallıq" göstərərək sosial şəbəkələr vasitəsilə dövlətin əleyhinə təxribat xarakterli məlumatlar - reallığı əks etdirməyən informasiyalar yaymağa, qarayaxma kampaniyası aparmağa çalışsalar da, hər dəfə uğursuzluğa düçar olaraq gülünc vəziyyətə düşürlər. Elə məhz bu səbəbdən də antimilli dərnək üzvlərinin bu davranışları sosial şəbəkədə növbəti dəfə tənqid, lağ-lağı obyektinə çevrilib. Azərbaycan cəmiyyətinə ağıl verib demokratiya dərsi keçmək istəyənlərin özlərinin ağıla ehtiyacının olduğu, həmçinin "Milli Şura"nın "zoom iclasları"nın ciddi müzakirə meydanı deyil, qeybətxana şousu olduğu qeyd edilib. Çünki həmin "demokratların" "zoom konfransı" müddətində etdikləri söhbət bir-birlərini keçəl olduqlarına görə ələ salmaqdan, digərinin keçəl olmasına rəğmən "simpatiçni" görünməsi barədə fikirlərdən, başqa birisinin "Facebook"da mesajlaşıb qeybət etməsindən və ən "müsbət nəticələri" isə özlərinin lazımsız "tryapka" olduqlarını deməələri lap yerinə düşdü. Bütün bundan sonra "siyasi mübarizə" və "fikir mübadiləsi"nin kulminasiya nöqtəsi isə "bizim işimiz hökuməti şərləməkdir" sözünü deməələri onların iç üzünü, əsl mahiyyətini açıb ortaya qoyur, xalqa təqdim edir. Bir də "müxalifətçiyəm" deyə özünüzü necə deyərlər, "ağam mənə kor deyib, gəlib-gedəni vur deyib" kimi aparırsınız. Elə düşünürsünüz ki, sosial şəbəkədir də, nə istəsək deyəcəyik. Narahat olmayın, siz o şəbəkədə çırpına-çırpına qalacaqsınız. Və sürünə-sürünə bu dövlətin ayağına gələcəksiniz, bu Vətənin torpağını yalamaq isətəyəcəksiniz. Ancaq bilməlisiniz ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin, həm də düşmənin yalı ilə bəslənənləri nə tarix, nə də bu xalq heç vaxt bağışlamır. Çünki sizin kimi satqınların qatarı çoxdan gedib...

**Rəfiqə HÜSEYNOVA**

## Təhqir, yaramazlıq və...

*İctimaiyyət: "Tofiq Yaqublu üzr istəməlidir!"*



Bəlli cinayət əməlinə görə məhkəmə qarşısına çıxarılan və buna rəğmən, hələ də aqressiya və düşmənçilik mövqeyini sərgiləyən, bu dəfə daha dəhşətli şəkildə - söyüş söyməklə, təhqir etməklə gündəmdə qalmağa səy göstərən "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü Tofiq Yaqublunun sözügedən yaramazlığı ictimai rəy tərəfindən hiddətlə qınanılıb. Onun məhkəməsindəcə hakimi, polisləri və sadə vətəndaşları təhqir etməsi istər-istəməz ictimaiyyətdə kəskin ikrah hissi yaratmaqla yanaşı, həm də təmsil olunduğu dağıdıcı müxalifət düşərgəsinin hansı "məziyyətlərə" sahib olduğunu da sübuta yetirdi.

**Əli Kərimli, budurmu sivil mübarizə?**

Artıq sağlam düşüncəli ictimaiyyət nümayəndələri də ayrı-ayrı sosial şəbəkə istifadəçiləri tənqid statusları yazır və bildirirlər ki, cəmiyyətə əxlaq, tərbiyə dərsi keçməyə çalışanların əxlaq və tərbiyə "nümunələri" bundan artıq ola bilməzdi. Tofiq Yaqublu bu tərbiyəsizliyə yol verir, digər cəbhəçilər, milli şuraçılar da bunu dəstəkləyir. İnsanlar sual edirlər ki, bəs, Əli Kərimli deyirdi onlarda təhqir yoxdur, mübarizələri isə sivil qaydadadır və s... Budurmi sivil mübarizə?

Yaxud, nəyə görə AXCP sədri yandaşı hesab edilən T.Yaqublunun bu cür yolverilməz əməllərinin qarşısının alınmasına cəhd belə göstərmir? Məhz bu baxımdan, ictimaiyyət Tofiq Yaqubludan, onun təhqirlərini yayan AXCP sədri Əli Kərimlidən, Cəmil Həsənlidən, Gültəkin Hacıbəylidən üzr istəmələrini tələb edir. Lakin bu adamlar üçün xalqın mövqeyi ictimaiyyətin rəyi heç vaxt maraqlı olmayıb. Bunun isə bir səbəbi var. İndi də T.Yaqublunun üzərindən qarşılarında baş əydikləri xarici ağalarının ciblərinə göz dikib, pay ummaq...

**Rövşən RƏSULOV**

## Avetik İşxanyan: "Biz onları "ağ genosidi" realizə etmək üçün "dəvət edirik"



"Hətta Yaponiyanın Ermənistandakı səfiri Zare Sinanyanın dediklərini öyrənərsə, o sadəcə bu sözlərə istehza edib gülər". SİA armerni-anreport-a istinadən xəbər verir ki, bu barədə "Facebook"da erməni hüquq müdafiəçisi Avetik İşxanyan yazıb. Belə ki, erməni hökumətinin diaspora məsələləri üzrə ofisinin rəhbəri Zare Sinanyana görə, güclü dövlətlər çoxmillətli olmur və həmin dövlətlər milli azlıqları özünküləşdirməklə, onların hesabına idarəçilik edirlər. "Hətta erməni çarları da bu prinsipdən istifadə edirdilər", deyən Sinanyanın sözlərini A.İşxanyan istehza və rişxəndlə qarşılayıb. Nikol Paşinyanın diaspora məsələləri ilə iş üzrə səlahiyyətlisinin - Z.Sinanyanın fikirlərini "Bu diletantizm deyil, kobudluq və rüsvayçılıqdır", deyə adalandıran erməni hüquq müdafiəçisinə görə, qarşı tərəf erməni çarlarını nümunə göstərərək, Ermənistana assuriyalıları, ərəbləri və s. millətləri gətizdirib, onları erməniləşdirmək istədiyini yazıb. SİTAT: "Budur dövlət idarəçiliyi? Siz bu sözlərinizlə Ermənistanın vətəndaşları olan yezidilərə, assuriyalılara, molokanlara qarşı təhqir ünvanlayırsınız. Axı onlar bu sözləri Ermənistanın dövlət siyasəti olaraq hesab edəcəklər. Mənim özüm də Ermənistana Yaxın Şərqdə əziyyət çəkən yezidilərin, assuriyalıların və s. millətlərin gətizdirilməsi ideyasının tərəfdarıyam. Lakin bu sözlərdən sonra belə hesab etmək olar ki, biz onları "ağ genosidi" realizə etmək üçün "dəvət edirik".

"Belə qonaqpərvərlik görünməyib", deyən İşxanyan davam edib: "Axı bu millətlərin milli ləyaqətləri var. Əks halda onlar təqiblərə, təzyiqlərə məruz qalmazdılar. Onun bu zölərinə görə mən onun nəzərdə tutduğu bütün xalqlardan üzr istəyirəm. Lakin Yaponiyanın səfirindən üzr istəməyə ehtiyac yoxdur. Hətta yapon səfiri İşxanyanın bu sözlərini eşitsəydi, sadəcə istehzalı şəkildə gülərdi".

Xatırldaq ki, Ermənistanın diaspora məsələləri ilə iş üzrə ofisinin rəhbəri Zare Sinanyan yapainların çinlilər və koreyalıların qarışığından əmələ gəldiklərini deyərək, gülünc fikirlər səsləndirib və Ermənistanın başqa xalqların ölkəyə gətirilərək, erməniləşdirmək təklifini irəli sürüb.

**Rövşən**

# İnsanların sağlamlığına və əxlaqına zərbə vuran "ağ ölüm"

***Yaşadığımız dünyamızda elə məsələlər və hadisələr var ki, bunlar insanlığın ən qatı düşmənləridir. Təəssüf ki, bu düşmənlər bəşəriyyətin yarandığı dönəmdən insanlarla yol yoldaşı olub və bu yoldaşlıq insanlığa böyük zərbələr vurub. Lokal toquşmalar, münaqişələr və müharibələr bəşəriyyəti öz inkişafından saxlayan , insanlığa ən ağır zərbələr vuran hadisələrdəndir. İnsanlığın və bəşəriyyətin bəlasından insanlar qurtulmağa can atmırlar, əksinə hər gün yeni, müasir öldürücü silahlar kəşf edir, bölgələrə girməyə, insanları qırğınlara verməyə çalışırlar.***



Deyilənlərə və yazılanlara görə, dünyada bir ay ərzində silahlanmaya və müharibələrə 30 milyard dollar xərclənir kl, bu da dünyada qida və su çatışmazlığının tamamilə ardan qaldırılması üçün kifayət edən məbləğdir. Ancaq görünən odur ki, ABŞ, Rusiya, Fransa, Böyük Britaniya, Çin və digər dövlətlər dünyada hökm sürən aclığa və səfalətə deyil, öldürməyə, insanları öz ev eşiyindən didərgin salmağa pul xərcləyirlər. Acınacaqlı daha bir məsələdə ondan ibarətdir ki, müharibələr qədər narkomaniya və narkobiznesdə bəşəriyyətin ən ağrılı problemlərindədir. Tibbi hesabatlarda "ağ ölüm" kimi səciyələndirilən narkomaniyadan hər il minlərlə insan həyatlarını itirir və ya şikəst, əlil olurlar. Ekspertlərində gəldikləri qənaət ondan ibarətdir ki, narkomanlar 35-40 yaşlarına qədər ömür sürə bilirlər. Onların övladları da sağlamlıq baxımdan qüsürlu olurlar. Bu baxımdan demək olar ki, narkomaniya və narkobiznes təkcə insanların sağlamlığına, əxlaqına deyil həm də genofonduna ciddi zərbələr vurur.

## Gənclər arasında geniş maarifləndirmə işinin aparılamasına zərurət var

Cəmiyyətlərin və xalqların təhlükə mənbəyinə çevrilən narkomaniyanın aradan qaldırılması üçün dövlətlər və hakimiyyətlər sərt qanunlar qəbul etsələrdə istəklərə nail ola bilməyiblər. Səbəbdə narkobiznes tacirlərinin yüz illik tarixə malik narko ticarət şəbəkəsi qurmalarıdır. Elə dövlətlər və hakimiyyətdə təmsil olunan şəxslər var ki, onlar dolayısı ilə narkobaronlara xidmət edirlər. Qarşılığında böyük məbləğdə maliyyə vəsaitləri alırlar. BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Ofisinin açıqladığı məlumata görə, dünyada istehsal olunan tiryəkin böyük hissəsi Əfqanıstanın payına düşür. Açıqlanan hesabatda bildirilir ki, dünyada il ərzində 7000 ton tiryək istehsal olunur ki, onunda dörddə üçü Əfqanıstanın payına düşür.

Diqqətçəkən məqam ondan ibarətdir ki, Əfqanıstanda narkotik maddələrin istehsalı NATO-nun hərbi qüvvələrinin bu ölkəyə yeridilməsindən sonra 40 dəfə artıb. Bu isə dünya üzrə narkotik dövriyyəsinin 2 dəfə artmasına gətirib çıxarıb. ABŞ hərbi qüvvələrinin Əfqanısatanda az qala hər bir kənd və qəbələrə, meydanlara, küçələrə belə nəzarət etdiyi bir şəraitdə narkotik istehsalı və ixracının qarşısını ala bilməməsi sual doğurur. Ancaq xatırlatmaq lazımdır ki, ABŞ özünün milli təhlükəsizliyi üçün birbaşa təhdid olan Kolumbiyada narkotik plantasiyalarına təyyarələr vasitəsilə xüsusi kimyəvi vasitə səpərək kokainin istehsalını bir ildə 75% azalda bilmişdir. Belə olan halda ABŞ-ın özünün tam nəzarəti altında olan Əfqanıstanda narkotik tarlalarını məhv etməməyi qaranlıq mətləblərdən xəbər verir. ABŞ-ın Əfqanıstanda xüsusi nümayəndəsi olan Riçard Holbruk bildirmişdi ki, "Əfqanıstanda xaşxaş tarlalarının məhv edilməsi pulun lazımsız sərf olunmasıdır. Bu addım talibların narkoticarətdən gəlirlərini azaltmamaqla bərabər əfqan kəndlilərinin döyüşçülərə qoşulmasına gətirib çıxarır".

Bu faktın özü sübut edir ki. ABŞ Əfqanıstanda xaşxaş, tiryək və digər narkotik maddələrin becərilməsində və bəzi ölkələrə daşınmasında maraqlıdır. Çünki, ABŞ-ın dövlət siyasətində ölkələrin gənclik sferasının narkotik maddələrlə zəhərlənməsində başlıca istiqamətlərdən hesab olunur. Faktlar təsdiq edir ki, Əfqanıstandan Rusiyaya narkotik maddələrin daşınmasında ABŞ-ın təhlükəsiz qüvvələrinin rolu var. Təsdiq olunan məlumatlar sırasında qeyd olunur ki, məhz ABŞ-ın Əfqanıstandakı hərbi qüvvələrinin baş verənlərə göz yumması nəticəsində hər ilə Əfqanıstanda istehsal olunan narkotik maddələrin 25-30 faizi Rusiyaya daşınır. Məlumatlara istinadən demək olar ki, Rusiyada 3 milyona yaxın insan narkotik maddələrdən asılıdır. Həm də, ölkə üzrə ildə 75 ton tiryək istifadə edilir. Əfqanısatan istehsalı olan narkotika ilə insanların zəhərləndirilməsi siyahısına Fransa, İspaniya, İngiltərə, İtaliya, Çin və Meksika kimi ölkələrdə var. Hər il 1 milyona yaxın insanın narkotik maddədən nəzərdə tutduğu dozadan artıq istifadə etməsi səbəbindən həyatlarını itirmələri bu bəşəri fəlakətin qarşısının alınması üçün bütün dünya dövlətlərinin birlikdə mübarizə aparmalarına zərurət olduğunu demək olar. Beynəlxalq təşkilatların və ayrı-ayrı dövlətlərin qətiyyətli mübarizə tədbirləri nəticəsində narkotika tacirlərinin və narko biznesin qarşısını qisməndə olsa almaq mümkün olur. BMT isə bütün dünya dövlətlərinin və xalqlarının bu bəlaya qarşı mübarizəyə səfərbər etmək üçün iyun ayının 26-nı Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan edib. Narkotik maddələrin gənclər və yeniyetmələr arasında daha çox yayılma təhlükəsini nəzərə alaraq, bir çox ölkələrdə "Narkotiksiz gələcək naminə" milli proqramlarının qəbulu da təbii ki, sağlam gələcəyimiz üçün məsuliyyət hissindən yaranan vətəndaşlıq borcudur.

## Görülən hər bir iş, atılan addım sağlam həyat, təhlükəsiz cəmiyyət qurulmasına hesablanıb

Ölkəmizdə insanların sağlam və təhlükəsiz yaşam tərzinin təmin olunması üçün mütərəqqi qanunlar qəbul edilib, Prezident sərəncamı və fərmanları imzalanıb. Azərbaycan Respublikası Prezidentinin 24 iyun 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində müsbət dinamika əldə olunub. Ölkəmizdə hazırda Narkoloji Dispanserdə qeydiyyata alınan narkomanların sayı 28376 nəfərdir ki, onların da 539 nəfərini, yəni 1,9%-ni qadınlar təşkil edir. Qeydə alınmış narkomanların yaş qruplarına nəzər saldıqda isə görərik ki, onların 4 nəfəri (narkomanların ümumi sayında xüsusi çəkisi 0,01%) 15-17 yaş, 1344 nəfəri (4,74%) 18-24 yaş, 3893 nəfəri (13,72%) 25-29 yaş, 4147 nəfəri (14,61%) 30-34 yaş, 4296 nəfəri 35-39 yaş, 3415 nəfəri (12,03%) 40-44 yaş, 3023 nəfəri (10,25%) 45-49 yaş, 2531 nəfəri ( 8,92%) 50-54 yaş, 2227 nəfəri (7,85%) 55-59 yaş, 2014 nəfəri (7,09%) 60-64 yaş, 1482 nəfəri (5,32%) isə 65 və daha yuxarı yaşda olan şəxslər təşkil etmişdir.

Ölkəmizdə narkotik aludəçilərinin müalicəsini həyata keçirməklə yanaşı gənclər və yeniyetmələr arasında geniş maarifləndirmə tədbirləri də həyata keçirilir. Bu kimi mübarizə tədbirlərində dövlətin müvafiq qurumları ilə yanaşı QHT-lər və KİV-lərdə yaxından iştirak edirlər. Bir sözlə, görülən hər bir iş, atılan addım sağlam həyat, təhlükəsiz cəmiyyət qurulmasına hesablanıb. Bu baxımdan bir olaq, birlikdə bəşəriyyətin bəlasına, ölüm kabusuna çevrilən narkomaniya və narkobiznesə qarşı sərt mübarizə aparaq.

***İ.ƏLİYEV***

# Yeni exspres taksilər fəaliyyətə başlayacaq




Bakıda yeni exspres taksi xidməti yaradılacaq. Bunu açıqlamasında Bakı Nəqliyyat Agentliyinin (BNA) Hüquq şöbəsinin müdiri Hikmət Babayev deyib. Onun sözlərinə görə, bu məsələ Agentliyin təşəbbüsü ilə müzakirə edilən yeni konsepsiyada öz əksini tapıb: "Həmin taksilər birbaşa marşrut üzrə hərəkət edəcək. Bu taksilər fəaliyyətə başlayandan sonra pərakəndə halda işləyən "1 manatlıq" taksilərin fəaliyyətinin qarşısı alınacaq. Exspres taksilər sərnişinlər üçün tənzimlənən formada fəaliyyət göstərəcək".

H.Babayev bildirib ki, hazırda müxtəlif istiqamətlərdə "1 manatlıq" taksilər pərakəndə vəziyyətdə fəaliyyət göstərərək bir dayanacaqdan digər dayanacağa sərnişin daşımaqla məşğuldur: "Həmin taksilər tənzimlənmədiyindən avtobus dayanacaqlarına daxil olur, dayanacaqlarda və yollarda tıxaclar yaradır. Bu da sərnişin və sürücülərin haqlı narazılığına səbəb olur".

# Hökumət malikanələrinin təmiri zamanı mənimsəmə faktı barədə cinayət işi başlanıb



***Hökumət malikanələrinin təmiri zamanı törədildiyi iddia edilən sui-istifadə faktı ilə bağlı cinayət işi başlanıb. SİA Ermənistana məxsus Iragir.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə "FactInfo" informasiya yayıb.***

İnformasiyaya görə, ilkin istintaq Ermənistan İstintaq Komitəsinə həvalə edilib. "FactInfo"-nun bundan öncə verdiyi xəbərə görə, Dövlət Nəzarəti Xidməti, Baş nazirlik ofisinin birbaşa nəzarəti altında fəaliyyət göstərən "Konda Şəxsi Ev Təsərrüfatı" tərəfindən aparılan təmir işlərində sui-istifadə hallarını aşkar edib.

Qeyd olunur ki, "Konda Xüsusi Ev Təşərrüfatı"nın balansında yüksək vəzifəli məmurların yaşadığı hökumət sarayları var. Bildirilir ki, hələ 2019-cu ildə, Ermənistanın Baş naziri Nikol Paşinyan və ailəsinə xidmət edən hökumət malikanəsinin binasının əsaslı təmiri və tənzimlənməsi üçün dövlət büdcəsindən təqribən 2 milyon dollar ayrıldığı barədə məlumatlar səs-küy salıb. Üstəlik, bu məbləğ gizli bir qərarla Baş nazirlik ofisinə ayrılıb və təmir çərçivəsində, məlumatlara görə, bir tualet üçün belə milyonlar xərclənib. Dövlət Nəzarəti Xidməti də aparılan təmir işlərini problemli hesab edir. "Fakt İnfo"-nun yazılı müraciətinə cavab olaraq, Ermənistan Dövlət Dövlət Xidməti 2019-cu ildə aparılan işlərdə sui-istifadə hallarının qeydə alındığını rəsmən təsdiqləyib.

***İnam Hacıyev***

# Metro sentyabrın 15-dən əvvəl də işini bərpa edə bilər



Bakı metropoliteninin fəaliyyətini bərpa etməsi Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul edəcəyi qərardan asılıdır. SİA-nın məlumatına görə, bunu açıqlamasında "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib. Onun sözlərinə görə,Qərargahın qəbul etdiyi qərara görə, Bakı metropoliteninin stansiyaları fəaliyyətini sentyabrın 15-dək dayandırıb: "Stansiyaların sərnişin qəbul edəcəyi gün Qərargahın qərarından asılıdır. Stansiyalar sentyabrın 15-i də açıla bilər, hətta həmin vaxtdan əvvəl də. Bu isə ölkədəki epidemioloji vəziyyətdən asılıdır. Əgər vəziyyət tam normallaşarsa, stnasiyalar fəaliyyətini sentyabrın 15-dən əvvəl də açıla bilər. Hələ ki, bu barədə bizə heç bir göstəriş verilməyib. Amma buna baxmayaraq metro stansiyaları fəaliyyətini bərpa etməyə hazırlıqlı vəziyyətdədir". Xatırladaq ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə ölkə ərazisində sərtləşdirilmiş karantin rejiminin müddəti 30 sentyabra qədər uzadılsa da, metro stansiyalarının fəaliyyəti sentyabrın 15-i səhər saat 06:00-a kimi dayandırılıb.

# Əli Kərimlinin yalan danışması “adətkarlıq”la əlaqədardır, yoxsa, məlumatsızlıqla?

***Azərbaycanda müxalifət olmaq çox asandır. “Ana müxalifət” olmaq ondan da asan. Daxildəkiləri də, xarici “xeyirxahları” da inandırırsan ki, iqtidarın əsas rəqibi sənsən. Müxalifət daxilindəki hər cür birləşmə cəhdlərini beşiyindəcə boğursan.***



Şərikin yox. Maliyyən vaxtlı-vaxtında gəlir. Yanındakı “ictimai əsaslarla” işləyənləri saxlamaq üçün hər birinə yaxşı maaş verirsən. Elə eləyirsən ki, ən az maaş alan işçin iqtidar nazirinin rəsmi maaşı qədər “donluq” alsın.

Ətrafında “zombi”lərdən ibarət dəstə yaradandan sonra, başlayırsan “blokada şəraitində” müsahibələr verməyə. Götürürsən hörmətli bir göyərti satanın kifayət qədər istedadla deyə biləcəyi narazılıqları.

Səviyyəni xeyli aşağı salıb, “prezident” ədası ilə o dəyərli kişidən oğurladıqlarını səsləndirirsən.

Özünü də elə aparırsan ki, guya o zəhmətkeş göyərti satan kimi günahsızsan və ölkənin bu vəziyyətə salınmasında zərrə qədər də təqsirin yoxdur.

Guya 1992-ci ildə ordu quruculuğu ilə məşğul olmaq əvəzinə, rus desant diviziyasının “pullu xidmət”indən yararlanan, V.Şerbakı milyonçuya çevirən və onun azad etdiyi torpaqları öz adına çıxaraq, utanmadan “Xankəndinə lap yaxınlaşmışdıq”-deyən və son nəticədə torpaqların 20%-ni erməniyə verən iqtidarın aparıcı üzvü olmamısan.

Guya S.Hüseynov kimi bir “sərkərdənin” qabağından rəzil vəziyyətə düşərək qaçan “qəhrəmanlardan” biri deyilsən. Guya həmin təlatümlü günlərdə Bakıda olmamısan, Oksfordda yüksək səviyyədə təhsil alıb, böyük xəyallarla vətənə qayıtmısan və gördüyün vəziyyətdən dəhşətə gəlib, keçmisən müxalifətə.

O məzlum göyərti satanın narazılıqlarla dolu mətnini oğurlayıb başlamısan Forosda blokada vəziyyətində olan M.Qorbaçov ədası ilə bəyanatlar verməyə.

Ver! Göyərti satan bilər, sən bilərsən.

Ancaq heç olmasa yalan danışma, həqiqəti de.

Belə müxalifətçilərdən biri, AXCP sədri Əli Kərimli avqustun 28-də yeni müsahibə verərək son silah qalmaqalı ilə əlaqədar bəyan etdi ki, “Vaxtilə dövlət Dumasının bir komitə sədri açıqlamışdı. 2 milyard dollarlıq Ermənistana silah bəxşiş edilməsini. Bu olubmu? Olub. Azərbaycan tərəfindən ciddi bir etiraz doğurmayıb”.

Bu kələ-kötür cümlələrin anlaşılması üçün normal azərbaycan dilinə tərcümə edilmə zərurətini və C.Həsənli demişkən “pandameya” dövründə dediklərini anlamaq istəyən insanların xeyli gücə düşəcəyini qoyaq bir tərəfə.

Bu deyilənlər başdan-ayağa yalandır axı!

1997-ci ilin aprelində Rusiya Dövlət Dumasının Müdafiə komitəsinin sədri L.Roxlinin parlamentin iclasında Ermənistana silah-sursatın verilməsi barədə bəyanat verməsi həqiqətdir. Ancaq söhbət Ə.Kərimlinin iddia etdiyi kimi 2 milyard dollardan yox, 1 milyarda yaxın dəyəri olan silah-sursatdan-80 ədəd t-72 tankı, 120 ədəd artilleriya qurğusu, bir neçə BMP-2 və 10000 ədəd atıcı silahdan - gedirdi.

Yəni, bütün bunlar 1 milyard deyildi, bir az artırıb, necə deyərlər, “dəyirmiliyib” eləmişdik 1 milyard. İndi AXCP sədri nə məqsədlə üstünə o qədər də gəlib, “2 milyard söhbəti” eləyir? Aydın deyil.

Bir şey aydındır ki, rəqəmləri şişirtməklə insanları çaşdırmağa çalışmaq nə özünü ciddi siyasətçi sayana, nə də adi insana yaraşan şey deyil. AXCP sədri sonra deyir ki, bu fakt Azərbaycan tərəfindən ciddi bir etiraz doğurmayıb. Ağ yalandır. Azərbaycan hakimiyyətinin həmin hadisə ilə bağlı etirazı o qədər kəskin oldu ki, Rusiya nə o vaxta qədər, nə də ondan sonra atmadığı addımları atmaq məcburiyyətində qaldı.

L.Roxlinin bəyanatından sonra prezident H.Əliyev bu faktı Rusiya rəhbərliyinin nəzərinə çatdıraraq qəti etirazını bildirdi. Məsələni araşdırmaq üçün Rusiya prezidentinin sərəncamı ilə dərhal xüsusi komissiya yaradıldı. Sonradan Rusiya prezidenti B.Yeltsin bu məsələdə əli olan bir neçə yüksək rütbəli hərbçinin cəzalandırıldığı barədə prezident H.Əliyevə məlumat verdi. Eyni zamanda, Rusiya Daxili İşlər Nazirliyinin İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəisi General-leytenant Dementyev vəzifəsindən azad olundu.

Yeri gəlmişkən, həmin günlərdə araşdırma komissiyasının işinin nəticələri barədə məruzəni indiki prezident V.Putin səsləndirmişdi. Azərbaycan hakimiyyətinin cəsarətli davranışı ona gətirib çıxardı ki, 1996-cı ildə verilmiş silah-sursatdan sonra ruslar uzun müddət ermənilərə ciddi sayıla biləcək məbləğdə silah partiyası vermədi. Doğrudur, 2008-ci ildə Rusiyanın Ermənistana 800 milyon dollar dəyərində silah-sursat bağışlaması barədə yeni məlumat yayıldı və Azərbaycan Xarici İşlər Nazirliyi həmin il yanvarın 15-də Rusiyaya nota verdi.

Cavab olaraq Rusiya XİN bəyan etdi ki, belə bir hadisə olmayıb və ermənilərə heç nə verilməyib. Ruslar o qədər səmimi and-aman elədi ki, inanmaqdan başqa çarə qalmadı. Bundan sonra yalnız 2015-ci ildə Rusiya Ermənistana cilah-sursat almaq üçün 200 milyon dollar kredit ayırdı və həmin kredit hesabına müxtəlif silah növləri alındı. Daha sonra 2017-ci ildə eyni məqsədlə Ermənistana 15 il müddətinə 3 faizli 100 milyon dollar kredit ayrıldı.

Azərbaycan buna nədən etiraz etməli idi?

Biz Rusiyaya silah satmağı qadağan edə bilərdikmi?

Axı, biz, 2005-ci ildən başlayaraq Rusiyadan Ermənistana satılandan dəfələrlə artıq ən müasir silahlar almışıq və alırıq. Ancaq söhbət 1994-cü ildən bu günə qədər üzərinə Minsk qrupunun həmsədri kimi vasitəçilik missiyası götürən dövlətin tərəflərdən birinə havayı silah verməsindən gedəndə biz qəti şəkildə etiraz etmişik və bundan sonra da edəcəyik.

1997-ci, 2008-ci və 2020-ci illərdə Azərbaycan hakimiyyətinin Rusiyaya kəskin etirazı bu amillə bağlı olub. Çünki, münaqişə vəziyyətində olan silahlı qüvvələrdən birinə silah-sursat bağışlayan dövlət tərəf tutduğunu açıq şəkildə göstərir və həmin andan vasitəçilik etmək haqqını itirir.

Bir tərəfdən tərəfsizliyini göstərmək üçün erməniləri narazı salan təkliflərlə çıxış edən, digər tərəfdən, “Tovuz təxribatı” günlərində onlara 400 tonluq “tikinti materialları” ilə yardım edən Rusiya ilə hər şey aydındır. Aydın olmayan Ə.Kərimlinin hamıya, ən azı çoxlarına yaxşı məlum olan məsələlər barədə yalan danışmağı özünə rəva bilməsidir. Səbəb yalan danışmaq “adətkarlığı”dır, yoxsa, yaxın tariximiz barədə məlumatsızlıq?

Necə düşünürsünüz?

P.S. Dünən Osmanqızı tv-yə müsahibə verən keçmiş diplomat Arif Məmmədov da Rusiyanın son günlər Ermənistana verdiyi 400 tonluq yardımı artırdı və “500 ton silah-sursat verildiyini” bəyan etdi. Bu artıq tarix bilgisi ilə əlaqədar məsələ deyil. Bu artıq xəstəlikdir. Nə etmək olar?. Allah şəfa versin.

***Abutalıb Səmədov,
Azərbaycan Naminə Alyans Partiyasının sədri.***

# “Xaricdəki söyüş qruplaşması ifşa olunur”



Son günlər xaricdəki “söyüş müxalifət” ilə AXCP-nin sədri Əli Kərimli arasında daha sıx əlaqələr, əməkdaşlıq münasibətlər yaranıb. Təbii ki, bu kimi əlaqələr yeni təxribatların, pozucu aktların planlaşırılıb, həyata keçirilməsinə hesablanıb. “Azadlıq Hərəkatçıları” Birliyinin sədri Təhmasib Novruzov “Səs” qəzetinə açıqlamasında bildirdi ki, onlar hər zaman sıx əlaqədə olublar və adlarını siyasi müxalifət qoyub mövcud iqtidara qarşı siyasi mübarizə adı altında Müstəqil Azərbaycan dövlətinə, milli mənafelərə qarşı savaş açıblar: “Sadəcə, onlar əlaqələrini gizli saxlayır, guya bir-birindən xəbərsiz “mübarizə” apardıqlarını göstərməyə çalışırdılar. Lakin istifadə etdikləri metodların, ssenarinin üst-üstə düşməsinin fərqində olmamaları onları ifşa etdi. Həm xaricdəki söyüş qruplaşması, həm də daxildə özünü siyasi müxalifət kimi qələmə verənlər eyni mərkəzdən idarə olunurlar. Bu mərkəzdə, artıq hər kəsə gün kimi aydındır ki, anti-Azərbaycan qüvvələr, o cümlədən erməni lobbisi və ermənipərəst qüvvələr tərəfindən idarə olunur. Diqqət edin, nə vaxt Qarabağ məsələsində Azərbaycanın xeyrinə irəliləyiş olursa, bu qüvvələr Azərbaycan hakimiyyətinin üzərinə hücumlarını gücləndirirlər”.

T.Novruzov bildirdi ki, son olaylar, xüsusilə Azərbaycanın Rusiya kimi nəhəng ölkə ilə sərt diplomatiyaya üstünlük verməsi, Türkiyə ordusunun Azərbaycanda güclənməsi müqabilində, bütün xalq bu siyasətə birmənalı dəstək verdiyi halda, bunlar əsl ermənipərəst mövqe nümayiş etdirirlər: “Məncə təkcə bu fakt onların əsl simasının ortaya qoyulduğunu deməyə əsas verir. Ancaq unudurlar ki, artıq xalq qəti mövqe ortaya qoyub və dövlətin indiki siyasətinə dəstək verməklə, hakimiyyətin siyasətini bəyəndiyini bir daha ortaya qoyur. Belə olan təqdirdə onlar nə qədər bu iqtidara qara yaxsalar, o qədər çox dərinə batırlar. Nə deyək, allah onlara vaxtında ağıl verməsi, bundan sonra isə ümumxalq nifrəti müqabilində ağıl versə də, xeyri olmayacaq. Çünki o qədər dərinə batıblar ki, onları ordan çıxarmağa çətin ki, kiminsə gücü yetə”.

***Gülyana***

# “Biz seyrçi qalsaq, bu kimi səfərlər davam edəcək”



Ermənistanın keçmiş prezidentləri Robert Koçaryan və Serj Sarkisyan da tez-tez Dağlıq Qarabağa gəlirdilər. Onlar Qarabağda doğulublar, birbaş separatçılıqla məşğul olublar, qətliamlar törədiblər. Amma Ermənistanın baş naziri Nikol Paşinyan Ermənistanda doğulub. Bu sözləri SİA-ya verdiyi açıqlamasında “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib. Mərkəzin rəhbərinin sözlərinə görə, amma indi biz baxırıq ki, Paşinyan Serj Sarkisyan və Robert Koçaryandan daha çox özünü separatçı kimi göstərir və Dağlıq Qarabağa daha çox qanunsuz səfərlər edir ki, bu səfərlərin də bir neçə məqsədi var.

“Birinci məsələ odur ki, Dağlıq Qarabağın indiki liderinin özünə bağlı olduğunu göstərmək istəyir. Çünki, orada bir müddət öncə dırnaqarası prezident seçkiləri keçirilmiş, Araik Arutunyan dırnaqarası prezident seçilmişdir. Paşinyan da onu öz tərəfdarı kimi göstərir. Üstəlik, sanki bizə də guya mesaj verir ki, guya mərhələli planı qəbul etməyəcək, torpaqların boşaldılmasına razılaşmayacaq. Amma o deməklə deyil. Biz öz sözümüzü deməliyik. Mənə elə gəlir ki, artıq bu cür səfərlərə biz dözməməliyik. Nə etməliyik? Düşünürəm ki, artıq bizim generallardan biri açıq bəyanat verməlidir ki, bir daha Ermənistanın baş naziri, yaxud hərhansı digər rəsmisi Azərbaycanın hava sərhəddini kobud surətdə pozarsa, onun helikopteri vurula bilər. Çünki, bu qanun pozuntusudur. Necə ki, biz vaxtilə demişdik ki, əgər Xocalıda təmir olunan hava limanına hansısa təyyarələr enərsə, Ermənistan tərəfi nəticəsi ilə üzləşməli olacaq. Bundan sonra qorxdular və təyyarələr enmədi. Sadəcə helikopterlər endi. Deməli, belə bir xəbərdarlıq da verməliyik ki, hansısa bir helikopter Azərbaycanın hava xəttini pozarsa, istər orada baş nazir olsun, istər orada Ermənistanın müdafiə naziri olsun, biz o pozucuya qarşı istənilən addımı atmaq məcburiyyətində qalacağıq. Bunun nə demək olduğunu Ermənistan hakimiyyəti də biləcək, beynəlxalq aləm də. Yoxsa əgər biz seyrçi qalsaq, bu kimi qanunlara, beynəlxalq qanunlara zidd səfərlər davam edəcək”, deyə Elxan Şahinoğlu deyib.

***İnam Hacıyev***

# Bu il Azərbaycan 9,1 milyard dəyərində məhsul ixrac edib

2020-ci ilin ilk yeddi ayı ərzində Azərbaycanın ixracı 9,1 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə 1 milyard 35 milyon ABŞ dolları dəyərində reallaşdırılıb. SİA-nın məlumatına görə, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac İcmalı”ında qeyd olunur.

Koronavirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyətlə bağlı qeyri-neft sektoru üzrə ixrac ötən ilin müvafiq dövrü ilə müqayisədə 98 milyon ABŞ dolları və ya 8,6 faiz azalıb.Bu ilin yanvar-iyul ayları ərzində Rusiyaya 418,6 milyon, Türkiyəyə 205 milyon, İsveçrəyə 107,6 milyon, Gürcüstana 84,2 milyon və Çinə 31,7 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 2020-cu ilin 7 ayı ərzində Rusiyaya qeyri-neft ixracı 5,7 faiz, İsveçrəyə 21,9 faiz və Çinə 60,9 faiz artıb.

# Azərbaycançılıq, dünya azərbaycanlıları və müstəqil Azərbaycan

***Dünya azərbaycanlılarının təşkilatlanması, müstəqil Azərbaycan Respublikası ilə siyasi, iqtisadi, mədəni və mənəvi əlaqələrin inkişaf etdirilməsi son dərəcə önəmli məsələlərdəndir. Azərbaycanda 31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi gününün bayram kimi qeyd olunması ümumi milli diasporun formalaşmasında, Azərbaycan lobbisinin inkişafında başlıca məqamlardan biri olmuşdur.***

Bu günün tarixi Naxçıvan MR Ali Məclisinin "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" 1991-ci il 16 dekabr tarixli qərarı və bilavasitə bu işlərin təşəbbüskarı və həmin tarixi qərara imza atmış şəxs - Heydər Əliyevin adı ilə bağlıdır. Bəlkə də məhz bu hal xaricdə yaşayan soydaşlarımız tərəfindən Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldikdən sonra gördüyü işlərə diqqəti artırmış, Azərbaycan dövlətinin varlığına və gələcəyinə inam və ümidlər yaratmış, onların tarixi Vətənlə əlaqələrinin genişlənməsinə səbəb olmuşdur. Azərbaycan Respublikası Cənubi Qafqazın şərq hissəsində, Xəzər dənizinin sahilində yerləşir və sahəsi 86,6 min kv. km-dir. 2001-ci ilin əvvəlində Azərbaycan Respublikasının əhalisi 8 milyon 81 min nəfər, o cümlədən 4 milyon 107 min nəfər və ya 51 faizini şəhər və 3 milyon 974 min nəfər və ya 49 faizini kənd sakinləri təşkil etmişdir.

Dünya Azərbaycanlılarının I Qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev demişdir:" Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək, indi müstəqil Azərbaycan ilə daha da sıx əlaqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir. Biz indi böyük məmnuniyyətlə qeyd edə bilərik ki, dünyanın bir çox ölkələrində - Avropada, Şimali Amerikada artıq böyük Azərbaycan icmaları yaranıbdır. Son illər bu icmalar get-gedə təşkilatlanır, genişlənir və azərbaycanlıların yaşadıqları ölkələrdə onların birliyini, həmrəyliyini təmin edir. Son illər bu proses surətlə gedir. Güman edirəm ki, məhz müstəqil Azərbaycanın varlığı bu həmrəyliyin inkişafının əsasını təşkil edir. Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı, azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir - ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şerlərimiz, mahnılarımızdır, xalqımıza mənsub olan adət-ənənələrdir. İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın. Dünyada eyni zamanda assimlyasiya prosesi də var. İnsanlar - mən azərbaycanlılar haqqında danışıram- gərək, yaşadıqları ölkədə, yenə deyirəm, o şəraiti mənimsəyərək, orada özləri üçün yaxşı mövqelər tutsunlar. Ancaq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən məhz bu amillərdir.

Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövləti müstəqilliyni əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir. Bizim bu qurultayı keçirməkdə məqsədimiz məhz bundan ibarət olmuşdur. Güman edirəm ki, qurultay nümayəndələri, dünyanın bir çox uzaq ölkələrindən Azərbaycana, doğma Vətənə gəlmiş soydaşlarımız burada, qurultay günlərində bir-biri ilə daha da sıx ünsiyyətdə olacaqlar, bir-birini anlamağa çalışacaqlar, müxtəlif ölkələrdə olan icmaların bir diaspor kimi formalaşmasında daha fəal iştirak edəcəklər və Azərbaycan ilə dünyada, digər ölkələrdə olan azərbaycanlıların əlaqələrini möhkəmləndirəcəklər. Hesab edirəm ki, qurultay bu sahədə, azərbaycançılıq ideyalarının həyata keçirilməsi üçün, dünya azərbaycanlılarının həmrəyliyinin genişləndirilməsi və inkişaf etdirilməsi üçün çox mühüm tarixi bir mərhələdir. Ümid edirəm ki, bu qurultay bizim qarşımızda duran vəzifələrin yerinə yetirilməsində çox böyük rol oynayacaqdır, öz xidmətlərini göstərəcəkdir. Müstəqil dövlət kimi Azərbaycan öz milli mənafelərinə uyğun olan müstəqil xarici siyasət aparır. Müstəqil xarici siyasət aparmaq müstəqilliyi daha da möhkəmləndirmək deməkdir. Biz həm xarici əlaqələrdə, həm də Azərbaycanın daxilində bir çox çətinliklərlə rastlaşmağımıza baxmayaraq, öz müstəqilliyimizi qoruyaraq dünyada müstəqil siyasət aparırıq. Azərbaycan sülhsevər dövlətdir. Biz dünyanın bütün ölkələri ilə lazım olan səviyyədə iqtisadi, siyasi, ictimai, elmi, humanitar əlaqələr yaratmışıq, yaradırıq və bu əlaqələri inkişaf etdiririk və etdirəcəyik. Ancaq Azərbaycan heç vaxt öz müstəqil siyasətindən geri çəkilməyəcəkdir. Onun müstəqil xarici siyasəti Azərbaycanın müstəqilliyinin əsas rəmzidir, əsas göstəricisidir.18.08.2020 Dünya Azərbaycanlılarının I Qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi - Vikimənbəhttps://az.wikisource.org/wiki/Dünya_Azərbaycanlılarının_I_Qurultayında_Azərbaycan-_Respublikasının_Prezidenti_Heydər_Əliyevin_nitqi 5/7

Azərbaycan dünyanın bütün beynəlxalq təşkilatlarının üzvüdür. Bilirsiniz ki, bu ilin əvvəlində Azərbaycan mötəbər Avropa Şurasının də həqiqi üzvü seçilibdir. Bunlar Azərbaycanın xarici siyasətinin, eyni zamanda Azərbaycanın həyatında aparılan demokratik dəyişikliklərin, bütün sahələrdə tətbiq olunan islahatların məntiqi nəticəsidir. Azərbaycan dünyəvi dövlətdir və dünyəvi dövlət kimi dünyada öz yerini tutubdur. Bu, bizim strateji yolumuzdur. Hüquqi, demokratik və dünyəvi dövlət - bizim dövlət quruculuğunda əsas prinsipimiz budur. Həyatımızda əsas prinsiplər budur. Biz bu yol ilə gedirik və bundan sonra da gedəcəyik.

Sizə deyə bilərəm ki, biz bir çox ağır və çətin məsələləri həll etdik və qarşıda duran üfüqləri də çox yaxşı görürük. Azərbaycanın böyük təbii sərvətləri, əlverişli coğrafi-strateji mövqeyi, güclü iqtisadi, intellectual potensialı və azərbaycanlıların yüksək mədəni səviyyəsi müstəqil ölkəmizin gələcəyinin çox xoşbəxt və firavan olmasını təmin edəcəkdir. Əmin ola bilərsiniz ki, bu yol, qarşıda duran üfüqlər, perspektiv tam realdır. Apardığı iqtisadi siyasət sayəsində bir neçə ildən sonra Azərbaycan zəngin ölkələrdən biri olacaqdır. Azərbaycan xalqının rifah halı çox yaxşılaşacaqdır. Azərbaycanda hər kəs sərbəst, azad yaşayacaqdır.

Azərbaycanda demokratik quruculuq işləri, söz azadlığı, insan azadlığı, vicdan azadlığı, mətbuat azadlığı - bütün azadlıqlar təmin olunub və bundan sonra da təmin olunacaqdır. Yəni siyasi dünyagörüşündən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı burada, doğma vətənində rahat, özü istədiyi kimi yaşayacaqdır.

Ancaq bizim üçün ən çətin problem, bizi ən çox narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. İşğal edilmiş torpaqlarımızın azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsidir. Biz bu sahədə çox işlər görmüşük. Bütün beynəlxalq təşkilatlarda bu məsələləri qaldırmışıq və lazımi qərarlar qəbul olunubdur. 1993-cü ildə Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal etdiyi torpaqlardan qeyd-şərtsiz çıxması barədə dörd qətnamə qəbul etmişdir. Təhlükəsizlik Şurası sədrinin altı bəyanatı var. Ancaq Ermənistan bunlara məhəl qoymur. 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli haqqında çox əhəmiyyətli bir sənəd qəbul edilmişdir. ATƏT-in tərkibində olan 54 dövlətdən 53-ü buna səs vermiş, təkcə Ermənistan etiraz etmişdi.

Ancaq təəssüflər olsun ki, bu mötəbər təşkilatın, ATƏT-in zirvə görüşünün irəli sürdüyü qərar yenə də Ermənistan tərəfindən qəbul olunmur. Biz məsələni sülh yolu ilə həll etmək üçün daim çalışırıq. Bilirsiniz ki, hələ 1993-cü ildə Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün ATƏT-in Minsk qrupu yaranıbdır. Minsk qrupuna 1997-ci ilin əvvəlindən üç böyük dövlət - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa rəhbərlik edir. Biz ötən illər bu təşkilatla, Minsk qrupu ilə, onun həmsədrləri ilə çox işlər görmüşük. Üç-dörd gün bundan öncə həmsədrlər - Rusiyanın, Amerika Birləşmiş Ştatlarının və Fransanın təmsilçiləri yenə də bölgəmizdə olmuş, bizimlə görüşüb danışıqlar aparmış, Ermənistanda olmuşlar. Biz bir daha bəyan etmişik ki, məsələnin




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycançılıq və müstəqil dövlətçilik ənənələri" istiqaməti çərçivəsində hazırlanıb*

sülh yolu ilə həll olunmasının tərəfdarıyıq və bunu hər iki tərəfdən müəyyən kompromislər nəticəsində həll etmək olar. Ancaq bu, beynəlxalq hüquq normaları əsasında, dünyada hamı tərəfindən tanınmış prinsiplər - ölkələrin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həll olunmalıdır. Biz bu işi davam etdirəcəyik. Əmin olduğumu bildirmək istəyirəm ki, biz bu münaqişənin də ləğv olunmasına, aradan götürülməsinə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır, işğal olunmuş torpaqlar azad ediləcək, yerindən-yurdundan didərgin düşmüş qaçqınlar öz doğma torpaqlarına qayıdacaqlar. Əbiidir ki, bu sahədə beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan diasporuna da böyük ehtiyacımız var.

Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan diasporu son illər təşkilatlanır və Azərbaycan icmaları, iasporu yaşadıqları ölkədə, ümumiyyətlə, beynəlxalq aləmdə artıq özlərini göstərirlər. Amma bu, bizim iasporun formalaşmasının ilkin mərhələsidir. Hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən aha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O lkələrin həyatına öz təsirlərini göstərə bilsinlər. Beləliklə də müxtəlif ölkələrdə Azərbaycanın müstəqilliyini, onun xarici siyasətini təbliğ etməklə yanaşı, Azərbaycanın problemlərinin həll olunmasına yardım etsinlər.Hesab edirəm ki, dünya azərbaycanlıları bu yol ilə getməlidir və bu yolda hələ istifadə olunmamış böyük mkanlar vardır. Bu gün işinə başlayan qurultay da məhz bu məqsədi daşıyır. Bir də qeyd edirəm, biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların hər birinin öz ölkəsində yaxşı yaşamasını, öz mövqeyini möhkəmləndirməsini, öz rifah halını yaxşılaşdırmasını arzulayırıq. Arzulayırıq ki, hər bir azərbaycanlı yaşadığı ölkədə ictimai-siyasi həyatda fəal iştirak etsin, özünə görkəmli bir yer tutsun, müəyyən təsir imkanına malik olsun. Biz bunları arzu edirik.

Bu barədə müəyyən xidmətlər göstərmək üçün biz dövlətimizin tərkibində Azərbaycan diasporu ilə iş üçün xüsusi bir orqanın yaradılması haqqında da qərar qəbul edəcəyik. Güman edirəm ki, belə mərkəzləşmiş bir orqan, yəni Azərbaycan icmaları ilə daim əlaqə saxlayan orqan həm icmaların və ümumiyyətlə, Azərbaycan diasporunun formalaşmasına, həm də bizim əlaqələrimizin daha da inkişafına xidmət edəcəkdir. Əziz həmvətənlər! Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı haqqında bizim qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır. Biz Azərbaycanın latın əlifbasına keçməsi haqqında qərar qəbul etdik. İndi Azərbaycanda hamı, bütün dövlət orqanları yalnız latın əlifbasından istifadə edir. Bu da bizim milliliyimizi, azərbaycançılığımızı göstərən çox mühüm bir amildir.

***Vahid Ömərov f.ü.f.d.dos.***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

2 sentyabr

## “Kurtlar vadisi”nin aktyoru vəfat etdi



Məşhur türkiyəli aktyor Haldun Boysan vəfat edib. SİA-nın türk mətbuatına istinadən verdiyi xəbərə görə, sənətçi serial çəkilişləri üçün getdiyi Nevşehirin Ürgüp kəndində infarkt keçirib. Qaldığı oteldə halı pisləşən sənətçi üçün təcili yardım çağrılıb. Dərhal xəstəxanaya aparılan Boysanı xilas etmək mümkün olmayıb. Qeyd edək ki, Boysan “Kara Melek”, “Gemide”, “Çılgın Bediş”, “Kurtlar Vadisi” kimi bir çox serial və filmdə rol alıb.

## “Neftçi” - “Qalatasaray” cütünün potensial rəqibi açıqlandı



***Futbol üzrə UEFA Avropa Liqasının 3-cü təsnifat mərhələsinin püşkü atılıb. Belə ki, UEFA-nın İsveçrənin Nyon şəhərindəki mənzil-qərargahında keçirilən tədbirdə təmsilçimiz “Neftçi”nin də potensial rəqibi müəyyənləşib.***

“Ağ-qaralar” 2-ci mərhələdəki rəqibi “Qalatasaray”ı (Türkiyə) mübarizədən kənarlaşdırsa, “Renova” (Şimali Makedoniya)/”Hayduk” (Xorvatiya) cütünün qalibi ilə qarşılaşacaq. “Neftçi” - “Qalatasaray” oyununun qalibi 3-cü mərhələdəki rəqibini evdə qəbul edəcək. Qeyd edək ki, 3-cü təsnifat mərhələsinin oyunları sentyabrın 24-də keçiriləcək.

## Qax sakini evini yandıraraq hadisə yerindən qaçıb



Qax rayonunun Uzuntala kəndində fərdi yaşayış evlərindən birində anidən yanğın başlayıb. İlkin məlumata görə, ev sahibi Cuma Kərimov ailəsi ilə birgə yaşadığı evi yandıraraq hadisə yerindən uzaqlaşıb. Yanğın yerinə Fövqəladə Hallar Nazirliyinin Qax rayon Dövlət Yanğından Mühafizə hissəsinin yanğınsöndürən maşın və şəxsi heyəti cəlb olunub. Yanğın zamanı 60 kv/m-lik, iki otaq və bir hamamdan ibarət olan yerdən tikilmiş ev içərisindəki əşyalarla birlikdə tamamilə yanıb. Hadisəni törədən ev sahibi Cuma Kərimov evi yandırdıqdan sonra ərazidən qaçıb. Faktla bağlı araşdırmalara başlanılıb.

## Azərbaycanda neçə min həkim var?

Bu ilin əvvəlinə olan məlumata görə, Azərbaycanda 31 min 829 həkim fəaliyyət göstərir. Tibb müəssisələrində 7 min 801 terapevt, 3 min 556 pediatr, 3 min 368 cərrah, 3 min 131 stomatoloq, 1786 ginekoloq, habelə digər



ixtisasdan olan həkim çalışır.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, ölkəmizdə əhalinin hər 10 min nəfərinə 13,5 pediatr, 7,8 terapevt, 3,4 cərrah, 3,1 stomatoloq, 1,5 şüa diaqnostikası üzrə mütəxəssis, 1 nevropatoloq, hər 10 min qadına 3,6 ginekoloq düşür.

İlin əvvəlində respublikamızda 55 min 650 orta tibb işçisi, o cümlədən 38 min 292 tibb bacısı, 4 min 144 akuşer, 3 min 553 feldşer-laborant, 2 min 918 feldşer, 628 rentgen üzrə laborant və digər ixtisaslardan olan tibb işçisi qeydə alınıb. Hər 10 min əhaliyə isə 55,9 orta tibb işçisi, o cümlədən 38,5 tibb bacısı, 3,6 feldşer-laborant, 2,9 feldşer, 0,6 rentgen üzrə laborant, hər 10 min qadına 8,3 akuşer və digər orta tibb kadrı düşür.

## Diqqət: Bu məhsullar xərçəng riskini 20 faiz aşağı salır



***Xərçəng xəstəliyinin inkişafından tamamilə müdafiə edən məhsulların mövcud olmamasına baxmayaraq, bəziləri bədxassəli şişlərin əmələ gəlməsindən orqanizmin müdafiəsini gücləndirir. “MedikForum” portalının yazdığına görə ki, bu məhsulların istifadə edilməsi immun sisteminin fəaliyyətinə müsbət təsir edir, bu da öz növbəsində xərçəng riskini ən azı 20 faiz aşağı salır.***

Xərçəng əleyhinə maneəni möhkəmləndirmək məqsədilə həkimlər immun sisteminin müdafiə xüsusiyyətlərini səmərəli stimullaşdıran sarımsaqdan istifadə edilməsini tövsiyə edirlər. Bu cür səmərə kükürd birləşmələri ilə təmin edilir. Mövcud olan tədqiqatların göstəriciləri belə nəticəyə gəlməyə əsas verir ki, sarımsağın istifadə edilməsi mədə xərçənginin qarşısının alınması üsullarından biridir - bu vərdiş sayəsində xəstəlik ehtimalı 15 faiz azalır.

Öz növbəsində, kolorektal (bağırsaq) xərçəngi, prostat şişi riski Braziliya qozunun pəhrizə daxil edilməsinə imkan verir. Bu məhsul - ən zəngin selenyum mənbəyidir: bu mineral şiş şəklində mutasiya etməyə qadir olan zədələnmiş hüceyrələrin məhvinə yardım edir. Kornell və Arizona universitetlərinin alimləri tərəfindən əldə edilmiş məlumatlar qozun sayəsində prostat xərçəngi riski 63 faiz, bağırsaq xərçəngi riskinin isə 58 faiz azaldıla biləcəyinə işarə edirlər. Bunu etmək üçün gündə iki dənə qoz yemək lazımdır.

Xərçəng xəstəlikləri ilə ən yaxşı mübarizlərdən biri brokolidir. Tərəvəz spesifik bir birləşmə - bir çox şiş növü ilə əlaqəli WWP1 genini basdıran I3C molekulunu ehtiva edir, bu Beth-İzraiel Tibb Mərkəzinin alimləri tərəfindən müəyyən edilib. Məhsulun digər komponenti - bağırsaq və prostat şişlərinin hüceyrələrinin inkişafına maneə törətmə xüsusiyyətinə malik olan sulforafan maddəsidir.

Bundan başqa, pəhrizdə çox vaxt almanın mövcudluğu kolorektal xərçəngin inkişafının səmərəli şəkildə qarşısını alır. Buna, onların pəhriz lifləri, eləcə də, xərçəng hüceyrələrinin qatilləri olan proksyanidinlər antioksidan maddələri köməklik edir.

Çayın istifadə edilməsi də xərçəng riskini aşağı salır. Hesablanıb ki, gündəlik iki fincan yumurtalıq xərçənginə tutulma şansını 32 faiz azalda bilər. Buna çay yarpaqlarının tərkibində bol şəkildə olan antioksidantlar və flavonoidlər səbəb olur.

Yağlı balıq yemək şiş xəstəliklərinin qarşısının alınması üçün çox faydalıdır. “Domaşni Oçag” nəşri həftədə dörd porsiyanın leykemiya, miyelom və linfoma ehtimalını 30 faiz azalda biləcəyini yazır. Öz növbəsində, müntəzəm olaraq yeyilən sitrus meyvələri qırtlaq, mədə və ağız boşluğu xərçəngi riskini əhəmiyyətli dərəcədə azaldır.

## Sumqayıtda evdən külli miqdarda pul oğurlanıb

Sumqayıtda evdən külli miqdarda pul oğurlayan şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, avqustun 29-da şəhər ərazisindəki evlərin birindən 14 min 400 ABŞ dolları məbləğində pul oğurlamaqda şübhəli bilinən şəhər sakini D.Təşkin Sumqayıt Şəhər Polis İdarəsinin 3-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı araşdırmalar davam etdirilir.



**Baş redaktor:**

**Bəhruz Quliyev**

**Baş redaktorun müavinləri:**

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**